MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

# NÜSRƏT KƏSƏMƏNLİ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**NÜSRƏT KƏSƏMƏNLİ**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"
BAKI-2004

*Bu kitab "**Nüsrət Kəsəmənli.** Gözlərimin qarası" (Bakı, Gənclik, 1975) və "**Nüsrət Kəsəmənli**. Heyf o sevgiyə" (Bakı, Gənclik, 2000) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Rəhilə Kəsəmənli**

Ön sözün müəllifi: **Nizami Cəfərov**

**894.3611 -dc21**
**AZE**
**Nüsrət Kəsəmənli. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2004, 256 səh.

Nüsrət Kəsəmənli... Azərbaycan gəncliyinin bütöv bır nəsli öz sevgililərinə onun şeirlərini göndərməklə hisslərini, duyğularını ifadə etdilər.

Dünyaya şair kimi gəlib, dünyadan şair kimi gedən Nüsrət Kəsəmənlinin sehrli söz aləmində yumşaq, həlim və səmimiyyətlə qovuşuq ürəklərə axan işıqlı duyğular isindirir, düşündürür.

Poeziyamızın ənənəvi və yeni şeir formalarına istinad edərək həmişə maraqlı və orijinal lövhələr yaratmış şairin bu kitabında onun həyat, insan və cəmiyyət haqqında oxucu ilə səmimi, poetik söhbətləri toplanmışdır. Bu əsərlərində gənclik səmimiyyətini yaradıcılığı boyu qorumuş şairin mənəvi dünyası bütün zənginliyi ilə görünür.

Bu kitab ürəyi sevgi həsrətindən yananlar üçün, ümidi yorulmuşlar üçün, başını əlləri arasına alıb bu dünyanı götür-qoy edənlər üçün, inciyib-küsənlər üçün və bir də sadəcə sevənlər üçündü...

**ISBN 9952-418-08-3**

© "ŞƏRQ-QƏRB", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# NÜSRƏT KƏSƏMƏNLİ:
# SEVƏN ŞAİR, SEVİLƏN ŞAİR

Nüsrət Kəsəmənli poeziyaya çox gənc yaşlarında böyük yaradıcılıq enerjisi (və heyrətedici bir səmımiyyətlə!) gəldi. Əlbəttə, gənclikdə insanın istər həyatda, istərsə də sənətdə səmimi, ürəyiaçıq olması o qədər də böyük qəhrəmanlıq deyil; Nüsrət Kəsəmənlinin insan (və sənətkar!) olaraq qəhrəmanlığı onda oldu ki, gənclik səmimiyyətini ömrünün sonuna qədər qoruya bildi. İyirmi, otuz yaşlarında elədiyi "günah"ları qırx, əlli yaşlarında da eləməkdən çəkinmədi, həyatının (və yaradıcılığının) heç bir mərhələsində istedadından, mənəvi enerjisindən diplomatik istifadə xayalına düşmədi. Dünyaya şair kimi gəldi, dünyadan da şair kimi getdi.

Nüsrət Kəsəmənlinin səmimiliyi onun ruhən güclü olmasından, daxili zənginliyindən, intellekt sərbəstliyindən nəşət edirdi. O, nifrətində, hətta məhəbbətində də sadəlövh bir güc mümayiş etdirməkdən çəkinmirdi. Nüsrət Kəsəmənlinin bu insan-şair ərköyünlüyü həyatda öz yerini tutmaqda, layiq olduğu mənsəblərə çatmaqda ona mane olsa da, müasir Azərbaycan poeziyasının ən gözəl əsərlərini yaratmaqda kömək göstərmişdi. Və o, məişətində, ictitmai varlığında "şair taleyi"nə yerləşməyən nə vardısa hamısını daxilindən (taleyindən!) gələn qeyri-adi bir ehtirasla çıxarıb atırdı. Odur ki, Nüsrət Kəsəmənlinin şeirləri onun yalnız mənəvi varlığının deyil, eyni zamanda, sözün geniş mənasında, fiziki varlığının təzahürüdür:

Sənsiz gecələrim yuxu bilmədi,
İçimdə alışan ahı bilmədi.
Mən bildim, sən bildin, çoxu bilmədi,
Heyf o sevgiyə, o məhəbbətə...

Mən Nüsrət Kəsəmənlinin az qala hər bir şerində ona (yalnız ona!) məxsus həyəcanları, əhvali-ruhiyyələri, onun (yalnız onun!) keçirə biləcəyi hissləri, yaşaya (və dözə!) biləcəyi iztirabları görürəm. Və inanmıram ki, həmin göründuyum istedadı təkcə mənə aiddir... Ümumiyyətlə, Azərbaycan poeziyasında böyük Molla Pənah Vaqifdən sonra öz poetik fizionomiyasını bu qədər sadəlövh bir cəsarətlə, öz tərcümeyi-halını bu qədər səmimi bir səxavətlə təqdim edən ikinci bir şair varsa, o da Nüsrət Kəsəmənlidir - öz "kişi sevgisi"ndən, "kişi nifrətindən, "kişi laübaliliyi"ndən qorxub çəkinməyən, hisslərini, duyğularını, düşüncələrini yalnız Allah dərgahında danışılacaq emosional bir təfərrüatla insanlara danışan Nüsrət Kəsəmənli...

Qayıdıb gəlibsən gözləri yaşlı,
Deyirsən: bir daha küsən deyilsən.
Hanı o vüqarın, o saymazlığın;
Yox, bu sən deyilsən, bu sən deyilsən.

...Dərdlisən, dərdini get danış suya,
Əl açma, alçalma mən verən paya.
Elə bil, dilənçi gəlib qapıya,
Yox, bu sən deyilsən, bu sən deyilsən...

Nüsrət Kəsəmənlinin yaradıcılığını müasir ədəbiyyatşünaslıq anlayışları ilə izah etmək çətindir, ona görə yox ki, bu anlayışlar ümumiyyətlə gücsüzdür, sadacə ona görə ki, Nüsrət Kəsəmənli yaradıcılığının texnologiyasının vermək gücündə deyil. Onun şeirləri o qədər isti, hərarətli, lirik qəhrəmanı o qədər özünəməxsusdur (hətta o qədər özüdür) ki, heç bir tənqidçi-ədəbiyyatşünas həmin şeirlərə professional təmkin (və soyuqluqla) müdaxilə etmək, Nüsrət Kəsəmənli yaradıcılığının ruhunu incitmək istəmir. Yalnız bir faktı xatırlatmaq kifayətdir ki, xüsusilə 70-80-ci illərdə Azərbaycanda ən populyar şairlərdən olmasına baxmayaraq, ədəbi tənqid Nüsrət Kəsəmənli haqqında, demək olar ki, susmuşdur. Əlbəttə, bu sükutun səbəbi çox oxunan, çox sevilən şairə qarşı total bir laqeydlik deyil, indiyə qədər görünməmiş bir səmimiyyətlə özünü ifadə (və təqdim) edən üslubun mövcud ideoloji-estetik tələblər əsasında araşdırıb dəyərləndirmək mexanizminin olmaması idi. Və həmin mexanizm hələ də yaranmadığına görə, mən Nüsrət Kəsəmənli yaradıcılığının qeyri-adiliyini elmi anlayışlarla, akademik mülahizələrlə şərh etməli olduğum halda yalnız qeyri-adi sənət qarşısında heyrətimi bildirməkdən başqa bir şey eləyə bilməyəcəyimi hiss etdiyimdən təəssüflənirəm. Lakin mənə təskinlik verən odur ki, dünyada çox sadə mətləblər var ki, ağıl onun mahiyyətinə varmaq iqtidarında deyil, onları ancaq duymaq, hiss etmək, min illər boyu necə yaşanıbsa, o cür də yaşamaq lazımdır...

Hələ çiçəklər açacaq,
Dərilib, qoxlanıb, solacaq.
Boynubükük bənövşələrə
Qəmli xatirələr qalacaq...

İllərin əlçatmaz uzaqlığında
Nə vaxtsa aldadılmış gözəlin
gözləri dolacaq.
Ağarmıs saçların xatirələri
Yaddaşda ilişib qalmış
qara saçlarını yolacaq.

Heç kəs arxayın olmasın
Dünya belə getməz;
Yerdəki mələklərin intiqamını
Göydəki mələklər alacaq...

Nüsrət Kəsəmənli Azərbaycan insanının hisslərindən, duyğularından, özünəməxsus daxili şıltaqlığından, təsvirə gəlməyən ehtiraslı fədakarlığından, hansısa əxlaqi-ideoloji mülahizələrlə uzaqlaşmış Azərbaycan lirikasını təvazökar bir cəsarətlə onun özünə qaytardı. Və şairin bu cəsarəti barədə düşünərkən mənim yadıma böyük Mirzə Cəlilin bir qədər başqa (lakin ruhən yaxın) məsələ ilə əlaqədar dediyi sözlər düşür: "Biz həqiqəti yazmaqdan utanmadıq...". Nüsrət Kəsəmənli insan həqiqətlərini ədəbiyyata, poeziyaya necə varsa o cür gətirdi: dadlı günahlardan, quduz hisslərdən, adamın üstünə yağış kimi yağan baxışlardan, xatalı gecələrdən, bir anlıq sevgilərdən, saxta sənədi xatırladan saxta məhəbbətdən, mənəvi dilənçilikdən... yazdı. Müasirlərinin çoxundan fərqli olaraq "mənşəyi bəlli olmayan" qəhrəmanlar yaratmaq arxasınca getmədi, özündən müştəbeh "mühəndis-bioloq" yazıçılar kimi yeni insan yaratmadı... Çünki Nüsrət Kəsəmənli Allahın yaratmış olduğu insanın daxilən nə qədər mürəkkəb, nə qədər zəngin olduğunu çox gənc yaşlarından dərk etmişdi.

O, ədəbiyyata 60-cı illərin sonu - 70-ci illərin əvvəllərində demək olar ki, ehtiyacın içindən çıxıb gəlmişdi. Azərbaycan (İndiki Bakı) Dövlət Universitetinin jurnalistika fakültəsində tahsil ala-ala "Bakı" qəzetində çalışmış, Universiteti bitirdikdən sonra isə Azərbaycan Yazıçılar İttifaqında işləmişdi. 80-ci illərin ortalarından "Azərbaycanfilm" kinostudiyasında baş redaktor olmuş, həmin illərdə Azərbaycan televiziyasında cəmiyyətin böyük maraqla qarşıladığı məşhur "Dünyaya pəncərə" verilişini yaradaraq ciddi sosial-mənəvi problemlər qaldırmışdı. Və Nüsrət Kəsəmənli 70-ci illərdə nəşr olunan "Sevirsənsə" (1971), "Gözlərimin qarası" (1975), "Özümə bənzədiyim günlər" (1979) kitabları, ədəbi görüşlərdə, məclislərdə özünaməxsus bir emosionallıqla oxuduğu şeirlərlə artıq Azərbaycan gəncliyinin sevimlisinə çevrilmişdi. İnsan (onun həyatı, məhəbbəti, nifrəti...) barədə əsl həqiqəti eşitməyə can atan 70-ci illər Azərbaycan gəncliyi yaradıcılıqda ilk böyük addımlarını atan şair üçün dövrün hər hansı məşhur sənətkarının belə qibtə edəcəyi böyük bir auditoriya idi. Nüsrət Kəsəmənli bu auditoriyada özünü müəllim-tərbiyəçi kimi aparmır, əbədi demaqoqluq eləmirdi. Özündən danışırdı!.. "Bizim evdə biri vardı, biri yox..." Və iyirmi yaşlarından otuz yaşlarına keçən gənc şairin sürətlə böyük ədəbi nüfuz qazanmasının birinci səbəbi, artıq dəfələrlə deyildiyi kimi, şeirlərinin səmimiliyi idisə, ikinci səbəbi həmin səmimiliyin ilk növbədə özünə münasibətdə təzahürü idi. O, atalı-analı yetimliyindən, həyata goz açıb nənəsini görməsindən, ehtiyac içində keçən gəncliyindən, heç kimdən mərhəmət ummamasından danışırdı... Lakin heç kimi mühakimə eləmir, günahlandırmır, taleyin ona bəxş etdiyi mənəvi tərcümeyi-haldan imtina edəcəyini ağlına belə gətirmirdi. Taleyinə bu cür mərdanə bir şəkildə yiyə durmaq, tərcümeyi-halını ictimailəşdirmədən (vulqarlaşdırmadan!) təqdim eləmək cəsarəti Nüsrət Kəsəmənlinin poetik istedadı qarşısında elə bir geniş meydan açırdı ki, bu meydanda insan psixologiyasının ən müxtəlif

spektrlərini aşkarlamaq, insanı insan edən (yaxud onu insanlıqdan çıxaran) nüansları xırdalamaq mümkün idi...

Mən səni unuda bilmirəm, axı,
Unutsam; nələri unudam gərək,
Göylərə baxmışıq aylı gecədə,
Unutsam göyləri unudam gərək.

Dənizi unudum, ya dalğaları,
Xatirən yadımdan çıxaydı barı,
Payızda xəzanı, qışda da qarı,
Baharda gülləri unudam gərək...

Nüsrət Kəsəmənlı insanı həyatda qazandığı təcrübələrin, ictimai diplomatiyanın yekunu kimi yox, hansısa fövqəladə qüvvənin təzahürü olan təkrarsız "mən" kimi, mənəvi-psixoloji impuls kimi təqdim edir. Hər şeyi ölçüb-biçən, daxilində nəyisə vuruşduran (və bicləşən) insan onun poetik maraq dairəsinə daxil deyil. "Ya dəli kimi sevib, ya da dəli kimi nifrət edib" yazan şair üçün bu, tamamilə təbiidir.

Azərbaycan poeziyasının tarixində məhəbbət mövzusunda yazmayan bir şair təsəvvür eləmək çətindir. "Eşqdir mehrabı uca göylərin, Eşqsiz, ey dünya, nədir dəyərin" deyən Nizamidən, "Eşqdir hər nə var aləmdə, Elm bir qeylü-qal imiş ancaq" nəticəsinə gələn Füzulidən, "Gecə-gündüz mən didarə aşiqəm" söyləyən Vaqifdən sonrakı Azərbaycan şairləri də sonsuz bir ehtirasla məhəbbətdən yazmağı davam etdirmişlər. Və bu zəngin ənənə ədəbiyyatın ideolojiləşdiyi, insana onun daxilindən daha çox xaricindən baxıldığı müasir dövrdə də unudulmamışdı. Lakin əvvəlki dövrlərdən fərqli olaraq müasir dövrdə hansısa böyük sənətkarı ümumiyyətlə "məhəbbət şairi" adlandırmaq o qədər də asan deyil... Nüsrət Kəsəmənli haqqında isə cəsarətlə demək olar ki, o, Azərbaycanın ən böyuk məhəbbət şairlərindən biridir. Və Azərbaycan insanı onu itirməklə məhəbbətinin ən gözəl tərcümanını itirdi.

Burax əllərimi daha,
Əlim əlindən üşüdü.
Ayrılıq zamani çatdı,
Bu da Allahın işidi.

Sən üzümə baxa-baxa
Yazma hər işi günaha,
Əllərindən uçdu daha
Sevgi bir fürsət quşudu...

Azərbaycan poeziyası öz gözəllərini (və gözəlliklərini!) bir daha Nüsrət Kəsəmənlinin odlu, ehtiraslı ürəyi ilə sevdi...

Azərbaycan gəncliyinin bütöv bir nəsli öz sevgililərinə onun şeirlərini göndərməklə hisslərini, duyğularını ifadə etdilər... Şair taleyi yüzlərlə, minlərlə

insanın taleyində bir daha, bir daha... yaşandı. Sənətkar üçün bundan böyük xoşbəxtlik təsəvvür eləmək çətindir ki, hələ sağlığında səni duysunlar, yaratdığın obrazlar həyatda kimlərinsə təqlid obyektinə çevrilsin. Və şair üçün bu da böyük bir uğurdur ki, sənin şeirlərinin ideya-estelik təzyiqi ilə sənin dövrünün onlarla gözəl məhəbbət nəğmələri yaransın:

Mən bulaq tək quruyub,
Sən gül kimi solaydın.
Gərək ya mən öləydim,
Ya sən dəli olaydın...
O sevgi yuxu idi,
Gərək ayılmayaydıq;
Biz elə görüsmüşdük,
Belə ayrılmayaydıq...

"Ocaqdan tüstü qaçar, ocaqdan isti qaçar; mənsə qalaram, külün olaram sənin" - deyən Nüsrət Kəsəmənlinin məhəbbəti nə qədər normasız, nə qədər standartsız məhəbbətdirsə, o qədər də içdən gələndir, o qədər də canlıdır. Və mən şairin hərarətli sevgi nəğmələrini dinlədikcə böyük Oljas Süleymenovun belə bir fikrini xatırlayıram ki, "mən axmağın adına Xəyyam desəydilər, mən lənətə gəlmiş Hafiz olsaydım, nə gözəl olardı... Dağlarda, çöllərdə gülə-gülə, ağlaya-ağlaya necə seviblərsə, hamısının şeirləri artıq yazılıb qurtarıb. Başqa cür sevmək olarmı!.. Mən isə səni ozüm bildiyim kimi sevirəm..."

Özü bildiyi kimi sevən, özünəməxsus "günahlara batan" və "günahı"nı da yalnız özünə xas cəsarətlə etiraf edən Nüsrət Kəsəmənli üçün, hətta

Mənim son ümidim,
son arzum sənsən,
Xəyalınla yatıb oyanacağam.
Bir ömür gəzmişəm
səni tapınca,
Tək sənin ömründə dayanacağam, -

desə də, məhəbbətin son dayanacağı yoxdur, hər açılan səhər, hər gülən bəxt özü ilə yeni bir sevgi, yeni bir şövq, ehtiras gətirir. Hər doğulan məhəbbət insandan indiyə qədər adət etmədiyi bir fədakarlıq istəyir:

Alışıb yanardım köz istəsəydin,
Bir nəğmə olardım söz istəsəydin.
Məni görmək üçün göz istəsəydin,
Kor qalıb
verərdim gözümü sənə...

Nüsrət Kəsəmənlinin ehtiraslı olduğu qədər də fədakar, emosional, dəlicəsinə olduğu qədər də səmimi, təvazökar məhəbbəti (və ümumən yaradıcılığı) Azərbaycan xalqının mənəvi sərvətidir.

***Nizami Cəfərov***

# Ölməyə Vətən yaxşı

## AZƏRBAYCAN TORPAĞI

Bir muğam harayıdır,
Bayatı sədasıdır.
Dağları baş qaldırır,
Buluda çatasıdır.
Özü boyda xalıdır,
Gözəllik adasıdır,
Min nemət çələngidir
Hər tarlası, hər bağı,
Bərəkət süfrəsidir
Azərbaycan torpağı...

Çilçıraq salxımları
Kəhrəba düzümüdür,
Kəpəz igid ərlərin
Qranit dözümüdür.
Bu yer nağıldı, -
              yoxsa
Cənnətin özümüdür?
“Qara qızıl” nəhridir
Xəzərimin yatağı,
Əfsanədir, sehrdir
Azərbaycan torpağı...

## "YADDAN ÇIXMAZ QARABAĞ..."

Epik-dramatik poema

*"...Heç bilmədim ömrüm necə gəldi, necə getdi... ".*

*Ağabəyim ağa*

...Bir sükut bürüdü yenə hər yanı,
Qərib bir axşama büründü Şuşa.
Qacarın bir az da qaraldı qanı –
Bugünkü cəhdi də çıxmışdı boşa.

Əlinə düşsəydi bu el, bu oba,
Bir özü bilirdi neyləyərdi o,
Ona bəs etməzdi ölüm, xaraba...
Daşları saqqıztək çeynəyərdi o.

Aciz görünürdü əsgərlər ona,
Bir qala səddini keçə bilmirdi.
Qana susamışdı
o qatil, qana,
Doldurub doyunca içə bilmirdi.

Yenə min qeyz ilə çıxdı çadırdan,
Yaralı əsirlər inildəyirdi,
Açıq yaralardan süzülürdü qan,
Saralan bənizlər ölüm deyirdi.

Soyuq baxışlarla süzdü onları,
O qızıl libaslı ilandı, nədi?
Hiddətlə göstərib yaralıları –
Qulaqları boyda doğrayın, - dedi.

Bir anda parladı polad qılınclar...
Qacan axtardı kəsilən əllər,
Üstünə gəlirdi kəsilən qıçlar,
Qatilə dar gəldi bu geniş çöllər.

Od tutub alışan vəhşi qəlbinə
Çilənən bir ovuc sərin suydu bu,
- Doğrayın!!!
Doğrayın!!! - deyirdi yenə,
Bir xalqı doğramaq arzusuydu bu.

Dönüb bir də baxdı qalaya sarı,
Daşlarmı döyüşür, bu necə sirdi?
O keçə bilmirdi bu daş hasarı,
Qayıdıb qəzəblə çadıra girdi.

Düşdü üzüqoylu buz yatağına,
Cırmaq istəyirdi balıncını o.
Yalın qılınc kimi sığmırdı qına,
Qəzəblə sayırdı qılıncını o.

Yorğunluq yumurdu gözünü onun,
Yuxu da özünün işini gördü,
Kəllədən qurduğu uca qalanın
Bürcündə öz taclı başını gördü.

Çırpındı yuxudan ayılsın deyə,
Kəsdirdiyi əllər tutdu əlini,
Göyə dirənmişdi fəryadı, göyə,
İlk dəfə yaxından gördü ölümü,

O qanlı niyyətlər puç idi daha.
O qılınc kimsəni çapa bilmirdi.
Çırpınmaq,
Çırpınmaq gec idi daha,
Baş öz bədənini tapa bilmirdi.

Qan ilə dolmuşdu qılıncın qını,
Başa gətirdiyi - başına gəldi.
Nəfəsi soyudan buz yastığını
Son dəfə qanıyla isidə bildi...

* * *

Geriyə qayıdır,
 qoşun geriyə.
Yorğun əsgərlərin öz dərdi-səri.
Onlar gəlmişdilər diz çokdürməyə,
Sürünə-sürünə dönürlər geri.
Götürən də yoxdur yaralıları,
Yollar insan-insan yarpaqlayırlar.
Çoxunun qırpılmır göz qapaqları,
Atlar dırnağıyla torpaqlayırlar.

Yanır,
Tüstülənir Şuşa qalası,
Yumruqtək stxılıb yaralı daşlar.
Dərədə quzğuna, quşa qalası
Daşlardan çox olar kəsilən başlar...

Karvanın önündə bir tabut gedir,
Qoşun nə aparır ölümdən qeyri?
Tabut içində bir kabus gedir,
Qanlı başı yatıb bədəndən ayrı.

Tökülən qanlara gülmüşdü o baş,
Qızıl taclar idi yuvası, yeri,
Öz çiyni üstündə gəlmişdi o baş,
Çiyinlər üstündə qayıdır geri...

Zümzümə edirdi yaralı əsgər,
Bəlkə öz gününə ağlayırdı o.
Hər çiçək önündə, qaya önündə
Atını bir anlıq saxlayırdı o.

Yenə düzəlirdi karvan yoluna,
Sonunda bir kasıb ev görəcəkdi,
Baş qoyub atının tozlu yalına
Son dəfə yanıqlı bayatı çəkdi:

Ətəkdə laləsərə,
Zirvələrdə qara bax.
Unudular hər qada,
Yaddan çıxmaz Qarabağ...

* * *

Xəbər çatdı saraya,
- Düşmən gedir! - dedilər.
Alovlanan evləri
Çiçəklə söndürdülər.
Pəncərə qabağında
Dayanıb İbrahim xan,
Tüstülənən evlərə
Susub, baxır bayaqdan.
Xəyalında nəyisə
Hey uçurub, qurur o,
Axır ki, buz sükutun
Aynasını qırır o:
- Sevinmək tezdir hələ,
Düşmən başsız qayıdır.
Kim isə şah olacaq,
Bilirsiniz, qaydadır...
Qoyacaqlarmı bizdə
O ilanın qınını?
Bundan sonra qılınclar
Çətin tapar qınını.
Dalğa kimi geriyə
Çəkilərək hiddətlə,
Qabarıb gələcəklər
Daha quduz nifrətlə.
Bizsə yorğun düşmüşük,
Daşlar da yaralıdır...
- Az olmağın dəhşəti
Görürsən, ata, budur.
İttifaq bağlansaydı
Qonşu xanlıqlar ilə...

- Öz başını qoruyur,
Birliyin qüdrətini
Duymayır millət hələ...
- Ata, yaxşı bilirsən:
Bir budağı təklikdə
Uşaq da qıra bilər,
Bir damlanın önündə
Yarpaq da dura bilər.
Birdən qıra bilərmi
Yüz budağı bir nəfər?
Sellərin qabağında
Nə durar, nə tab edər?
Döyüşkəndir xalqımız,
Gücü var, qüdrəti var,
Dosta məbəbbəti var,
Düşmənə nifrəti var.
Lazım gəlsə sabah da
Döyüşəcəklər onlar
Son damla qana kimi.
Sevirlər bu torpağı
Yar kimi, ana kimi!
Şəki üçün vuruşar
Şəkililər də belə,
Bakı üçün vuruşar
Bakılılar da belə,
Ölər, Qubanı verməz
İnan, Quba xanlığı...
Görürsənmi, ay ata,
Bir məqsəddə birləşir
Xalqın bu yaxınlığı.
"Balıq başdan iylənər", -
Yaxşı deyib atalar.
Düz düşünməyən başda
Şübhəsiz, bir xata var.
Birliyin qüdrətinə
İnandırmaq gərəkdir
Qonşu xanlıqları da.

Belu getsə arada
Xalqın qanı axacaq.
Bir gün o qamçı şimşək
Bakıda da çaxacaq,
Qubada da çaxacaq.
Şəkidə də çaxacaq...
- Mənim ağıllı qızım,
Özün yaxşı bilirsən,
Boş qayıtdı elçilər,
Əvvəlki qaydasında
Qalıb bütün ölçülər.

- Min kiçik birləşsə bir böyük edər,
Küləklər şovurmaz onu toz kimi.
Min yerə bölünər o sınsa əgər,
Hər kəs qırıb yeyər onu qoz kimi.

Dastandır qocamız, qarımız bizim,
Ayrı cür düşünür yarımız bizim,
Vətən işığımız, nurumuz bizim
Bəs kim qoruyacaq onu göz kimi?

Min yerə ayrılır hər cığır, hər iz,
Xanlar taxta-taca, qızıla həris,
Ağıl ucbatından təklənərik biz,
Hərə bir tərəfdə yolur qaz kimi.

Bir bahar min çiçək açar çəməndə,
Ceyran bir-bir düşər axı kəməndə,
Birlik deyəcəyəm ölüncə mən də,
O gün gələcəkmi görən yaz kimi?!

* * *

Sübhə kimi yatmadı
o gecə İbrahim xan,
Elə bil xoflanırdı,
o qorxurdu yataqdan.

Yer tapmırdı özünə
bu böyük sarayda o.
Şübhələr qoşun çəkib
üstünə yeriyirdi.
Fikirlərin odunda
yanırdı, əriyirdi:
- İttifaqa gələrmi,
barışarmı heç İran?
Bir də döyüşə girsək
qan su kimi axacaq.
Bu yorğun vaxtımızda
ölkə qalacaq viran,
Kim bilir, bu döyüşdən
Eh, kimlər sağ çıxacaq?!
Var-dövlətmi göndərim,
barışıqmı istəyim?
El tamam soyulubdu,
xəzinəmiz kasaddı.
Eh, Vaqif sağ olsaydı...
dərdimi kimə deyim?
Bir də ki, bu dünyada
kim kədərdən azaddır?..
Bəlkə kəniz göndərim
öz qızımı... ay aman!..
Düşmənlə qohum olum?..
Gör nələr düşünürəm?
Çərxi döndü fələyin
yaman dəyişdi zaman,
Qaralan bir ocağam,
yavaş-yavaş sönürəm...
...Göydə ulduzlar söndü,
Günəş boy verdi dağdan,

Körpü qoydu göylərə
Bacalardan tüstülər.
Bir yanıqlı ney səsi
ucaldı Qarabağdan,

Sakit-sakit dağlara
yığılırdı sürülər.
O ney nalə çəkirdi,
o ney fəryad edirdi,
Yaralanmiş torpağın
ahıydı, naləsiydi.
O səsdə hönkürürdü
el səsi, çörək dərdi,
O muğam harayıydı,
bir etiraz səsiydi.

Qoyunlar ot qırpırdı...
qoyun elə qoyundu,
Yeyib, yatır, mələyir,
suyu var, çəməni var.
Boynu bıçaq görməsə
dünya şirin oyundu,
O nə bilsin nə çəkir,
nə düşünür adamlar...
Nə şöhrət davası var,
nə taxt-tac, nə də sərvət,
Gündüz yaşıl çəmənlər,
axşam arxacdı yeri,
Təkə çəkib bıçağa
aparacaqdır əlbət,
Çox sadəlövh inamlı
bu qoyun əsgərləri.

Çoban neyə dəm verib
qəlbiylə ağlayırdı,
Bu yalançı dünyada
nəyim var ki, deyirdi.
Çoban neyə dəm verib
xoş gün soraqlayırdı.
O qəmini soyunub,
kədərini geyirdi...

Pəncərənin önündə
dayanıb İbrahim xan,
Boğulurdu qorxunun,
tərəddüdün içində.
Çobanın ney səsini
dinləyirdi bayaqdan,
Tufanlar çaxnaşırdı,
kükrəyirdi içində.
Qəti bir fıkrə gəldi:
"Ara soyusun bir az,
Qızı kəniz göndərim,
nəvəmi girov qoyum.
İranla qohum olsam
nəticəsi pis olmaz.
Bəlkə bu tədbir ilə
işi yoluna qoyum..."
Xan bu qurbanlıq ilə
xalqımı qoruyurdu,
Yoxsa taxtı-tacını.
ulu xan adınımı?
O, göylərdə uçmaqçün
bir qanad arayırdı,
Öz əliylə qırırdı
qızının qanadını...

* * *

Karvan yola düzüldü,
Kəcavə sılkələndi...
Xan köksünü ötürüb
Qayıtdı sarayına.
Xan qızının gözündə
Həsrəti gilələndi,
Kimə desin sözünü,
Kim çatar harayına?..

Karvan yola düzüldü,
Torpandi ağır-ağır,
Ağabəyim son dəfə
Baxdı saraya sarı.
Qucaqlamaq istədi
Son dəfə Qarabağı,
Bu istəyə, arzuya
Bəs etməzdi qolları.

Xəfif bir külək əsdi,
Çiçəklər əl eylədi,
Çəmənlər, elə bil ki,
Arxasınca yüyürdü.
Karvan yola düzüldü...
Bu sehrdi, ya nədi?
Uzaqlaşdıqca qala
Həsrəti böyüyürdü:

Əzızınəm, qara bag,
Qara tale, qara baxt.
Cənnətə getsəm, yenə
Yaddan çıxmaz, Qarabağ!

Qarabağım, qar bağım,
Yaşıl ümid yarpağım,
Oyaq gəzdim üstündə,
Yatsam, son ol yorğanım.

Qarabağım bağ olsun,
Ömrü-günü ağ olsun,
Dağları mənə zirvə,
Yad ürəya dağ olsun.

Şuşam qalamdı mənim,
Yurdum - anamdı mənim.
Mən onun balasıyam,
O da balamdı mənim.

Əsgəran əsgərimdi,
Xan kəndi dərd-sərimdi,
Hər kəs yerini tapsın,
Bura mənim yerimdi.

Daha qara bağlaram,
Sellər kimi çağlaram,
Olub-qalan ömrümü
"Vətən" deyib ağlaram.

* * *

Həsrətə gedirdi,
Yollar həsrətə,
Bir gülü kolundan qoparırdılar,
Xan qızını deyil,
            o gün qürbətə
Ürəksiz bir bədən aparırdılar.

Bu yollar sərgərdan,
Bu yollar veyil,
Yolların İranda çatacaq sonu.
Düşündü:
            Bəzəkli kəcavə deyil,
Bəzəkli tabuta qoyublar onu.

Əl edir uzaqdan yaşıl biçənək,
Fikirli görünür dumanlı dağlar
Gəlib yaxasına qonur kəpənək,
Yaddaşına qonur qayğısız çağlar.

Küləklər saçını darayır onun,
Buludlar çətirdi başının üstdə.
Gözündən başlanan həsrətin yolu
Tökülür Vətənin daşının üstə.

\- Mən gedirəm, siz qalırsınız,
"Əlvida", güllərim mənim.

Sizsiz bağrı qan olacaq
Aylarım, illərim mənim.

Xan qızıydım, oldum kəniz,
Solar yanaq, saralar üz,
Axacaqdır gecə-gündüz
Gözümdən sellərim mənim.

Qəlb sızladı hara baxdım,
Çəkildimi dara baxtım?
Qaraldıqca qara baxtım
Ağarar tellərim mənim.

Biri ölər, biri itər,
Xalqın halı məndən betər,
İndi acı nəğmə ötər
O şirin dillərim mənim.

Mən gül əkib qəm biçdim ki,
O xalqsız mən bir heçdim ki,
Bu günü özüm seçdim ki,
Yaşasın ellərim mənim...

Çayların göz yaşım olacaq,
Küləyin sirdaşım olacaq.
Qərib eldə quru daşın
Bacım, qardaşım olacaq.

Urəyimı verim sənə,
Bir daşını qoy sinəmə.
Sına sədaqətdə məni,
Qəriblikdə gol sınama.

Hər günüm ilə dönəcək,
Tikanın gülə dönəcək.
"Vətən" deyəndə sözlərim
Alışıb gülə dönəcək...

* * *

Karvan çatdı Tehrana
saray qapılarına,
Qasid xəbər apardı:
- Xan qızı kəniz gəlib.
- Düşmən qızı sovqattək göndərilib İrana,
Açın qapını gəlsin!
Əmr etdi Fələli şah,
-Xan qızı gözəl olar, -
dedi, bığaltı gülüb...
...Qızıl, gümüş içində
bərq vurur şah sarayı,
Əyilməyə öyrənib
yaltaq əyanlar burda.
Hər daş-qaşda yatıbdır
bir yetimin harayı,
Hərəsi bir diyardan
gətirilib bu yurda.
Tanışdı bu saraylar,
tanışdı Xan qızına,
Azmı görüb göylərə
dirənən ah-naləni.
Saray qəmli hekayət
danışdı Xan qızına:
- Bir qəbirdən birinə
köçürübdülər məni...

Axşam düşdü, məsciddən
azan səsi ucaldı,
Elə bil minarələr
göylərə əl açırdı.
Bu kədərli gündüzün
qaralırdı nəfəsi,
Əzabkeş məhbus kimi
zindandanmı qaçırdı?

Yıxıldı üzüqoylu
kədərinə Xan qızı,
Qızıl libas içində
o, ölgün bir sonadı.
Gözlərinə göründü
laləzar Cıdır düzü,
Köz tutmamış yarası
göynəm verdı, qanadı:

- Göyd' ulduz dənə-dənə,
Saydım onu dönə-dönə,
Xatirələr dindi yenə
Açılma, sabah, açılma.

Göydən yerə endi günəş,
Toy şamına döndü günəş.
Mənim üçün söndü günəş,
Açılma, sabah, açılma.

Bilmirəm yolum haradı,
Küsübdü könlüm, yaradı.
Onsuz da günüm qaradı,
Açılma, sabah, açılma.

Çox da göydə çoxdu ulduz.
Daha mənə yoxdu, ulduz.
Mən, sabah öləcək bir qız,
Açılma, sabah, açılma.

Kim deyir bu qəm uyudu.
Hicran bir dərin quyndu,
Sabah mənim qəm toyumdu,
Açılma, sabah, açılma...

* * *

Otaqda bir sıxıntı...
Gözlər kölgələnibdi,
Bir yorğunluq tökülür
Yorğan qırışlarından.
Xan qızının gözündə
Dünya silkələnibdir...

Ona elə gəlir ki,
ocaq olub yanır ev,
İstilik ilğım kimi
divarlarda sürüşür.
Ləngər vurur,
çevrilir,
elə hey fırlanır ev.
Göylərin ağırlığı
sanki üstünə düşür.
Uzaq üfuqlərdəki
Günəş kimi batır o.
Coşqun bir dənizdədir,
Sahilə çıxmaq üçün
Üzür,
əl-qol atır o.
Bir uğultu sədası
Qulağına ilişib,
Hər tərəf səsə düşüb...

Dumanlanır gözündə
qarışıq röyaları,
Ağ buluda bürünüb
bir afət dayanıbdı.
Ulduzlar muncuq kimi
sinəsinə düzülüb,
Bəyaz çöhrəsindənmi
göylər nur boyanıbdı?!
Çıraq kimi götürüb
Ayı əllərinə o,

Uçur öz oxuduğu
nəğmə qanadlarında.
Şimşəkləri yığıbdır
qara tellərinə o,
Közərmiş ildırımlar
yatıb yanaqlarında...
Uçur buluddan-buluda,
Uçur ümiddən-ümidə,
Uçur ulduz qarışıq,
Uçur canlı bir işıq...

Dumanlar içində əriyir xəyal,
Dönüb ulduz-ulduz səpilir göyə,
Xan qızı qışqırır,
qışqırır: -Dayan!
Məni də özünlə sən apar, - deyə.

Özünün səsinə oyanır birdən...
Uzaq üfüqlərdə dan sökülürdü.
Gecə əllərini üzürdü yerdən,
Ölgün əllərindən qan tökülürdü...

* * *

Səhər açıldı yenə,
Kədər gətirdi mənə;
Açılma, dedim sənə,
Niyə açıldın, səhər?!

Qapımda kilid ol sən,
Zülmət qəlblərə dol sən,
Açılaydın mən ölsəm,
Niyə açıldın, səhər?!

* * *

Qapı ehmal açıldı,
Bir qarı girdi evə.
Saçları dümağ idi,
Gözləri sanki şəvə:
-Gedək libasxanaya,
Toy paltarı geyginən,
Bu gün toyun olacaq.
Şah əmr edibdi dünən.
Gözlərinə sürmə çək,
Əllərinə xına qoy.
Kədərini qov, getsin,
Sevinci yaxına qoy...
Dünya fani dünyadır,
Eyş-işrətlə yaşa sən.
Səadətin qoynunda
Ömrünü vur başa sən.
-Ömrünü səadətlə
Yaşa deyirsən mənə,
Qarı nənə, libas yox,
Kəfən yaraşır mənə.
Mil çəkilmiş gözümə
Sürmə çəkə bilmirəm.
Axı, niyə sağam mən,
Axı, niyə ölmürəm?
Ayaqlarına düşüb
Yalvarıram, amandır,
Məni qarabaş bil,
Məni başa dolandır.
Elə geydir sən məni
Kifit görünüm, mənə.
Bəlkə şah xoşlamadı,
Başına dönüm, nənə...
Qarı bir an duruxdu,
Gözündə yaş göründü:
-Bir canımız var bizim,
Əvvəl-axır yerindi,
Mən də gözəl qız idim.

Əsir gətirilmişəm.
Yuvasından ayrılmış,
Qəfəsə düşmüş quşara.
Ömrümü bu saraylar,
Çürüdüb mənim, qızım.
Neçə zülmə dözmüşəm,
Nələr görüb bu gözüm...
Gedək libasxanaya,
Bir şey fikirləşirik.
Səadət sənin olsun,
Ölümə, mən də şərik...

* * *

Libasxana bərq vurur
daş-qaşların içində,
Burda libas tapılar
hər ölçüdə, biçimdə.
Şamların işığını
brilyant qaşlar udur,
Onlar brilyant deyil,
donmuş göz yaşlarıdır.
Bir libasın önünə
gətirdi qarı onu,
Özü öz əlləriylə
geydirdi ona donu.
Gözəlliyi birə yüz
artdı Ağabəyimin,
-Qarı nənə, dayan bir,
Nəyi pis bu geyimin?
Görürəm ki, burada
Ən qiymətli libasdır,
Hiylə qurma mənə sən,
Öz dərdim mənə bəsdir!..
Bu gözəl libas deyil,
Kəfən mənim yerimdir.
-Qızım, səbirli ol sən,
Allah köməyin olsun,
De ki, Allah kərimdir!..

* * *

Gecəyədək uzandı
toy səsi, mağar səsi,
Şadlıq, sevinc içində
saray ölüm yuvası,
saray ölüm qəfəsi...
Toy gərdəyi qurulmuş,
gərdəkdə o gözəlin
gözündə yaş qalmamış,
bulaq kimi qurumuş.
Səksəkə içindəydi
hər saatı, hər anı,
Qəlbitək viran gördü
Ağabəyim İranı.
Qüllələrdən qurbanlıq
insanlar atılırdı,
Dustaqlar asılırdı,
min divan tutulurdu...
Tüstülənən ocaqda
İnsan cəsədi yanır,
Birinə toy çalınır,
mininin ah-naləsi
buludlara dayanır.
Toy - sarayın toyudur,
kasıbların yasıdır,
Mollalar fitva verir:
"Tanrı yazan yazıdır..."
Fətəli şah tələsdi
gəlinin otağına,
Qədəm qoymalı idi
Gecə cənnət bağına.
Qapını açan kimi
Heyrətlə dayandı şah,
Elə bil yuxudaydı
qəflətən oyandı şah.
Baxdı Ağabəyimə
əsdi dili, dodağı.

-Qəbrinə qurban, ana! -
deyib fəryad edərək tərk eylədi otağı.
-Xan qızının əynində
anamın donu idi,
O, mənim gözlərimə
anam kimi göründü,
Kim qurub bu tələni
gərək asılsın indi!..
Saraya bir çaxnaşma,
saraya haray düşdü.
Biri dara çəkilib,
biri qazanda bişdi.
Soyumadı qəzəbi
Fətəli şahın yenə:
-Tikə-tikə doğransın! -
Söylədi: - Qarı nənə!..
Xan qızı ədəb ilə
şahın yanına gəldi.
Baş əyib ehtiramla,
vüqarlı səslə dedi.
- Bu günahsız qarıya
nahaq olursan qənim,
Libası özüm seçdim,
xoşuma gəldi mənim.
Bir günahım var isə
əmr et, assınlar məni!
Bir də ki, mən xanımam,
nə qulam, nə də nökər,
Mənim libasxanaya
ərkinı çatmırmı məgər?!
İki od arasında
qalmışdı Fətəli şah,
Anasının donunda
ona kəniztək baxmaq
günah göründü, günah...

***

İllər beləcə keçdi,
Zaman hökmünü verdi,
Xan qızının üzündə
Fətəli şah hər dəfə
Anasını görürdü...
Geriyəmi qaytarsın,
Nə ad versin o, buna?
Belə tale oyunu
Gəlməzdi yuxusuna.

Yalvarırdı Xan qızı;
- Burax məni Vətənə!
Nə qədər ömrüm qalıb
Dua edərəm sənə.
Vətənimdi kasıb komam olaydı,
Qan qusduğum qızıl teştdi, bu saray,
Göz yaşımı şirin şərbət yerine
Badə-badə süzüb içdi, bu saray.

Hər daş-qaşda bir göz yaşı, bir kədər,
Ağlar könlüm aram olmür bir qədər,
Bir dərdim var bir ömrümə bəs edər,
Qılınc kimi məni biçdi, bu saray.

Yoxsul könlüm qızıl libas içində,
Mən öndəyəm, ömrün karvan köçündə,
Ümid quzu, həsrət aslan gücündə,
Neçə vəhşi əldən keçdi, bu saray...

Acı-acı güldü şah,
Dedi: - Puçdur niyyətin.
Qoy Vətən özü gəlsin,
Sənin getməyin çətin.

- Onda şahım, izin ver,
Bir bağ salım burada,
Vətənin torpağıyla
Barı çatım murada.

"Vətən bağı" qoyaram
Mən o bağın adını,
Mən o bağda taparam
Qırılmış qanadımı...

İzin verdi şah ona,
Qarabağdan torpağı
Torbayla gətirdilər...
Bu torpaqda Vətənin
Nəyi var bitirdilər.
Ağaclar qol-boyundu,
Güllər dodaq-dodağa.
"Vətən bağı" bənzədi
Balaca Qarabağa.
Göz yaşıyla suladı
Hər çiçəyi Xan qızı,
Boy verib böyüyürdü
Ürəyinin yanğisı:

"Vətən bağı", torpağına qurbanam,
Qürbət eldə Vətənim ol, Vətənim,
Mən ömrümü bir quş kimi uçurdum,
Qərib bülbül, vətənim ol, vətənim.

Əlim bəlkə o diyara yetmədi,
Adım bəlkə tarixlərdə itmədi,
Nəğmələrim Vətən sarı getmədi,
Xəzan yarpaq, kəfənim ol, kəfənim.

Bənövşətək boynum bükük, dilim lal,
Görən nə vaxt tükənəcək bu məlal?

Ay "Qarabağ şikəstəsi", sən ucal
Harayıma yetənim ol, yetənim...
Hər gülün, hər çiçəyin
boynunu oxşayırdı,
Bu bağı Qarabağın
bir parçası sayırdı.
Güllərin arasında
"Xan bülbül" gülünü
çox aradı, tapmadı.
"Vətən bağı"na o gül
gətirilməyib-nədi?
Bağbandan çağırdı,
bağbanlar köks ötürdü:
- Çox çalışdıq, neyləyək,
"Xarı bülbül" yad eldə
bitmədi ki, bitmədi...

* * *

"Bülbül kişidi gəldi,
Dərdə tuş idi, gəldi.
Bülbül gül havasına
Hələ qış idi gəldi..."

"Vətən" deyib nəğməsi
ağladı “Xan qızının,
Həsrəti leysan olub
çağladı Xan qızının:

Ağla, könlüm kimi ağla,
Qəmdən, rəngi san bülbül.
Mən ömürdən yanmadım,
Ban sənsə yarı, bülbül.

Qarabağda bağım qaldı,
Neçə şirin çağıra qaldı,

Sinəm üstə dağım qaldı,
Necə çalım tarı, bülbül?

Qırov qara telə düşüb,
Sona özgə gölə düşüb,
Bəxtimizə belə düşüb,
Mənnən burda qarı, bülbül.

Sən uç, qon uca budağa,
Bu canım sənə sadağa.
Sənə ki, yoxdur qadağa
Boylan Vətən sarı, bülbül.

Yanıb bağrın qaralmayıb,
Yollarıni qar almayıb,
Qanadın ki, qırılmayıb,
Uç get burdan barı, bülbül,

Bir dürr idim, düşüb itdim,
Ağlayıb nəğmələr ötdüm.
Bu torpaqda nə mən bitdim,
Nəvəfab "Xarı bülbül"!..

* * *

"Vətən bağı" xəzan oldu,
İndi qəmdən oxu, bülbül,
Xaric vurub zil pozuldu,
İndi bəmdən oxu, bülbül.

Səsin qəlbimin ahıdı,
Səndəmi yandın, yaxıldın?
Öz dərdindən çox oxudun,
İndi məndən oxu, bülbül.

Səsin karvan dayandırar,
Min xatirə oyandırar,

Ah çəksəm, səni yandırar,
Bir az gendən oxu, bülbül.

Qürbətin gülləri soyuq,
Qəmdən könlüm oyuq-oyuq,
Biz ki, qəfəs - saraydayıq,
Sən bu gündən oxu, bülbül.

Sinəmə yara vurdular,
Oda alıb qovurdular,
Ağ simi çəkib qırdılar
Sarı simdən oxu, bülbül...

## CIDIR DÜZÜ

*Şuşanın çal-çağırlı vaxtında*
*Cıdır düzündə qayalardan birinə*
*dostlarımla adımızı yazmışdıq...*

Qış bulağından içib,
Yaz havasmdan sərxoş olduğumuz,
Babaların ruhları çapdığı
qanadlı atlara qoşulduğumuz
Cıdır düzündə dedik:
qayalara yazaq adımızı...
Qırmızı bir rənglə
qoyduq avtoqrafımızı.
Yazdıq,
təbəssümlə baxdıq bir-birimizə,
Nə duymuşdusa,
xəcalətdən adımız qızardı
bizim yerimizə...
İllər ötdü...
Ölən Öldü,
itən-itdi;

Oba köçdü
el getdi,
Cıdır düzündə
yağılar at səyirtdi...
Küləklərin səsində "Qarabağ şikəstəsi"
gecə-gündüz ağlayır.
Qayalar yollara baxır,
Cıdır düzü darıxır,
Nə vaxtsa gələcək
ağ atlı oğlanı haraylayır.
Atlan cidarlı Şuşanı,
Ürəyi qubarlı Şuşanı,
Yağılar tapdağında
Yolu qabarlı Şuşanın.
Adımız qırmızıyla yazılsa da
yanında üzümüz qaradı.
O qayada adımız
Köz tutmayan yaradı.

Orda səninlə birgə
adımız əsir düşüb;
Adsız qalmışıq, Şuşam!
Atımız əsir düşüb,
Atsız qalmışıq, Şuşam!

Adımız yad əlində,
Bir fəryad var dilində,
Səsimiz sənə çatmır
Bu ağrılı günündə.

Qayaların başına
Od yağıb, kül ələnib,
Adımız yoxdu bizim,
Adımız güllələnib.

Özümüz əlimizlə
Yazdıq başdaşımızı.
Bulaqlara vermişik,
Qanlı göz yaşımızı.

Adımızı yazanda
Hərə bir cür yozurdu,
Gedək Şuşada ölək
-Başdaşımız hazırdı!..

*Dekabr, 1995*

**İSA BULAĞI**

İl ilə calanır bu həsrət bitmir,
Qəmin aram olmur, kədərin itmir,
Elə hey axırsan, dərd axıb getmir,
Ağlama, ağlama, İsa bulağı.

Hanı, çal-çağırlı illərin hanı?
Tac kimi taxdığın güllərin hanı?
Şirin nəğmə deyən dillərin hanı?
Ağlama, ağlama, İsa bulağı.

Yerəmi düşübsən mərd sözü kimi?
Adın dilimizdə dərd sözü kimi,
Anasını gəzən bir quzu kimi
Ağlama, ağlama, İsa bulağı.

Ustünü quzğunlar alır, bilirəm,
Söyüdlər saçını yolur, bilirəm,
Suların od tutub, yanır, bilirəm,
Ağlama, ağlama, İsa bulağı.

Gördün başımıza gələn oyunu,
Bir gün alacaqdır hər kəs payını,

Hələlik zəhərə döndər suyunu
Ağlama, ağlama, İsa bulağı.

Bu dərdi qəlbimdə mən saxlayaram,
Qara saçlarımda dən saxlayaram,
Sənin əvəzinə mən ağlayaram,
Ağlaına, ağlama, İsa bulağı.

Sən könül nəğməmsən, Şuşam baş tacım,
Səndə yuyulacaq hər ağrım, acım.
Suyunu buz kimi sərin tut, bacım,
Ağlama, ağlama, İsa bulağı...

Dekabr, 1995

## QƏHRƏMAN ŞƏHƏR

Dörd il açılmayıb burda könüllər,
Dörd il Bakıda da yaz olmayıbdır.
Qəhrəman şəhərlər çəkdiklərindən
Bakının çəkdiyi az olmayıbdır.

Oynamaq olmazdı çiçəklə, güllə,
Onu ana Vətən haraylayırdı.
Cəbhədə birinə atılan güllə
Arxada bir nəsli yaralayırdı.

Bakı qılınc kimi qalmadı qında,
Sıyrıldı kədərin, min qəmin üstə,
Tankın, təyyarənin motorlarında
Bakı yeriyirdi düşmənı üstə.

Axırdı cəbhəyə qara seliylə,
Dilə də gətirməz əzabını o,
Atılan topların alov əliylə
Cəbhəyə yazmışdı öz adını o.

Bakı neçə-neçə cəbhə yarırdı;
Yolu irəliydi,
yalnız irəü.
Bir əli torpaqdan neft çıxarırdı,
Bir əli cəbhədə yanırdı, bəli!

Yuxuda ən ağır top, tanklarıyla
Düşmən yer üzündən pozmuşdu onu.
Fürer qan qoxuyan dırnaqlarıyla
Hələ xəritədə cızmışdı onu.

Dönün o illərə, bir salın nəzər,
Barı o günləri düşünün, annın,
Bir neft dənizinə dönmüşdü Xəzər
Hələ də neftlidir suları onun.

Şöhrət istəməyir bu qəlbi dəniz
Onda ünvanı var hər gələn yazın.
Qəhrəman şəhərlər cərgəsinə siz Yazın!
Bakının da adını yazın!

**TORPAQ HAQQINDA NƏĞMƏ**

Vətən bir budaqdır,
yaşıl bir budaq,
Ümiddən asılı yarpağam. mən də,
Ayağım altında çırpınır torpaq,
Yeriyən,
Düşünən torpağam mən də...

Ümmanlar qabarır,
Çaylar tökülür,
Adalar sularda boğulsun deyə.
Mənim göy Xəzərim geri çəkilir

Bir az torpağimız çox olsun deyə.
Dənizə az yağıb yağışlarımız,
Kimimiz güc olub biləyimizə.
Nəmli olmayıbdır baxışlarımız,
Yağmurlar düşübdür ürəyimizə.

Damlalar yaradib axı ümmanı,
Qaralan buludlar yağmadı, ötdü.
Xəzərə düşəcək iki damlanı
Nənəm gözlərində apardı getdi.

Qəriblik qəlbimi sıxsa hardasa
Yalnız Vətən olar,
Vətən dərmanım.
İlhamın qanadı buludlardasa
Vətən torpağında köküm var mənim.
Adı itib-batar adlar içində,

Vətənsiz olana
Nə şöhrət, nə tac?
Qəriblər ölərlər yadlar içində,
Ölərlər bir ovuc torpağa möhtac...

Qərib həsrətinin yuxusu dərin,
Torpağı oyanmaz.
Daşı oyanmaz.
Yolu sərhədlərdə dayananların
Axar,
gözlərinin yaşı dayanmaz.

Dəyər məftillərə, qırılar səsi,
Gah bayatı deyər,
Gah ağı deyər.
Vətənsiz olana bu Yer kürəsi
Vətənin bir ovuc torpağı deyil.

Torpağın köksündə baba ocağı,
Torpaqda buğlanan istini duyun.
Çörəktək öpürəm mən bu torpağı.
Öləndə
Gözümün üstünə qoyun!..

*Oktyabr, 1978*

**SƏRSƏNG LÖVHƏLƏRİ**

Bu yerdə könüllər bir ilk bäharlı,
Günəş təbəssümlə duman dağılar.
Bu yerdə insanlar dağdan vüqarlı,
Tilsimi qırılmış qaladı dağlar.

Sükut bu yerlərdən qaçaq düşübdür,
Səhəri nəğmədir, gecəsi nəğmə.
Sərhəngə ilk səda haçan düşübdür,
Tərtər oxuyubdur; "Könlümə dəymə"...

Gözəllik sehrinə düşmüşəm, nədir?
Donmuşam yerimdə, dilim bağlıdır.
Elə nəğməlidir, elə sözlüdür,
Bildim ki, Tərtər də qarabağlıdır.

Qaışımdan bir igid keçdi vüqarla,
Dağlardan ayrılmış qayadı, sanki.
Dayandı zirvədə o iftixarla
Əlini göylərə dayadı, sanki.

Üfuqə gün düşdü, üfüq alışdı,
Kölgələr uzanıb o dağa düşdü,
Bir şair Tərtərə dastan danışdı,
Sədası gör neçə dodağa düşdü:

Dağlar qürurundan dikəlib necə,
Dərələr qorxudan çökəlib necə,

Qayalar qartal lək uçar indicə
Bir dağlar nəğməsi oxuyar Tərtər.

Buludlar əriyib yerə axdımı,
Yoxsa qəzəbindən şimşək çaxdımı,
Üstünə bir azca yağış yağdımı
Dağları dağlara toxuyar Tərtər.

Bu nədir, sellərmi baş alar bura,
Qara buludlarmı boşalar bura?
Dalğalar çarpışar bəndləri qıra
Qızışar, sonra da soyuyar Tərtər.

Duman qanadını dağlara sərər,
Dağlar sinəsini sellərə görər,
Oyaqsa qoynunda min büsat görər,
Yatıbsa diksinib oyanar Tərtər.

Obalar qalıbdır qulağı səsdə,
Sən ondan həyat um, yaşıllıq istə,
Məğrur fəhlələrin qolları üstə
Vaxt gələr rahatca uyuyar Tərtər.

**ƏLİNCƏDƏ BİR AXŞAM**

Dağlar kəhər kimi yüyənlənibdir,
Görəndə düşmənin donmazmı qanı?
Daşlar yumruq kimi düyünlənibdir,
Bu qədər yumruğun sahibi hanı?
Zirvələr buludlu,
döşlər dumanlı,
Sirli əsriərin marağı yatıb
Sandım hər qayada bır dəliqanlı
Marığa yatıb...
Bu yerdə kimlərin harayı qalıb?

Səs verdim,
qayalar kəsdi səsimi.
Dağlar Əlincəni çiynінə alıb,
Əlincə dağların zirehi kimi.

Göylər od-alovla dillənsə, əgər
Qala ildırımlı yıxar dərəyə,
Bir qaya zirvədən gillənsə, əgər,
Başlar qoşun kimi axar dərəyə.

Əlincə qalası...
hər daşı qədim,
burda qollarıma güc gəldi, sanki.
Bir igid yoxdumu buyursun, - dedim,
Daşlar yaralı tək dikəldi, sanki,
Burda çox gəlmələr atdan yıxılıb,
Çoxunun dilində
qalıb buyruğu;
Burda qorxaqların qəlbi sıxılıb,
Kişilərin qorxmayıb,
Sıxib yumruğu...

İndi qartallarmı qoruyur dağı,
Dünənki canlımı hər sükut - kölgə?
Qayalar qoynunda yuva qurmağı,
Qonub zirvələrə məğrur durmağı
Qartal igidlərdən öyrənib, bəlkə?

Gedirəm...
Hiss məni bir də gətirər,
Deyimmi əlincə güldür, çiçəkdir?
Bu dağa qum əksən qaya bitirər,
Daş əksən qalaya çevriləcəkdir!

**AĞLAMA, TƏBRİZİM, AĞLAMA...**

Demə, yollar uzaqdır,
Araya bir çay düşüb,
Vüsal kimin qisməti,
Bizə həsrət pay düşüb.
Birimizə göz yaşi;
Birimizə toy düşüb;
Danış, ucadan danış,
Sən dilini bağlama,
Ağı dediyin bəsdir,
Ağlama, Təbrizim, ağlama.

Ölənlər torpağımdır,
Bizə sağlar qalıbdır,
Baxıb köks ötürməyə
Qarlı dağlar qalıbdır,
Bir gözümüz gülürsə,
Biri ağlar qalıbdır,
Sil gözünün yaşını,
Ürəyimi dağlama,
Ağlama, Təbrizim, ağlama.

Bir torpağın üstündə
O taylı, bu taylıyıq.
Torpaq ki ömür deyil,
Necə gəldi paylarıq.
Nə qədər "qardaş" deyib
Uzaqdan haraylayaq?
Ucalt haqqın səsini,
De sozünu, saxlama,
Ağlama, Təbrizim, ağlama.

Bəlkə bonövşəmizi
Bu nisgil, həsrət əyir?
Araza körpü üçün
Torpaq oğul istəyir,
Sənə əl uzadıram,

Soyuq məftilə dəyir,
Sən güvən öz ağlına,
Döyüşkən, düz ağlına,
Ağlama, Təbrizim, ağlama.

Çoxu dil pəhləvanı,
Sözdə aşıb-daşırıq,
Bu günahsız Araza
Neçə günah qoşuruq,
Vətənin ortasında
Məftilə dolaşırıq,
Bir də bax dünəninə,
Kimsəyə bel bağlama.
Dur ayağa, "Vətən" de,
Ağlama, Təbrizim, ağlama!..

1980

## İRƏVANDA XAL QALMADI...

İrəvanda xal qalmadı,
Xal-xal oldu bağım mənim.
Ağrı dağdan ağır gələr
Ürəyimdə ağrım mənim...

Məscidləri uçurdular,
Dikəldi qara kilsələr.
O torpağım kökü üstə
Yaradı, yara kilsələr,
Oyaq bir nisgil görərlər
Qəlbimi yara bilsələr:
İgid qartallar yurduna
Qarğa-quzğunlar doldu ki,
İrəvanda xal qalmadı,
İrəvanda nə qaldı ki?!
Sazda "İrəvan çuxuru",
Sazda qalıb "Göycə gülü".
Yazı babamın yazıdı,

Yazda qalıb Göycə gülü,
Nərgizləri yetim kimi,
Bənövşələri bükülü:
Torpaq! Torpaq! - deyə-deyə
Lalə bağrım xal saldı ki,
İrəvanda xal qalmadı,
İrəvanda nə qaldı ki?!

Göyçə adım uçub getdi,
Sevan düşdü yerinə.
İgidlərim atdan düşdü,
Dövran yetişdi birinə.
Yurdsuz qalıb sürünənə
Torpaq gərəkdir bürünə:
Torpaq! Torpaq! - deyə-deyə
Neçə ömürlər soldu kı,
İrəvanda xal qalmadı,
İrəvanda kim qaldı ki?!

## TOĞLUCA

O dağlarda bir kənd qaldı,
ulu bir kənd - Toğluca,
Qarşı dağlar ola bilməz
bir bəstəboy oğluca...
Gündoğana baxar onun
xana-xana evləri,
Bir-birinə qısılıbdır
ana-bala evləri.
Bahar vaxtı laləlMənər,
batar qana evləri,
Çəmənləri mavi dəsmal,
bulaqları ballıca,
O dağlarda bir kənd qaldı,
ulu bir kənd - Toğluca.
Qocaları bir qayadır,
illər ötüb yel kimi,

Qönçə-qönçə uşaqları
bahar öpmüş gül kimi,
O dağların başı üstə
düyümlənib əl kimi...
Sal qayalar ovxarlanıb,
dönüb yalın qılınca,

O dağlarda bir kənd qaldı,
ulu bir kənd - Toğluca.
O dağların sinəsində
Göyçək elim var mənim,
Göy gölümün əkiztayı
Göyçə gölüm var mənim,
Ləpələrin nəğməsində
"Göyçəgülü"m var mənim.
Nəğmələri elə sığmaz,
söz-söhbəti bolluca,
O dağlarda bir kənd qaldı,
ulu bir kənd - Toğluca,
Qarşı dağlar ola bilməz
bir bəstəboy oğluca...

*İyul 1977, Krasnoselsk*

**DURNALAR BAHAR AXTARIR**

Boş yuvalar üşüyür
kimsəsiz ürək kimi,
Çılpaq qalatı budaqlar
sığınıb bir-birinə.
Köçür durna qatarı
vətənsiz külək kimi,
Düzülür qırov kimi
günəşin tellərinə...
Üfüqdə xal-xal olur
durnaların qatarı,

Qayalardan qayıdir
son "əlvida" nidası.
Buludlardan boylanıb
axtarırlar baharı,
Tənha qalan yuvalar
xatirələr adası...
Etibara güvənib
Sərçələr dözür qışa,
Sığırçınlar sığmır
son ümidə, gümana.
Bir ağac koğuşunda
qışı vururlar başa,
Demə köçəri olur,
durnaları "qınama".
Durnaların köçməyi
döyüşdən qaçanları,
qorxaqları andırır;
Hər lələyi sərçəyə
bir yuva, yorğan olan
Durnaları köçməyi
Məni yaman yandırır...
Heyf o nəhəngiylə,
Heyf o qanadlara,
Gərək bu böyüklüklə
dözəydilər şaxtaya,
girəydilər odlara.
Vətəndə öloydilər,
Vətəndə qalaydılar.
Bir bahar ömrü üçün
nə ağlayıb, sızlayıb,
nə lələk salaydılar.
Hər dəfə qış gələndə
ölüb-dirilməkdənsə
Bir ömürdə
bircə yol
köçəri olaydılar...

*Sentyabr, 1975*

**ZƏMİ**

Kəndimizin üstü zəmi,
Sapsarıdır isti zəmi.
Gün oldu ki, tel-tel olub
Ac yolları kəsdi zəmi.

Kəndimizin altı zəmi,
Ağzınızın dadı zəmi,
Gün oldu ki, od götürdü
Doyurmadı yadı zəmi.

Kəndimizin böyrü zəmi,
Bərəkəti, xeyri zəmi.
Özümüzə bəs eləyir,
Gərək deyil qeyri zəmi.

Kəndimizin yanı zəmi,
İgidinin sanı zəmi,
Payızadək torpaqdaydı,
Payız gəldi, hanı zəmi?

Kəndimizin içi zəmi,
Dörd yanından üçü zəmi,
Buğda-buğda boya döndü,
Dağlar boyda gücə zəmi.

*Oktyabr, 1978*

# Bu hicran olmayaydı

## KÜÇƏDƏN TOY KEÇİR

Küçədən toy keçir bu axşam yenə,
Dodaqda təbəssüm, üzdə sevınc var.
Evlər də qol-qola, çiyin-çiyinə
-Elə bü "Yallı"ya başlayacaqlar.

Rəqsdən az qalır sümüklər sına,
Bir maşın içində ikidir dünya.
Bir qoca söykənir əl ağacına,
Köksünü ötürür:
"A gidi dünya...".

Gəlinlik duvağı bürünüb afət,
Maşının üstündə qırmızı bir şal
Birinin yolunu kəsdin -
cinayət,
Toyun qabağını kəsdin -
nəmər al.

Varını cehizdə verən analar:
"Bərəkət evimin daşına" deyir.
Evini gəlinsiz görən analar:
"Sağ əlin oğlumun başına" deyir...

Küçədən toy keçir,
dayanır söhbət,
Hamı bu sevincin selindən içir.
Birinin evindən qiz köçür, fəqət,
Birinin ömründən subaylıq köçür...

**GETMƏK İSTƏYİRSƏN...**

Getmək istəyirsən,
bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı.

Sən dəniz qoynuna tullanmış çiçək,
Üstünə dalğalar atılacaqdır.
Saxta məhəbbətin, saxta sənədtək
Nə vaxtsa üstündə tutulacaqdır...

Yollarlək döşənib ayaqlarına
Sənə yalvarımmı?..
Bu mümkün deyil.
Qoymaram qəlbimtək vüqarım sına
Alçalıb yaşamaq ömür-gün deyil...

Demirəm, sən uca bir dağsan, əyil,
Demirəm, qalıbdır əlacım sənə.
Nə sondə məhəbbət qara pul deyil,
Nə mən dilənçiyəm əl açım sənə.

Getmək istəyirsən,
nə danış, nə din,
Yox ol xəyal kimi dumanda, çəndə.
Nəyimi sevmişdin,
deyə bilmədin,
İndisə yüz eyib görürsən məndə...

Getmək istəyirsən,
bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı...

**SON SÖZÜN**

Gərək bu günümü görəydin özün,
Həsrətin yaş gəlib yaşımın üstə.
Bir ac qağayıya dönüb son sözün,
Hərlənir tufanlı başımın üstə.

Bu söz dincliyimə kəsilib qənim,
Nə topa buluddur,
Nə də bir əlçim.
İlk sözün,
İlk sevgi dünyamdı mənim,
Sənin son sözünü mən necə ölçüm?

Kimi öz oduna alışan görsəm,
Atıraın qəlbimi həsrət oduna,
Harda qaşqabaqlı bir oğlan görsəm,
Sanıram son sözü deyiblər ona...

Qəlbim öz səhvinə çoxmu yanacaq,
Niyə bəs qədrini bilmədim onda?!
Axır qiymətini tapdım mən ancaq,

Səni itirmişdim onu tapanda...
Hər ürək bir ocaq,
Hər ürək nəğmə,
Nəğməm alışıbdır, tüstülənibdir.
Mənə elə gəlir hər kövrək nəğmə
Sənin son sözünə bəstələnibdir.

Getdin...
Bu gedişdən nə düşdü mənə?
Neçə lal hıçqırıq gözlərimdədir.
İlk sözü dodağım demişdi mənə,
Son sözü yaşaran gözlərin dedi.

İndi məhəbbətim həsrət dənizi,
Orda dalğaların yarışı başlar.

Tutular göylərin mavi bənizi
Sonra da son sözün yağışı başlar...

Qəlbim öz səhvinə çoxmu yanacaq,
Niyə bəs qədrini bilmədim onda?
Axır qiymətini tapdım mən,
ancaq,

Səni itirmişdim onu tapanda...

**İNAM**

Mənə inanmırsan bir yuxu kimi,
Qəlbində şübhələr, eyhamlar oyaq.
Yox, mən istəmirəm bir çoxu kimi
Yaşayaq bu sayaq, ölək bu sayaq...

Niyə baxışların üşüdür məni,
Qəlbin ki, qəlbimdə qızınmaq istər.
Nə sevgi yenidir,
Nə nifrət yeni,
Elə tərəddüd də köhnədir, yetər!..

Bəlkə də adıma çox söz deyirlər,
İstəsən inanma, istəsən inan...
Ayıq ol!..
Adama çox söz deyərlər;
Gör hansı doğrudur,
Gör hansı yalan.
Yaxın gəl,
oduna gir bu ürəyin,
Sevənlər payıza, qışa bürünməz.
Əsil çiçəklərlə kağız çiçəyin
Uzaqdan baxmaqla fərqi bilinməz...

Hərdən zəng edirsən... susursan, niyə?
Sənin sükutun da tanışdır mənə.

Bir də zəng edirsən
hirslənim deyə,
Dəstəyi çırpıram əsəblərimə.
Bir dəstək gülüşlü,
Biri əsəbi,
Başlayır telefon oyunu sonra.
Bilirəm susmağın nədir səbəbi,
Ox alıb gizləlmə yayım, sonra...

Mənə inanmırsan bir yuxu kimi,
Qəlbində şübhələr, eyhamlar oyaq.
Yox, mən istəmirəm bir çoxu kimi
Yaşayaq bu sayaq,
Ölək bu sayaq...

## BU, HƏMİN PAYIZ DEYİL

Keçən ilki kimi dolub buludlar,
Ağaclar həsrətə bürünüb yenə.
Keçən ilki kimi qalıb buludlar,
Bəs nədən bu qədər yad gəlir mənə.
Keçən payızda da belə çən vardı,
Hərdən günəş kimi görünən vardı,
Payızdır...
Bu payız o payız deyil.

Elə bu mahnıyla bəmin bulaqlar
Keçən il vüsaldan oxuyurdular.
Ay sözlü bulaqlar, sərin bulaqlar,
Nədən səsinizdə bir intizar var?!
Hicran nəğməsidir indi nə yazsam,
Təbiət, sən məni aldadammazsan
-Payızdır...
Bu payız o payız deyil.

Durnalar beləcə uçub gedirdi,
Yelpik qanadını açıb gedirdi.
Onda da toy-düyün fəsliydi payız,
Onda da sədalı-səsliydi payız...
Elə bil azalıb durna qatarı,
Elə bil çoxalıb toy intizarı,
Payızdır...
Bu payız o payız deyil.

Cığırlar kəməndə dönmüşdü onda,
Könüllü düşmüşdü kəməndə o qız.
Günəş ovcumuza enmişdi onda,
İkimizin idi ən parlaq ulduz.
O payız toy üçün söz verdi mənə,
Bu payız oxşamır toy eyləyənə,
Payızdır...
Bu payız o payız deyil.

## ...BİLSƏM YALAN DEYİRSƏN

(nəğmə)

İşıq desən yoluna
Çılçıraqlar düzərəm,
Hicran yükü çiynimdə
Ağır olsa dözərəm,
Düşərəm nağıllara,
Nağılları gəzərəm
Nağıl olmadığını
Bilsəm yalan deyirsən.

Dağlar sənə vurulsa
Yanar, qarı əriyər,
Daşa desən səninəm
Ayaq açar, yeriyər,
Qəlbim şəfəqlə dolar,

Ağlar könlüm kiriyər
Sən xeyal olduğunu
Bilsəm yalan deyirsən.

Şəkil versən oxşaram,
Sinəm üstə saxlaram,
Ümid versən gözlərəm,
Ürəyimi sıxmaram,
Meşələrə getmərəm,
Çəmənlərə baxmaram
Sən çiçək olduğunu
Bilsəm yalan deyirsən.

Düşünərəm dünyaya
İlk açılan səhərəm,
Ulduzları endirib
Yollarına səpərəm,
Başına dolanaram,
Əllərindən öpərəm
Məni sevmədiyini
Bilsəm yalan deyirsən.

## QAR KİMİ

Qar kimi ağ gəldim,
ləkəsiz gəldim,
Səssizcə yağmışdım yollarına mən.
Mən sənin ömrünə "bəlkə"siz gəldim
Yığıldın güc kimi qollarıma sən...

Bitdi baxışların nəğməsi, sözü,
Sükut qollarında gəzdirdi bizi...
Soyuduq qar kimi...
nə deyim,
düzü,
-Bəlkə bu soyuqluq bezdirdi bizi...

İndı xatirənlə yanacağam mən,
Gülsən, gülüşünə bürünəcəyəm.
Qar kimi ovcuna yağacağam mən,
Qar kimi ovcunda əriyəcəyəm!..

Həsrətim qəlbimdə dinir tar kimi,
Nəğmələr dənizdir, vüsalın qayıq.
Sən də, ay sevgilim,
getdin qar kimi
Qayıtsan,
qar kimi ləkəsiz qayıt!..

**YANDIR MƏKTUBLARIMI...**

Hər sətir üstündə titrəyib əlim.
Sətirlər qəlbimdə od alıbdılar.
Mən sənə bir dəfə aldandım gülüm,
Məktublar ömürlük aldanıbdırlar.

Məni yad eləmə,
Özgə ol, yad ol,
Oyuncaq olmasın məktublar barı.
Omründə bircə yol
alicənab o1,
Yandır xatirəmi - o məktubları...

Orda ürəyimin harayı, ahı,
Qəlbimin utancaq sevdası yatır.
Orda vüqarımın sınma günahı,
Kövrək bir nəğmənin sədası yatır.

Dağılar şöhrətin dumanı, çəni,
Udar bir ac balıq inci tək səni.
Yazdığım sətirlər ac toxum kimi
Bir gün göz yaşını içəcək sənin.

Məktublar içində nəyim-nələrim...
Alovlu sətirlər gizli qəm kimi.
Yandır məktubları...
xatirələrim yansın,
külə dönsün qoy Kərəm kimi.

Sənə ümid dolu dikilən gözlər
Yenə xatirədə donub qalandır.
Əlim əsə-əsə yazdığım sözlər
O zaman düz idi
indi yalandır...
Həyatın özündə sınadım səni,
Demə bahar idim,
indisə qışam.
Yaxşı ki, nəhayət, tanıdım səni,
Yaxşı ki, ömürlük aldanmamışam...

**KÖNÜLSÜZ OLANDA**

İnciyib odlara salma könlümü,
Qəzəb duyğulardan bir tonqal qalar.
Gördün fikirliyəm alma könlümü.
Əllərin havadan asılı qalar.

Burax fıkirlərin qoynuna məni,
Gözləmə əlacsız təbəssümləri.
Axşam görərsən ki, güldürüb səni,
Yeni bir şeirlə dönmüşəm geri.

Min gücün dizini bir hiylə bükər,
Bir bağlı qönçədə min hikmət yatar.
Bir gülə könülsüz toxunsam əgər,
Ləçəklər tikan tək əlimə batat.

Yenə baxışların niyə yol çəkər?
Bir istək, bir duyğu qəlbimi döyər.
Konülsüz telini oxşasam əgər,
Saçının hər biri şahmara dönər.

Bəlkə də qadına bunlar xoş deyil,
Axı, nəvazişdir onun təməli.
Fikirli olanda sinəm boş deyil,
Könlümə fıkirlər dolur deməli...

## SƏN UŞAQ DEYİLSƏN Kİ...

Sən uşaq deyilsən ki,
dəymə-düşər olasan,
Hər şirin oxşamaya,
vədlərə aldanasan...
Sən uşaq deyilsən ki,
Heyrətin böyük ola,
Evcik yapdığım yerdə
bir ovuc şüşə qala
sınmış bir ürək kimi...
Sən uşaq deyilsən ki,
söyləyim ki, məhəbbət
insan ömrü üçündür
su kimi, çörək kimi.
Sığınıbdır vüqarım,
sevgim, qeyrətim sənə,
Eh, mən də lap uşağam;
Sən uşaq deyilsən ki,
sevgi öyrədim sənə...

## ƏLLƏRİN NƏ YAMAN SOYUQDUR, GÜLÜM...

Əllərin nə yaman soyuqdur, gülüm.
Əllərin elə bil qar çiçəyidir.
Ay aman, əlində dondu ki, əlim,
Əllərin əlimin buz əlcəyidir.

Biz ki, cənubluyuq
bu soyuq hardan?
Gərək külümüz də soyuq olmasın.
Gözümüz dünyada ən qaynar bulaq,
Gərək əlimiz də soyuq olmasın...
Oddan yoğrulmuşuq,
atəşik axı,
Qəlbimiz -
duyğular tonqalı kimi.
Yanağın
Ele bil alov dilimi,
Əllərin bir taxta yonqarı kimi...
Əllərin nə yaman soyuqdur, gülüm,
Niyə bu soyuğu indi duymuşam?
Bir ömrün məhəbbət taleyini mən
O soyuq əllərə necə qıymışam?!
Ay üzü baharlı,
əli qış sonam!
Gileyim gülməli gəlməsin mənim.
Qorxuram
sevgidə soyumağın da
Əlindən başlaya,
əlindən sənin;
Əllərin nə yaman soyuqdur, gülüm...

## BİZİM GÖRÜŞÜMÜZ

Sözlər niyə belə qəlbə dəyirlər?
Ürəksiz görüşdən doymuşuq daha.
Fillər ölümünü duyur deyirlər,
Biz də ayrılığı duymuşuq daha...
Görüş yerimizdə yaşıl bürünən
O ağac cildini quş tək uçurdu.
Sən iki yarpağı biz idik dünən,
Bizi də məhəbbət payızı vurdu.

Külək yarpaqları gəzdirir veyil,
Köhnə yurd yerimi, görüş yerimiz?
Tökülən yarpaqmı...
Yox, yarpaq deyil,
Yağır üstümüzə gileylərimiz.

Çoxdan oxumuşuq gözlərimizi,
Gözlər istəyini azdıra bilmir.
Buz kimi soyumuş sözlərimizi
Odlu dodaqlar da qızdıra bilmir.

Biz görüş yerinə ayaq döyürük,
Hardasa sevginin qırılıb səsi.
Bazar ertəsinə ağır deyirik
-Hər görüş bizimçün bazar ertəsi.

Sözlər niyə belə qəlbə dəyirlər?
Ürəksiz görüşdən doymuşuq daha.
Fillər ölümünü duyur deyirlər
Biz də ayrılığı duymuşuq daha...

## GETDİ SƏMİMİYYƏT

Getdi səmimiyyət...
biz yalın qaldıq,
Apardı üzündən təbəssümləri.
Hicran doğru oldu,
biz yalan olduq.
Saxtalıq araya girəndən bəri...
Barı öz sözünü ürək dedimi
-Danış,
bu soyuqluq nədəndir, bilim,
Üzündə üç xal var
Üç nöqtə kimi,
Yarımçıq cümləyə bənzəmə, gülüm.

Getdi səmimiyyət,
getdi aradan,
Əridi, yox oldu uzaqlar kimi.
Baxıram üzünə
hirsli anadan
Təbəssüm gözləyən uşaqlar kimi...
Hələ paslamnayıb xatirələr də,
Hələ qəlbimizdə isti var bir az.
Bir nəğmə səslənir hey pərdə-pərdə:
"Getdi... o günlərə daha gün çatmaz!"
Qəlbimə yamanca dolub şübhələr,
Heç belə deyildim
nə oldu mənə?
İlk bahar yenidən qayıdıb gələr;
Çiçək - xatirələr qalar çəmənə.
Bu həsrət bəlkə də ılıq dumandır,
Sən bir qanadısan,
mən bir qanadı.
Vüsala nə var ki,
həsrət yamandır,
Dözülməz olurmuş qısqanclıq odu.
Getdi səmimiyyət,
getdi aradan,
Əridi, yox oldu uzaqlar kimi.
Baxıram üzünə...
hirsli anadan
Təbəssüm gözləyən uşaqlar kimi.

## SƏN NİYƏ DƏYİŞDİN

Sən niyə dəyişdin, yaz bulududək?
Yumaz günahını bir dəniz sənin.
Sən indi ləçəyi tökülmüş çiçək;
Beləmi böyütdü kəndimiz səni?!

Söylə, kim qalıb ki, eşq ummayasan?
Qoy deyim.
Özün də, bil ki, nəçisən:
Ömründə bir qəzet oxumamısan,
Moda jurnalına abunəçisən!

Bir qəlbin üstünü duman, çən aldı,
Boyalar üzünə yaxıldığı gün.
Ülvi məhəbbətin ömrü qısaldı,
Donunun ələyi qısaldığı gün!

Demə ki, bəxtimin günəşi söndü,
Demə ki, pis gözün girinə düşdük.
Kəsdiyin hörüklər cüt yola döndü,
Hərəmiz bu yolun birinə düşdük.

Sən məndə acı bir xatirə qoydun,
Səni xatirədə tapam, sığınam!
Ayrılıq çətindir...
Bəs necə qıydın
Çatılmış qaşların ayrılığına?!

De necə baxırsan sən gülə-gülə?
Ruhumu yenə bir hicran oxudur.
Boyadın gözünü qara xətt ilə
Sandım ilk eşqimin nekroloqudur!

Omrümün qırılmış budağındakı
Məhəbbət adlanan son yarpaqmısan?
Boya yox!
Qanımdır dodağımdakı
Sən mənim qəlbimi parçalamısan.

Duyğular əlində bölündü iki,
Bilməzdim ömrümə sərt ayaz səni.
Elə dəyişibsən görkəmini ki,
İndi heç anan da tanımaz səni!..

Demə ki, bəxtimin günəşi söndü,
Demə ki, pis gözün girinə düşdük.
Kəsdiyin hörüklər cüt yola döndü,
Hərəmiz bu yolun birinə düşdük!..

**İNANA BİLMİRSƏN**

Bayaq nüğmə idi suların səsi,
İndi hər dalğadan bir qorxu baxır.
Dənizin elə bil donub nəfəsi,
Dənizə soyumuş ulduzlar axır...
Gün batdı,
qorxulu bir gecə düşdü,
Bilmədik bu gecə heç necə düşdü.
Bəlkə də yersizdir
bu inad, qürur,
Qarşıda dağ kimi dalğalar durur.
Bu nimdaş qayıqla,
köhnə avarla
Dəli dalğaları yıxmaq çətindir.
Qaçıb gəldiyimiz bu arzularla
Deyəsən, sahilə çıxmaq çətindir.

Biz indi dənizə atılmış bir daş,
Yenə də demirəm ümid üzülüb.
Şəhla gözlərində gilələnib yaş,
Titrək dodaqların gömgöy kəsilib,
Bir bax,
sahilədək doludur dəniz,
Göz yaşın dənizi dasıra bilər.
Deyirsən dalğadan ümid gözləmə,
Dalğalar qayığı aşıra bilər...
Yamanca oynadıq bu odla, suyla,
Bu gizli oyuna adətimiz yox.
Sahilə uzanan Ay cığırıyla
Piyada getməyə taqətimiz yox...

Ümidə inanıb yaşamaq asan,
Uzaq işıqlara baxmaq çətindir.
Sığınıb köksümə pıçıldayırsan:
- Deyəsən sahilə çıxmaq çətindir...

Saçların nəmlidir bu gecə kimi,
Mən səni dənizdən oğurlamışam.
Yumub gözlərini
say üçə kimi
Sahilə çıxarıq...
bu nağıllara
inana-inana uşaq olmuşam...
Bir qızılbalıqsan möcüzə dolu
Mən səni sahilə aparım necə?
Bu dəniz qəzəbli,
Mən dəli-dolu
Çətin ki, əyiləm,
çətin ki, sınam,
Bir azca ümid ver, Bir azca inam
Tutub dalğaların ağ saçlarından
Dənizi sahilə çəkim indicə...
Gülmə,
sevənlərə hər şey mümkündür.
Bu da bir ömürdür,
Buda bir gündür...
Sahil qumlarına toxundu qayıq,
Bir aç gözlərini ətrafına bax.
Tomris tək bir anam bilirdim səni
Ay dəli, sən hələ uşaqsan, uşaq.
Bu dəniz,
Bu qayıq,
bu köhnə avar,
Bu sahil,
Bu dünya,
daha hər nə var
Sənindir,

Mənimdir,
səadətindir,
İnana bümirsən bu səadətə
Deyirsən:
sahilə çıxmaq çətindir...

*Noyabr, 1978*

**İSTİ YAĞIŞLAR YAĞIR...**

Əllərini yelləyib,
"Əlvida" deyib getdin,
İndi yorğun gözlərin
Niyə yollara baxır?
Hönkürüb ağlamağı
Göylərə sən öyrətdin,
-Görürsənmi, hələ də
İsti yağışlar yağır.

Dərmədiyin çiçəklər
Gözlərindən şeh aldı,
Laləlnmiş yamacdan
Sözlü bulaqlar axır.
O mavi səmamızdan
Sənə bir bulud qaldı,
-O buluddan hələ də
İsti yağışlar yağır.

Göylər susub... boşalma
Sən göylərin yerinə,
Kədərli gözlərində
Hələ də şimşək çaxır.
Solğun gül qönçəsitək
Açılmış əllərinə
Görürsənmi, hələ də
İsti yağışlar yağır.

Yenə payız saralır,
Sən niyə kövrəlirsən?
Gündə bir "Vağzalı"yla
Hər bəxtə bir gün doğur.
Xeyir-dua verirsən,
Yalandan da gülürsən,
Bəs niyə gözlərindən
İsti yağışlar yağır?..

Külək əsır, budaqlar
Əriyir yarpaq-yarpaq,
Dağlara duman çökür,
Sürünür ağır-ağır.
Nə bu göylər toxtayır,
Nə doyur qara torpaq;
Görürsənmi, hələ də isti yağışlar yağır.

Yarpaqlar sarı yaylıq,
Ağlama, sil gözünü,
Uçurdun səadəti,
Boylanma fağır-fağır.
İndi nəmli balışa
Söykəyibsən üzünü,
-Görürsənmi, hələ də
İsti yağışlaryağır...

*May, 1977*

## GECİKDİ BU YAĞIŞ...

Daha bu yağışa otlar göyərməz,
Daha bu yağışda lalələr sönməz.
Bu yağış buludun yükü deyil ki,
Bu yağış bir simurq tükü deyil ki,
Yandırsan ömür-gün qayıda geri,
İndi ürəyimiz - köhnə yurd yeri,

Torpağı nəmlidir,
Daşı nəmlidir.
Sevgimi uçurub bir ümid kimi
Torpağı qəmlidir,
Daşı qəmlidir...
Sırsıra asılıb gül budağından,
Bahan itirdin,
Yayı ötürdün;
Qış gəldi,
yatmısan fil qulağında...
Beləcə gün keçdi,
zaman gecikdi,
Gecikmiş istəyi nədi göylərin?
İndicə buludlar töküləcəkdir,
Ürəyi doludur xatirələrin.
Dindirsən,
təəssüf  hönkürəcəkdir.
Qıvrılıb yatıbdır dolama yollar,
-Boynuna dolanar o ilan kirai.
Dəymə,
qoy uyusun nisgil arzular
Yasandan tutacaq ayılan kimi...
Bu göz yaşlarıyla,
Bu yalvarışla
Yolların tozunu yatırmaq olmaz,
Küsülü illərin istəklərini
Daha mənzilinə çatdırmaq olmaz.
Yumaz ki dünəni selləmə yağış,
Bayılmış dünənə çilləmə yağış...
Gecikdi bir arzu,
güman gecikdi.
Gecikdi bir yağış,
yaman gecikdi.
Yaşadıq nigaran, qulağı səsdə,
Ömürdən ötəri cığırlar keçdi.
Bizim ümidimiz axır nəfəsdə

Nə qədər çırpınsa
yenə də heçdi...
Daha oyanışa güman ki, yoxdu,
De, nəyə gərəkdir bu son beraət?
Səndən bir məhəbbət uman ki, yoxdu.
O güvəncli dağlar marala qaldı,
O məxmər çəmənlər sarala qaldı,
Vaxtında yağmadı, nur çiləmədi
Buludlar qarala-qarala qaldi...
Məni bu günündə soraqlama sən,
Məni dünənində taparsan indi.
Bu günə qədərki kədər mənimki,
Bu gündən sonrakı kədər sənindir.
Qovmadın başından
duman gecikdi,
Gecikdi bu yağış,
yaman gecikdi...

## SEVGİ HƏLƏ ÖMÜR DEYİL...

### I

Sevgi hələ ömür deyil, əzizim,
Qarşıda illərin sınağı durur.
Hələ baxışların
çiyinlərdən sürüşüb axmağı var,

Hələ bu sevginin
səksəkəli uşaq kimi
qaranlıqdan qorxmağı var;
Sevgi hələ ömür deyil, əzizim...

Ötən günlərə əli çatmayanda,
Təklikdən bağrı çatlayanda
Hamı bacarar sevməyi.
Yağanda üstünə vaxtın ağırlığı,

Qaraldanda gözlərini
divarların ağlığı
Hamı bacarar sevməyi;
Sevgi hələ ömür deyil, əzizim...

**II**

Köhnə sevgisiylə öyünən qızlar,
İndi yad ürəkdə döyünən qızlar,
Kim də bilməsə də
siz bilirsiniz,
Başınıza gəlib,
düz bilirsiniz.
Özünüz bir evə köçdünüz, ancaq
Qəlbiniz başqa bir ürəkdə qaldı.
Xatirəyə döndü əhdiniz, ancaq
Yüngül eşqinizi küləklər aldı;
Sevgi hələ ömür deyil, eləmi?..
Hələ bu sevginin tərəddüdlərdə
Yeyin vurmağı var,
Sıxılmağı var.
Hələ bu sevginin gözləri bağlı
Şöhrət zirvəsindən yıxılmağı var.
Ayağa durmağa gücün çatmasa,
Səadət əlindən əgər tutmasa,
Qaçırsan fürsəti əgər ov kimi,
Atılsan həyata bir tilov kimi
Sevgi hələ ömür deyil, əzizim...

**III**

Məhəbbətlə öpür dağı
Bulaqların buz dodağı,
Yaşatmasa bir budağı
Bulaq hələ ömür deyil.

Odun yanmaqdır marağı,
Kibritin oddur yarağı,
Yandırmasa bir çırağı
Yanmaq hələ ömür deyil.

Gərəksiz yanacaqdısa,
Quruca od-ocaqdısa,
Buludda qalacaqdısa
Günəş hələ ömür deyil.

Nəyə lazım qulaq karsa,
Partlayacaq ürək darsa,
Fikri, düşüncəsi korsa
Görmək hələ ömür deyil.
Kül üfurmürsə hicrana,
Əgər gülmürsə hicrana,
Dözə bilmirsə hicrana
Sevmək hələ ömür deyil!

*Yanvar, 1979*

## DÜNƏN TOYUN İDİ...

Sağlıqlar deyildi çığır-bağırla,
Üşüyən qəlbinə girən oldumu!
Gözündən qəlbinə düşən cığırla
Axan göz yaşını görən oldumu!

Sağlıqlar uzandı...
səhərə kimi
Çalıb-oynadılar, kef eylədilər,
Çırpıb pillələrə son ümidimi
"Vağzalı" üstündə dəfn eylədilər.

Son ümid!
O mənim gərəyim idi...
Yoluna şam tutdu neçə qız, gəlin.

Şam deyil,
o mənim ürəyim idi,
Son dəfə yanırdı yolunda sənin.

Getdin...
O köhnə yol nur yolu idi,
İzin düşən yerdə gül açmadı ki?
Özgəylə keçirdin o yolu indi,
Ayağın altından yer qaçmadı ki?

Bu yollar nə yaman vəfasız imiş,
Niyə çiliklənib tökülmədilər?
Düşüb qədəminə hər yoxuş, eniş
Niyə ürəyimə çəkilmədilər?..

Başına gül-çiçək səpdilər o gün,
Alışan qəlbinə su səpmədilər.
"Get" deyib
alnımdan öpdülər o gün,
Sınıq taleyini düzəltmədilər...

Güldün...
Gülüşünün ömrü çox qısa,
Bir həsrət axırdı qanında sənin,
Orda bütün yerlər tutulmuşdusa
Yerim görünürdü yanında sənin.

Dünən toyun idi...
Xoşbəxt olasan!
Görünür bu bizə qismət deyilmiş.
Unut!
Elə bil ki,
sevdiyin oğlan
Getdiyin oğlanmış,
Nüsrət deyilmiş...

*Sentyabr, 1978*

**GƏLƏCƏYƏM**

Təki vədələşək,
ay ömrüm-günüm,
Sabaha bu qədər bədgüman olma.
Qətrə ol,
yaxın ol, bəssən mənimçün
Uzaqda görünən boz duman olma.
Dayanaq üz-üzə iki sahiltək,
Məhəbbət arada bir ümman olsun.
Baxım gözlərinə gülümsəyərək,
Səni qoy vüsalım əlimdən alsın.
Təsadüf aranı kəssə,
yenə də
Dərdimi səninlə böləcəyəm mən,
Hissimi, duyğumu bir məktub edib
Sənin görüşünə gələcəyəm mən.

Yenə sərhədlərdə güllə atılıb,
Əsəblər bir tarım sim olub indi.
Yenə yuxulara qorxu qatılıb,
Təki dinclik olsun...
olmasa, işdi -

Bizi ağuşuna ayrılıq alsa,
Araya sərhədlər düşəsi olsa,
Bir həsrət bürüsə göyü, yeri də
Qorxma...
məhəbbətim elə odludur,
Əridər tikanlı məftilləri də.
Vətənçün,
Səninçün oda da düşsəm
Yox, yox ağlamaram,
gələcəyəm mən.
Əlimdə bir dəstə zəfər çələngi
Sənin görüşünə gələcəyəm mən.
Ömrümüz həyatın qolları üstə

Bəzən oyaq olur,
Bəzən mürgülü.
Bizim hicranımız anlar bükülü,
Düşmüşük məhəbbət yolları üstə.
Durmuşuq biz iki yol ayrıcında
Birində vüsaldır,
Birində həsrət...
Sən ver əllərini bir dəstə gültək
Götürüb dünyanı gəzəcəyəm mən,
Vədə ver, vədə ver sabalı görüşək.
İşıqlar söndümü,
Gecə keçdimi
Çıxıb qaranlıqdan bir günəş kimi
Sənin görüşünə gələcəyəm mən.

*Oktyabr, 1968*

**BİR QIZA**

Bu gün də yolumdan saxladın məni,
Yenə də eyhamlar işini gördü.
Az qaldı ürəyim yara sinəmi,
Qəzəb qanadını üstümə sərdi...

Bir kədər dumanı məni bürüdü,
Yığdı gözlərimə nifrəti, külü.
Üstündə hər cürə daş-qaş var idi
Zərgər dükanının vitrini kimi.

İtərəm gozündən mən ilim-ilim,
Atandan danışma, heç yeri deyil.
Atan kabinetdə nazirdi, gülüm,
Mənim ürəyimin naziri deyil.

Saxta şöhrətlərə düşmənəm, yadam,
Simüzər görürəm qayəndə sənin.
Bir də həqiqəti bil ki,
mən adam
Olmaq istəmirəm sayəndə sənin...

Dünyanı görmüşəm clə bir donda,
Demirəm sevincdən dərd böyük olub,
Sənin ciblərinə pul yük olanda
Mənim ciblərimə əlim yük olub!..

Yox, yox!
Varlı olmaq eyib deyil ki,
Bilirəm, pulunuz hesaba gəlməz.
Səni istəyimcə sevməsəm, bil ki,
Atan əmr verib sevdırə bilməz.

Ayrılaq,
unudaq kədəri, yası,
Könlüm dediyini söyləyir dilim.
Səni nazirliyin qara "Volqa"sı,
Mənisə ehtiyac gözləyir, gülüm...

*1968*

**SƏN GƏRƏK...**

Sən gərək özünü tanıtmayaydın,
Mənə bu üzünü tanıtmayaydın.
Yenə də həyatı səndən umaydım,
Elə biləydim ki, dünyada təksən.

İllərin ömrümdən apardığını
Elə biləydim ki, gətirəcəksən.
Bahar gözləyirdim,
yenə də qışdı,
Bir arzu, bir ümid öldürməkdənsə
Aldana-aldana yaşamaq xoşdu;
Sən gərək özunü tanıtmayaydın...
Sənə baxa-baxa sənin üzündə
Görünür özgəni sevmişəm onda.
Hər titrək sözümü sənin gözündə
Yəqin özgəsinə demişəm onda.

Hissin xumarında yumub gözünü
Onda məhəbbətim yuxulu imiş.
Sonradan oyanıb,
onda bilib ki,
Suyun lal axanı qorxulu imiş;
Sən gərək özünü tanıtmayaydın.

Sən gərək özünü tanıtmayaydın;
Ömür də beləce keçib gedəydi.
Sən demə, marala atdığım güllə
Maral dərisində tülküyə dəydi...
Sadəlövh qəlbimdən,
məhəbbətimdən,
Keçdiyim yollardan utanıram mən;
Yuxulu gözümdən ağrılar keçir,
Yanımdan sevgisi doğrular keçir,
Səndən yox,
onlardan utanıram mən...
Sən gərək özünü tanıtmayaydın,
Mənə bu üzünü tanıtmayaydın...

*1979*

**SƏN DEMƏ, TƏZƏDƏN SEVMƏK OLARMIŞ...**

Sən demə, təzədən sevmək olarmış,
Tale də təzədən gülə bilərmiş.
Küsüb gözüyaşlı gedən məhəbbət
Peşiman-peşiman gələ bilərmiş.

Ürək bulud kimi boşalırsa da
Demək, bulud kimi təzədən dolur,
Sonuncu şöləsi titrəyən şamdan
Ayrı bir şamı da yandırmaq olur.

Sən demə, tozədən sevmək olarmış,
Köhnə yaraları vaxt, zaman silir,

Kəsilən budaqla ölən ağaclar
Təzə pöhrələrlə dirilə bilər.
Ağlaya-ağlaya dünyaya gəlib,
Biz ana südüylə gülməmişikmi?!

Hər axşam sapsarı batan günəşi
Hər səhər təzə-tər görməmişikmi?!
Sən demə, təzədən sevmək olarmış,
Sevgi fursət deyil quş kimi uça.
Nə də kölgədir ki,
qaçasan qova,
Ya da sən qovasan,
o səndən qaça...

Çıxarsan qəlbindən ötən sevgini,
Bir gün də tənhalıq sıxacaq səni.
Kiməsə etdiyin yaxşılıq kimi
Məhəbbət qarşına çıxacaq sənin.

İlk sevgi yuvadan düşən quşcuğaz,
Körpə qanadları pöhrələnməyib.
Məcnunun ahıyla uçan məhəbbət
Min hiylə əliylə yerə enməyib...

Mən ki, görməmişəm sevgini susan,
Məhəbbət zirvədə bəslənən qarmış.
Kim deyir, bir dəfə sevilir insan,
Sən demə, təzədən sevmək olarmış...

*1980*

**NƏ BİLƏYDİK**

Nə biləydik bu sevginin sonu yox,
Nə biləydik dünya belə dönəcək,
Nə biləydik sevgi adlı bu qonaq
İkimizin aramızda öləcək...

Ulu sevgi göydən yerə endimi,
Nə dayandı yolumuzun üstündə?
Bu məhəbbət soyuduqca, sən demə,
Can verirmiş qolumuzun üstündə.

Hər görüşə sürünürdü ayaqlar...
O çəmənlər - bir baharlıq səməni.
Dodaqları yandıranda dodaqlar
Ürəyimiz üşüyürmüş, deməli.

Əyləncələr qoymadı ki, göz açaq;
Hər istəyi biz beləcə bitirdik.
Payız gəldi toy-bayramla,
biz ancaq
Yarpaq-yarpaq günümüzü itirdik.

Şirin oldu yalanların zəhəri,
Həqiqəti gizləmişik həmişə.
Sevgililər oyaq açdı səhəri,
Biz axşamı gözləmişik həmişə...

Yuxu gördük...
gah qorxulu, gah da şən,
Boğdu bizi tərədüdlər axarı.
Yuxularda əllər gördük birləşən,
Ha yozduqsa hicran oldu axırı...

Nə biləydik bu sevginin sonu yox,
Nə biləydik dünya belə dönəcək.
Nə biləydik sevgi adlı bu qonaq
Üzümüzə baxa-baxa öləcək...

*1979*

**MƏN Kİ, SƏN DEYİLƏM...**

Unutmadı gözlərini gözlərim,
Mənim gözüm, sənin gözün deyil ki.
O yerləri naxışlayır izlərim,
Mənim izim, sənin izin deyil ki.

Yalanlara öyrətmədim dilimi,
Mənim dilim, sənin dilin deyil ki.
Hər yetənə uzatmadım əlimi,
Mənim əlim, sonin əlin deyil ki.

Uçub getdin, sazaq düşdü könlümə,
Mənim qəlbim, sənin qəlbin deyil ki.
Sən gülüşçün yaranıbsan, inləmə,
Mənim qəlbim, sənin qəlbin deyil ki.

Sən qaraltdın, mən ağartdım saçlraı,
Mənim saçım, sənin saçın deyil ki.
Eşidənlər bağışlayar suçumu,
Mənim suçum, sənin suçun deyil ki.

Yerə düşdü, odlu sözüm közərdi,
Mənim sözüm, sənin sözün deyil ki.
Qarşılaşdıq, dil susdu, üz qızardı,
Mənim üzüm, sənin üzün deyil ki.

Sən yolunu dəyişdirdin bir səhər,
Mənim yolum, sənin yolun deyil ki.
Bu hicrana dözəcəyəm birtəhər,
Dözəcəyəm, hicran ölüm deyil ki!..

*Fevral, 1982*

**BİR SEVDA AĞLAYIR...**

Gəl dedim, koksümə yaralı düşdü,
Əl açdım, əllərim aralı düşdü,
Ona bu ağ dünya qaralı düşdü,
Bir sevda ağlayır içimdə mənim.

Qədri bilinmədi,
Ömrü qırıldı,
Həsrət boyun bükdü,
hicran yoruldu.
O hər gün incildi,
hər gün vuruldu,
Bir sevda ağlayır içimdə mənim.

Min gül solduranlar
min gül dərdilər,
Yüngül çiçəkləri
yüngül dərdilər,
Mən ürək açanda
baxıb gördülər
Bir sevda ağlayır içimdə mənim...

Dünəni bükülü xatirəsinə,
Vurğundur bu günü xatirəsinə,
Qısılıb mürgülü xatirəsinə
Bir sevda ağlayır içimdə mənim.

Bacara bilmədim özüm-özümlə,
Dil tapa bilmədi işim sözümlə,
Mənim fəryadımla,
Mənim gözümlə
Bir sevda ağlayır içimdə mənim.

Mənəm daş daşıyan o məhəbbətə,
İtmiş qaş-daşıyam o məhəbbətə,
Özüm başdaşıyam o məhəbbətə,
Bir sevda ağlayır içimdə mənim.

Gec oldu qədrini mən biləndə də,
Sevinci yaşayıb, qəm böləndə də
Üzümə baxmayın,
mən guləndə də
Bir sevda ağlayır içimdə mənim...

**NEYLƏYİM?**

Bu təbəssüm bir çiçəyin izidi,
Ala gözün bulaqların gözüdü,
Ürəyimdə məhəbbətin özüdü,
Ürəyimlə bacarmıram, neyləyim?

Hər eyhamın bir tilsimə açardı,
Dil bilsəydi daş da könül açardı.
Ağlım səndən uzaqlaşar, qaçardı,
Ürəyimlə bacarmıram, neyləyim?

Bu ülfətin sonu hicran deyil ki,
Dilim tutmur istəyimi deyim ki.
Sənə gələn yollarımı əyimmi?
Ürəyimlə bacarmıram neyləyim?

Gözləyirəm...
Hər dəqiqəm il olur,
Sən gəlirsən, hər ləpirin gül olur.
Qəlbim yenə qolu bağlı qul olur,
Ürəyimlə bacarmıram, neyləyim?

Uşaqlığın havası var başında,
Ürəyimin xəncəri var qaşında.
De, sevimmi mən indi bu yaşımda?
Ürəyimlə bacarmıram, neyləyim?

**ETİRAF**

*Ömür-gun yoldaşıma*

Fikirli gəlirəm,
Dalgın gəlirəm,
Qayğılı gözlərin çəkir şəklimi.
Bəzən gec gəlirəm,
yorğun gəlirəm
Bitirsən qapıda bənövşə kimi...

Bəlkə min suçumu bilmisən mənim,
Birini üzümə vurmamısan heç.
Eyhamla üzümə gülmüsən mənim,
Bircə yol üzümə durmamısan heç.

Hər kəs taleyilə gəlir həyata,
Demirəm, ürəyi yumşaq olmuşam.

Dəcəl balalara mülayım ata,
Səninçün ən dəcəl uşaq olmuşam.

Sənsən dağlar" kimi səbrlə dözən,
Bəlkə tərəddüdlə çox döyüşmüsən.
İsti bir sevgidən yazmışam bəzən,
Soyumuş çayımı sən dəyişmisən...

Üzümdə kədərdən bir iz görəndə
Şirinim olmusan,
Acım olmusan.
Qohumdan, tanışdan pis üz görəndə
Sən anam olmusan,
Bacım olmusan.
Bir kovrək şerimdən gözlərin dolub,
Nə deyim,
Özgədən çox yazıb qələm,
Nə qədər düyünlü günümüz olub,
Düyünlü qaşın görməmişəm mən...

Bir əlin mətbəxdə
qabda-qaşıqda,
Bir gözün istidə, tüstüdə olub.
Bir əlin beşikdə
ogul-uşaqda,
Bir ğözün həmişə üstümdə olub.

Yollar çarpaz-çarpaz,
Yollar qarışıq...
Gecə yol gəlirəm qulağı səsdə.
Bizim pəncərədən süzülən işıq -
Gözünün nurudur yolumun üstə.

Fikirli gəlirəm,
Dalğın gəlirəm,
Qayğılı gözlərin çəkir şəklimi.
Bəzən gec gəlirəm,
yorğun gəlirəm
Bitirsən qapıda bənövşə kimi...

* * *
Qapını döymüşəm gecəyarısı,
Saçımda bir əlin təması gəlib
İsti dodağımda bir öpüş izi,
Əlimdə bir sacın xınası gəlib.

Yuxulu gözündə qızartı görüb,
Qızara-qızara yalan demişəm.
Şübhənin bəhanə payını verib,
Hələ yatmayıb ki, balam, demişəm.

Tez-tez oynayıram mən bu oyunu,
Neçə yad sifəti görüb gəlirəm.
Sənin bir ömürlük sevgi payının
Yarısın özgəyə verib gəlirəm.

Bu elə duyğu ki,
Bu elə qəm ki,
Min olsa yenə də əyməzdi səni.
Bəzən eləsinə dəyişmişəm ki.
Bəlkə dırnağına dəyməzdi sənin.

Pəncərə dalından yollara baxıb,
Yuxusuz gözünlə vaxtı sayırsan.
Körpə balaları köksünə sıxıb
Mürgülü-mürgülü gülümsəyirsən.

Nağıl danışırsan "Min bir gecə"dən,
Nağılın qorxulu, sehrli, qəmgin...
Mən isə sallanıb kəndir gecədən
Bir quyu dibinə enirəm hər gün.

Bilmirəm mələksən, Allahsan, nəsən?
Mənə bağışladın neçə günahı.
Belə mehribanlıq eylədikcə sən
Özüm öz gozümdən düşürəm, axı...

## SEVƏNLƏR DEMƏYƏYDİ...

Ötüb illər keçir, ötür qərinə,
Arzum yola düşür mənim yerimə,
Dünyanın səadət zirvələrinə
Tələsib, həmişə gecikən mənəm.

Min soraq gətirən küləklər üçün,
Məhəbbət yuvası ürəklər üçün,
Mənimçün açılan çiçəklər üçün
Tələsib, həmişə gecikən mənəm.

Zaman uçub gedır, gözləmir yenə,
Yağışlar tələsir qovuşsun selə,
Əvvəldən bildiyim səfərə belə
Tələsib, həmişə gecikən mənəm.

Hicran qapımızı döyməyəydi kaş,
İllər gəncliyimə doyməyəydi kaş,
Sevənlər heç zaman
deməyəydi kaş,
-Tələsib, həmişə gecikən mənəm.

## SEVDİRƏ BİLMƏDİM...

Dəli kimi sevdim gözəl dəlini,
Gül verdim, yandırıb-yaxdı əlini,
Seçib cümlələrin ən gözəlini
Titrəyib söylədim sözümü sənə,
Sevdirə bilmədim özümü sənə...

Həsrəti, vüsalı qoşa sevdirdim,
Üşüyən əynimi qışa sevdirdim,
Yalın ayağımı daşa sevdirdim,
Tanıda bilmədim izimi sənə
Sevdirə bilmədim özümü sənə...

Alışıb yanardım göz istəsəydin,
Bir nəğmə olardım söz istəsəydin.
Məni görmək üçün göz istəsəydin
Kor qalıb, verərdim gözümü sənə;
Sevdirə bilmədim özümü sənə.

Sənə hər məktubu yazdım qanımla,
Ruhumla, hissimlə, həyəcanımla,
Sevinclə ölərdim,
əgər bununla
Bağışlasaydım mən
ömrümü sənə;
Sevdirə bilmədim özümü sənə...

**SEVƏ-SEVƏ AYRILAQ...**

Biz xoşbəxt olmadıq sevənlər kimi,
İndi son bahartək sızlar qəlbimiz.
Bəlkə bu dünyaya gəlmişik, gülüm,
Artıraq dünyaya həsrətini biz.

Tənə də, giley də daha əbəsdir,
Bu sirli royadan ayılaq gərək.
Ya sən gecikmisən, ya mən
tələsdim,
İndi sevə-sevə ayrılaq gərək.

Könül gizli-gizli
yanacaq indi,
Bir damla göz yaşın dənizdi mənə.
Bizə xatirələr qalacaq indi,
Sənin xatirən də əzizdir mənə...

Bilirəm, bu həsrət üzəcək səni,
Çalış, kölgə kimi sürünməyəsən.
Gözlərim hər zaman gəzəcək səni,
Çalış,
Gözlərimə görünməyəsən!...

## İKİMİZİN YERİNƏ...

*Sevdiyimiz bir nəğmə var...*

Bu sevgidən sən qorxursan
eybi yox,
Mən sevərəm ikimizin yerinə.
Bu eşq üçün bir ğün
dara çəksələr
Mən gedərəm ikimizin yerinə...
Min əzabdır sənsiz keçən
hər günüm,
Unutmuşam yaxşı, yaman fərqini.
Bu sevginin dağ əridən dərdini
Mən çəkərəm ikimizin yerinə.

Gül deyirəm, gül qəlbinə dəyirəm,
Mən səninçün tanrı yazan şeirəm,
Dodaqların inciməsin deyirəm,
-Mən ölərəm ikimizin yerinə...

Taleyimdə son açılan gülümsən,
Süzüb qara gözlərini gülümsə,
Bu sevginin sonu əgər ölümsə
Mən ölərəm ikimizin yerinə.

## HEYF, O SEVGİYƏ...

O yalançı illər günə dəyməzmiş,
Gül verdim, verdiyim gülə dəyməzmiş,
Gözümdə çağlayan selə dəyməzmiş,
Heyf o sevgiyə, o məhəbbətə.

Bir dəfə ürəkdən gülə bilmədim,
Könlümü kimsəyə verə bilmədim,
Səndən başqasını sevə bilmədim,
Heyf o sevgiyə, o məhəbbətə.

Sənsiz gecələrim yuxu bilmədi,
İçimdə alışan ahı bilmədi.
Mən bildim, sən bildin, çoxu bilmədi,
Heyf o sevgiyə, o məhəbbətə.

Özümün özümdən acığım gəlir,
Dostlarım kədərli, düşmənim gülür.
Ölən sevgimizə yazığım gəlir,
Heyf o sevgiyə, o məhəbbətə.

Sultanlıq taxtımız devrildi necə,
Küləksiz, tufansız  sovruldu heçə.
O sevgi nifrətə çevrildi necə,
Heyf o sevgiyə, o məhəbbətə.

**BU, SƏN DEYİLSƏN...**

Qayıdıb gəlibsən gözləri yaşlı,
Deyirsən, bir daha küsən deyilsən.
Hanı o vüqarın, o saymazlığın;
Yox, bu sən deyilsən, bu sən deyilsən.

Deyirsən vaxt keçir, zaman gözləmir,
Dilin dediyini, ürəyin demir.
Bu yalvaran gözəl sənə bənzəmir,
Yox, bu sən deyilsən, bu sən deyilsən.

Getdiyim hər yeri güdən sən idin,
Küsəndə aylarla itən sən idin,
Çırpıb qapıları gedən sən idin,
Yox, bu sən deyilsən, bu sən deyilsən.

Deyirsən küsənlər barışar yenə,
Nə tez boyun əydin beş gunlük qəmə?
Özündən razılıq yaraşır sənə
Yox, bu sən deyilsən, bu sən deyilsən.

Dərdlisən, dərdini get danış suya,
Əl açma, alçalma mən verən paya,
Elə bil dilənçi gəlib qapıya
Yox, bu sən deyilsən, bu sən deyilsən.

*Dekabr, 1995*

## YARI MƏNDƏ, YARI SƏNDƏ...

İkimizdə bir ürək var.
Yarı məndə, yarı səndə.
Sevgi adlı bir ağacıq,
Budaq məndə, narı səndə.

Çiçək ətri gül üzündə,
Min məna var hər sözündə.
Bir buluduq göy üzündə
Yağış məndə, dolu səndə.

Bir ovçuyam, günüm ovda
Qaçhaqaçda, qovhaqovda,
Eşqimiz bir şirin sevda
Pətək səndə, balı məndə...

## MƏNİM BU GÖZ YAŞLARIM...

Bu idimi son niyyətin
Oynama gəl vüqarımla.
Axıb gedər məhəbbətin
Mənim bu göz yaşlarımla.

Gül yanaqlar saralacaq,
Axıb sular durulacaq.
Birümman da yaranacaq
Mənim bu göz yaşlarımdan.

Yollar bağlı, gələmməzsən,
Bu dərdi sən böləmməzsən,
İstəsən də siləmməzsən
Mənim bu göz yaşlarımı.

Könül yorğun, yollar çəttin,
Nələr etdi qəbahətin?
Dəyməz sənin məhəbbətin
Mənim bu goz yaşlarıma...

**KÜSÜLÜ QALA BİLMİRƏM...**

Qayıdıb gəlmişəm yanına yenə,
Nə olar, bu dəfə qəlbimə dəymə.
Deyəsən gülürsən acizliyimə,
Neyləyim, küsülü qala bilmirəm.

Sevənlər həmişə yesir düşübdür,
Axı, aramıza nə sirr düşübdür,
İradəm sevginə əsir düşübdür.
Neyləyim, küsülü qala bilmirəm.

Zaman gözləməyir,
Ömür-gün axır,
Soyuqluğun məni yandırır-yaxır.
Gözüm gözlərinə yalvarıb baxır,
Neyləyim, küsülü qala bilmirəm.

Uçub buludlara qona bilərəm.
Bu dərdin əlində sola bilərəm.
Ömürlük ac-susuz qala bilərəm,
Neyləyim, küsülü qala bilmirəm...

## SEVƏ BİLMƏZSƏN

Hələ qəlbimizdə xatirə izi,
Hələ ayrılığın nəmlidi gözü.
Hələ ki, sevirik bir-birimizi,
Başqa birisini sevə bilməzsən.

Gör neçə nəğmənin bəstəsi qalıb,
Bu ocaq sönübsə, tüstüsü qalıb.
Əlindo əlimin istisi qalıb,
Başqa birisini sevə bilməzsən.

İncidib, qəlbimə dəyə bilmirsən,
Yolunu biryolluq əyə bilmirsən.
Mənə "yox" sözünü deyə bilmirsən,
Başqa birisini sevə bilməzsən.

İl keçir, ömürdə xatirə qalır,
Bahar güllərimiz qönçədə solur,
Hələ ki, gözlərin məni axtarır,
Başqa birisini sevə bilməzsən.

Axar gözümüzün yaşı qurumaz,
Deyirdik bu ilqar, peyman pozulmaz,
Belə sevə-sevə ayrılmaq olmaz,
Başqa birisini sevə bilməzsən.

## ALLAHIM, AYIRMA BİZİ...

Bu ömür yolunda üz-üzə gəldik,
Zülmət bir gecədən gündüzə gəldik,
Deyəsən, axırda biz gözə gəldik,
Nə olar, Allahım, ayırma bizi.

Sənin əlindədir taleyin hökmü,
Nə oldu, bu sevgi bir ağır yükmü?
Ayrılıq deyilən səndən böyükmü?
Nə olar, Allahım, ayırma bizi.

Sonradan qovuşan iki yoluq biz,
Sevgiylə başlayan iki sonuq biz,
Haqqına tapınan iki quluq biz,
Nə olar, Allahım, ayırma bizi.

Duymadıq sevginin şirin dadını,
Vurma qəlbimizə hicran odunu,
Eşit sevənlərin qəm fəryadını:
Nə olar, Allahım, ayırma bizi.

Bu biz, bu məhəbbət, bu alın yazı.
Yoxsa bu yazıya əgər bir pozu.
Ayırmaq istəsən al canımızı,
Nə olar, Allahım, ayırma bizi...

*İyun, 1996*

**SƏNDƏN SONRA...**

Özünlə aparmısan
Günlərimin rəngini.
Kədər mənə bənzəyir,
Qəm kövrəlib sən kimi.
İndi başa düşmüşəm,
Sənsiz hər şeyim hədər;
Səndən sonra heç kəsi
Sevmədim sənin qədər.

Sevgi dolu baxışlar
Şəklindən baxır mənə,
Dönəcəksən bilirəm
Sən əvvəl-axır mənə.
Mən elə bilirdim ki,
Hər şey soyuyub gedər,
-Səndən sonra heç kəsi
Sevmədim sənin qədər.

İçimdə tufan kimi
Çağlayır xatirələr,
Göz yaşlarım qurumur,
Ağlayır xatirələr.
Mən kədərdən doymuşam,
Məndən doymayır kədər,
- Səndən sonra heç kəsi
Sevmədim sənin qədər.

O qədor yaxın ikən,
Bu qədər uzaq olduq.
Yorulduqmu sevgidən
Biz yarı yolda qaldıq.
Mən əzablar içində,
Sən özün məndən betər.
Sən özün də heç kəsi
Sevmədin mənim qədər...

*İyun, 1996*

**SƏN MƏNİ GÖRƏCƏKSƏN...**

Mənə dord verib getmə,
Dərdimnən öləcəksən.
Hara baxsan, qarşında
Sən məni görəcəksən.

Bu peşiman yollarda,
Axıb gedən sularda,
Hər gecə yuxularda
Sən məni görəcəksən.

Qəm dolu otağında,
Qurumuş dodağında,
O mənsiz yatağında
Sən məni görəcəksən.

Dən düşər qara telə,
Göz yaşın dönər selə,
Gözünü yumsan belə
Sən məni görəcəksən.

Toyda gülməyəcəksən,
Könül verməyəcəksən,
Bəyi görməyəcəksən,
Sən məni görəcəksən...

*May, 1996*

**SƏNİN XATİRİNƏ...**

Nə yazsam sevgidən yazır
Qələm, sənin xatirinə.
Hicrandan boynu bukulu
Mənəm, sənin xatirinə.

Yolumu duman bağlasa,
Köksümü həsrət dağlasa.
Gözlərimdə sel çağlasa
Gülləm, sənin xatirinə.

Gəl yandırma dilin ilə,
Çox oynama külüm ilə
Son tikəmi sənin ilə
Bölləm, sənin xatirinə.

Bilmirəm, mələksən, nəsən,
Can verərəm, can istəsən.
Bircə kəlmə öl söyləsən,
Ölləm, sənin xatirinə.

*May, 1996*

## BU SEVDA

Nahaqdan doymuşam, mən haqq gəzirəm,
Başıma bir bəla, günah gəzirəm.
Mən ki məhəbbətdən uzaq gəzirəm,
Hardan ürəyimə doldu bu sevda?

Dərdə əyilməzdim, eşqə əyildim,
Bu eşqi Tanrının cəzası bildim,
Mən ki bu sevgiyə hazır deyildim,
Gül kimi əlimdə soldu bu sevda.

Yenə mən olmadım ülfəti qıran,
Sevdimmi, eşqimdə ölüncə varam,
Kədəri bir dünya, sevinci bir an,
Məni bəlalara saldı bu sevda.

Təkliyə sən necə dözürdün, Allah,
Bu eşqlə qəbrimi qazırdın, Allah,
Özünə şərikmi gəzirdin, Allah,
Sənə istəyimi böldü bu sevda.

*Yanvar, 1997*

## OLDURMƏ MƏNİ

Canı sən vermədin, sən də alasan,
Ümid ver yaşayım, öldürmə məni.
Qıyma sevəninə qatil olasan,
Ümid ver yaşayım öldürmə məni.

Ölümüm min yerə yozulacaqdır,
Dünyadan bir sevən azalacaqdır,
Qəbrim ürəyində qazılacaqdır,
Ümid ver yaşayım, öldürmə məni.

Məni öz əlinlə məzara vermə,
Görmək istəmirsən, heç məni görmə,
Sən Allah, bu qədər günaha girmə,
Ümid ver, yaşayım, öldürmə məni.

Vallah, əllərimdə qalacaq yaxan
Bilmirəm bu mənzil uzaqmı, yaxın,
Yaşamaq mənim də haqqımdı, axı
Ümid ver, yaşayım, öldürmə məni...

*Avqust, 1996*

## YAŞADI

Bu sevginin ömrü belə qısaymış,
Bənövşətək bircə həftə yaşadı,
Sevinməyə səbri belə çatmadı,
No yaşadı, qəm tərəfdə yaşadı.

Bu tər qönçə açılmadan solarmış,
Bu məhəbbət hansı səmtə yol almış?
Sevənlərin günü qara olarmış,
Görən kimlər sevib kefdə yaşadı?..

O ürəkdən güldüyümüz gün hanı?
Sədaqətdən danışdığın dil hanı?
Bu sevginin səhvmi düşdü ünvanı?
-Oz ömrünü elə səhvdə yaşadı.

## HƏLƏ BU HARASIDIR...

Ayrılıq  hicran deyil,
Qəlbinin yarasıdır,
Əyil, qarşımda əyil,
Hələ bu harasıdır.

Qəlbini sıxacağam,
Zəng edib susacağam,

Evini yıxacağam,
Hələ bu harasıdır.
Görəndə güləcəyəm,
Yuxuna gələcəyəm,
Hər cür dərd verəcəyəm,
Hələ bu harasıdır.

Getməz gözünün nəmi,
Göz yaşın boğar səni.
Həsrət yandırar səni,
Hələ bu harasıdır.

Yollarda qalacaqsan,
Saralıb solacaqsan.
Od tutub yanacaqsan,
Hələ bu harasıdır.

Gözün yolda qalacaq,
Hey boşalıb, dolacaq,
Gör bir nələr olacaq,
Hələ bu harasıdır...

*İyun, 1996*

**QAYTAR MƏNƏ**

Bulaq tək safsan dedim,
Bulaq tək axıb getdin.
Odlu baxışlarınla
Qəlbimi yaxıb getdin.
Qəfil gəldin ömrumə,
Qəfil də çıxıb getdin,
Sənsiz dözə bilmirəm,
Dözümü qaytar mənə.

Bəlkə tilsimə düşdün,
Ürəyin daşa döndü,
Səninlə gedən eşqim
Həsrətlə qoşa döndü,
Dedim baharım gəlib,
Baharım qışa döndü,
Gülümü aparmısan,
Yazımı qaytar mənə.

Nazınla çox oynadım,
Dedim huri, pərisən,
Göyü əlimdən aldın,
Dar eylədin yeri sən.
Sən mələk deyilmişsən,
Adilərdən birisən,
Məni məndən almısan,
Özümü qaytar mənə.

*Fevral, 1997*

**SƏNİ UNUTSAM...**

Mən səni unuda bilmirəm, axı,
Unutsam, nələri unudam gərək,
Göylərə baxmışıq aylı gecədə,
Unutsam göyləri unudam gərək.

Dənizi unudum, ya dalğaları,
Xatirən yadımdan çıxaydı, barı.
Payızda xəzanı, qışdasa qarı,
Baharda gülləri unudam gərək.

De, necə unudum mən səni necə,
Sevgi durna deyil, payızda köçə,
Yuxuma gəlirsən mənim hər gecə,
Ayları, illəri unudam gərək.

Sənin xəyalındır həsrətlə baxan,
Adındır hər saat qarşıma çıxan,
Qarışıb şəklinə gözümdən axan,
Yağışı, selləri unudam gərək.

Sinərədə peşiman ürəyim qaldı,
Uçdun, əllərimdə lələyin qaldı,
Nələri itirdim, bax, nəyim qaldı,
Nələri, nələri unudam gərək.

*Fevral, 1997*

**BİLƏRƏM...**

Mənə qadan alım demə, əzizim,
Mən sənin başına dönə bilərəm,
Sənsiz qəm alovlu yanan ocağam,
Ağlama, yağışdan sönə bilərəm.

Mən günəş gözləyən puçuram hələ,
Özüm öz dərdimdən qaçıram hələ,
Ulduzdan ulduza uçuram hələ,
Çağırsan torpağa enə bilərəm.

Qıfıl axtarıram mən açar kimi,
İmdad gözləyirəm bir naçar kimi.
Hələ ki susuram günahkar kimi,
Bir gün üsyan edib dinə bilərəm.

Deyəsən, Tanrıya yetişdi duam,
Hələ ki cavabsız qalıbdı sual,
Küsmüsən, beləcə küsülü də qal,
Barışsan, sevincdən ölə bilərəm.

*İyul, 1997*

## BURA QƏDƏRMİŞ

Bu dünyada əbədilik nə var ki,
Ömür kimi hər şey gəldi-gedərmiş.
Nə sevginin günahı var, nə bizim,
Bu sevgının ömrü bura qədərdi.

Məcnun ahı, leylinin göz yaşları
Nə biləydik əfsanəymiş, hədərmiş.
Qəm eyləmə, hər yolun bir sonu var.
Bu sevginin ömrü bura qədərmiş.

Gülə-gülə başlamışdıq bu eşqi
Axırında göz yaşıymış, kədərmiş.
Məhəbbətin payız fəsli var imiş,
Bu sevginin ömrü bura qədərmiş.

Ayrılıq xatirələr içində,
Bu ayrılıq ölümdən də betərmiş,
Təsəllimiz bu olacaq, sevgilim,
Bu sevginin ömrü bura qədərmiş.

*Noyabr, 1997*

## SAĞ ƏLİNİZ SEVƏNLƏRİN BAŞINA...

Cilçıraqla bəzənibdi toyunuz,
Nur çilənib torpağına, daşına.
Bir quyudan alınıbdı suyunuz,
Sağ əliniz sevənlərin başına,
Qədir-qiymət bilənlərin başına.

Darıxmayın, xanım ana, bəy ata.
Sağ ətiniz anaların başına,
Sağ əliniz ataların başına.

Nur tökülür xala, bibi üzündən,
Alov yağır əmi, dayı gözundən,
Sevincindən bacı gedib özündən,

Sağ əliniz bacıların başına,
Neçə-neçə dostun, yarın başına.

Gör bu toyda neçə əmi, dayı var,
Bu düyündə hər qohumun payı var,
Hələ neçə qardaş, bacı toyu var
Sağ əliniz qardaşların başına,
Sağ əliniz sirdaşların başına...

*Noyabr, 1995*

**SAXLAYIN GEDƏN QATARI**

Bu qatar vüsaldan həsrətə gedir,
Vətən ürəyimdən qürbətə gedir,
Deyəsən ayrı bir qismətə gedir,
Nə olar, saxlayın gedən qatarı.

Gülüşü aparır, göz yaşım qalır,
Ürəyim boşalır, gözlərim dolur,
Bu qatar ayrılıq havası çalır,
Nə olar, saxlayın gedən qatarı.

Zamanı doğrayıb biçir bu qatar,
Sevgimin üstündən keçir bu qatar,
Mənim göz yaşımı içir bu qatar,
Nə olar, saxlayın gedən qatarı.

Yüyürsəm, çağırsam çata bilmərəm,
Qəlbimdən qoparıb ata bilmərəm.
Getdimi, bir daha tuta bilmərəm,
Nə olar, saxlayın gedən qatari.

Meninı baharımı aparıb gedir,
Əlini əlimdən qoparıb gedir.
Qoymayın yarımı aparıb gedir,
Nə olar, saxlayın gedən qatarı.

*Mart, 1996*

## OLACAQ

Külək dağdan nə aparar?
Nə olsa çənə olacaq.
Sən könlümü sevindirsən
Nə olsa, qəmə olacaq.

Bahar kimi gülü sevən,
Sevgi dolu ili sevən,
Mənım kımı dəlı sevən,
Çox olub, yenə olacaq.

Çıx qarşıma, yolumda ol,
Hər günümdə, anımda ol,
Can verəndə yanımda ol,
Son sözüm sənə olacaq.

İnadım yolumu kəsdi,
İnaddırsa, inad bəsdi!
Bu dünyanın işi tərsdi,
Belədi, belə olacaq.

Dünya bizə qalan deyil,
Ötən illər solan deyil,
Sənə bir şey olan deyil
Nə olsa, mənə olacaq.

*Yanvar, 1996*

## BAĞLAYA BİLSƏN

De kim saxlayacaq məni bu yoldan?
Bağla yollarımı, bağlaya bilsən.
Əl açıb məhəbbət dilənmədim ki,
Bağla qollarımı, bağlaya bilsən.

Bu sevgi köhnədir, bu ülfət yeni,
Bal bilir sən verən qüssəni, qəmi.
Öldürsən, ruhum da sevəcək səni
Bağla dillərimi bağlaya bilsən.

Dənizəm, dalğama bərən düşübdü,
Saçların kəmənddir, görən, düşübdü,
Güllərim bağçamda pəran düşübdü,
Bağla güllərimi, bağlaya bilsən.

Gün gələr, inadım hey yorar səni,
Həsrət mənim kimi soldurar səni,
Kor olsam əllərim axtarar səni
Bağla əllərimi, bağlaya bilson.

Sevgisiz bir ürək, evsiz yetimdi.
Sənsiz yaşamağım, mənə çətindi,
Bu dünya əvvəldən ölüm-itimdi,
Ağlayarsan mənə, ağlaya bilsən.

**MƏN OLMADIM Kİ**

Ömrümün gül açan baharı gəldi,
Pərişan sən oldun, mən olmadım ki,
İllərin əlçatmaz həsrət oduna
Alışan sən oldun, mən olmadım ki.

Dünyanı dolaşan izim qayıtdı,
Gəldin, ürəyimə yazım qayıtdı.
Özün küsüb getdin, özün qayıtdın,
Barışan sən oldun, mən olmadım ki.

Heç bilmırəm nə deyim bu gəlişə.
Yad olmuşdum hər sevincə, gülüşə,
Bu sevgini dastan edib həmişə
Danışan sən oldun, mən olmadım ki.

Gülə-gülə yola saldım illəri,
Sənsiz açmaz baharımın gülləri,
Nüsrət deyib gecə-gündüz çölləri,
Dolaşan sən oldun, mən olmadım ki.

*Dekabr, 1999*

## ƏLVİDA DEMİRƏM, GÖRÜŞƏCƏYİK...

Endi gözümüzə həsrətin çəni.
Hicran yaman yerdə haqladı məni,
Bu kədər yağışlı ayrılıq günü
Əlvida demirəm, görüşəcəyik...

İndi ağlayırıq biz için-için,
Sonu gələcəkmi bu qəmli köçün?
Hələlik deyirəm, təsəlli üçün
Əlvida demirəm, görüşəcəyik.

Bu qəmin əlində sola bilmərik,
Bir başqa sevgidə yana bilmərik,
Mən sənsiz, sən mənsiz qala bilmərik,
Əlvida demirəm, görüşəcəyik.

Gəldi bu ayrılıq dərd, qada kimi,
Batdıq qəm gölündə bir ada kimi,
Sən bir nəğmə kimi, sən səda kimi,
Əlvida demirəm, görüşəcəyik.

Qalandım məhəbbət ocağına mən,
Nə deyim sevginin bu çağına mən?
Bu inad həsrətin acığına mən
Əlvida demirəm, görüşəcəyik.

*İyun, 1999*

## İNANMIR

Bir güldür ki, bülbülləri susdurub,
Çox aşiqin qol-qanadın kəsdirib.
Bu gözəli sevgidən kim küsdürüb?
Elə küsüb, məhəbbətə inanmır.

Bağın yanıb, bu oda köz deyiblər,
Dərd veriblər, hər dərdə döz deyiblər.
Qulağına o qədər söz deyiblər,
Hər nağıla, söz-söhbətə inanmır.

Kim uçurub onun könül taxtını,
Payız bilir ömrün bahar vaxtını?
Bəxtsiz deyib, hey qınayır bəxtini,
Məhəbbətdə sədaqətə inanmır.

Yollarında çox sevənlər sürünür,
Onu sevən dərdə-qəmə bürünür.
Gözlərinə dünya yalan görünür,
Tanrı verən bir qismətə inanmır.

*Mart, 1999*

**SƏBR VER, ALLAHIM...**

Gördüm vəfasızı, danışmadım mən,
Bu bir fürsət idi görüşmədim mən,
Onsuz yaşamağa alışmadım mən,
Səbr ver, Allahım, səbr ver mənə.

Elə bil düyündü, çözümü yoxdur,
Dadsız günlərimin düzümü yoxdur?
Daha bundan artıq dözümüm yoxdur,
Səbr ver, Allahım, səbr ver mənə.

İmdad istəyirəm, əl açdım göyə,
Demədim başıma göylər daş tökə,
Bu eşqi bir ömür yaşadım deyə
Səbr ver, Allahım, səbr ver mənə.

Ozüm də bilmirəm kiməm, nəyəm mən,
Çəkilməz həsrəti kimə deyim mən,
Ondan başqasını bəyənmədim mən
Səbr ver, Allahım, səbr ver mənə.

Ayrılıq ölümdür - sazaq sayılmaz,
Hər fəryada qulaq asaq, sayılmaz
Ümid istəyirəm - yasaq sayılmaz,
Səbr ver, Allahım, səbr ver mənə...

*Yanvar, 1999*

* * *

Yazımı görübsən, qışımı görmə,
Gözlərimlə üşüdərəm mən səni,
Gültək əsməyinə ürəyim dözməz,
Nəfəsimlə isidərəm mən səni.

Girmə bu dəryaya, gəmin batacaq,
Qəmlərim içində qəmin batacaq,
Pıçılda adını, səsin çatacaq,
Ürəyimlə eşidərəm mən səni.

Dərdin neçə üzü varsa bilirəm,
Kədərimin acığına gülürəm,
EIə bilmə mən dərdindən ölürəm,
Min bir dərdə tuş edərəm mən səni.

Dosta ocaq, düşmənimə ayazam,
Sözüm bitməz, hə söyləyəm, ha yazam.
Mən elə bir qasırğalı payızam,
Baharını qış edərəm mən sənin.

*Dekabr, 1998*

## MƏHƏBBƏT DEMİRƏM

Bir tənə var baxışında, sözündə,
Təbəssümün yenə küsüb üzündə,
Ağlamaqdan yaş qalmayıb gözündə,
Göz yaşına mən məhəbbət demirəm.

Məhəbbəti ömür kimi itirdik,
Gül yerində tikan kolu bitirdik.
Bir fürsəti ikimiz də otürdük,
Dönüşüne mən məhəbbət demirəm.

O baharın çiçəkləri xəzəldi,
Küskün qəlbin qəm yoluna düzəldi,
Öyünmə ki, qaşın, gözün gözəldi,
Göz-qaşma mən məhəbbət demirəm.

Yerə düşdün bir inadın sözütək,
Ayrılırıq elə biz də yüzütək,
Belə məsum görkəminlə, quzutək
Savaşına mən məhəbbət demirəm.

Ölü eşqin ehsanını sevmirəm,
Nəzir kimi vüsalını sevmirəm,
Məhəbbətin leysanını sevirəm,
Yavaşına mən məhəbbət demirəm.

Bu məhəbbət həmdəmidir təklərin,
Ürəyimdən həyat alır kökləri,
Hər qovuşan mənfi, müsbət yüklərin,
Təmasına mən məhəbbət demirəm.

*Noyabr, 1998*

**AĞLA GÖZLƏRİM**

Bu dərdin qoynuna özün atıldım,
Bəs niyə günəştək birdən tutuldun?
Sən gördün, sən sevdin, sən aldadıldın,
İndi peşimansan, ağla, gözlərim.

Fəryadım hər sözə kiriyən deyil,
Qəlbimdə yurd salıb, yeriyən deyil,
Kədərim gülüşlə əriyən deyil,
Ümidsiz gümansan, ağla, gözlərim.

Hərdən bulud kimi boşaldın, doldun,
Qəmli baxışınla yollarda qaldın,
Sevdin, sevdiyinə peşiman oldun,
İndi ah-amansan, ağla, gözlərim.

Axıb gilə-gilə durulacaqsan,
Yollara baxmadan yorulacaqsan.
Ağlaya-ağlaya kor olacaqsan,
Qara bir dumansan, ağla, gözlərim.

*Sentyabr, 1998*

**MƏNİM GÖZ YAŞIMI GÖRMƏYƏCƏKSƏN**

Bu eşqin yasını saxlayacağam,
Sən gedən yollara baxmayacağam,
Ağlasam gizlicə ağlayacağam.
Mənim göz yaşımı görməyəcəksən.

Tale oyunlara atacaq səni,
Fəryadın göylərə çatacaq sənin.
Günahın gözünü tutacaq sənin,
Mənim göz yaşımı görməyəcəksən.

O gülən şəklinə baxıb ağlasam,
Gözümə bir eynək taxıb ağlasam.
Üzümü ovcuma sıxıb ağlasam
Mənim göz yaşımı görməyəcəksən.

Sən elə bilimə ki, qəmdən uzaqsan,
Bir yağış altında sönən ocaqsan,
Üzümə baxmağa utanacaqsan,
Mənim göz yaşımı görməyəcəksən.

*İyul, 1998*

**BƏLKƏ BU TƏSADÜF...**

Bizi görüşdürüb nigaran yollar,
Yollar ürək kimi boşalar, dolar.
Allahın işini nə bilmək olar,
Bəlkə bu təsadüf məhəbbət oldu.

Bəlkə tanrı payım, könül ruzumsan,
Bəlkə də tanrıya çatan sözümsən.
Bəlkə də sən mənim alın yazımsan.
Bəlkə bu təsadüf məhəbbət oldu.

Yaranan ülfəti sən kəsmə hələ,
Tale qismətindən sən küsmə hələ.
Əlvida deməyə tələsmə hələ,
Bəlkə bu təsadüf məhəbbət oldu.

Ürəyim az qalır sinəmdə uça,
Həmdəm aramışam ömür boyunca.
Qoy bir də üzünə baxım doyunca,
Bəlkə bu təsadüf məhəbbət oldu.

Ötəri tanışlıq bir adət deyil,
Elə hər sevgi də səadət deyil,
Bilirəm hər görüş məbəbbət deyil,
Bəlkə bu təsadüf məhəbbət oldu.

*İyun, 1998*

**UNUDA BİLMƏYƏCƏKSƏN...**

Sənsiz elə bilmə öləcəyəm mən,
Qara bir kədərə dönəcəyəm mən,
Gecələr yuxuna gələcəyəm mən,
Sən məni unuda bilməyəcəksən.

Ömründə narahat izim qalacaq,
Alovum sönsə də, közüm qalacaq,
Arxanca həmişə gözüm qalacaq,
Sən məni unuda bilməyəcəksən.

Sən elə bilmə ki, qəmdən uzaqsan,
Ömrünü, gününü uduzacaqsan,
Özünü bəlkə də unudacaqsan,
Sən məni unuda bilməyəcəksən.

Məni unutmağa inadın kimi,
İlk sevgi ağrısı, fəryadm kimi,
Lap öz adın kımi, soyadın kimi.
Sən məni unuda bilməyəcəksən.

*May, 1998*

**BURAX GÖZLƏRİNİN HƏBSİNDƏN MƏNİ...**

Çəkir varlığımı dara gözlərin,
Aparır ruhumu hara gözlərin?
Qara bir məhbəsdir qara gözlərin,
Burax gözlərinin həbsindən məni.

Yandırıb-yaxmaqda od qüdrəti var,
Təkcə mən blirəm nə hiddəti var,
Axı, cəzanın da bir müddəti var,
Burax gözlərinin həbsindən məni,

Qaldım cazibəndə, bihuş kimiyəm,
Mərhəmət gözləyən baxış kimiyəm,
Qəfəsə salınmış bir quş kimiyəm,
Burax gözlərinin həbsindən məni.

Günüm elə səndən şikayət olub,
Bu sevgi bir dastan, hekayət olub,
Məhəbbət nə vaxtdan cinayət olub,
Burax gözlərinin həbsindən məni.

Zindana könüllü saldım özümü,
Eybi yox, payıza döndər yazımı,
Mən günah işlədim artır cəzamı,
Saxla gözlərinin həbsində məni.

*Yanvar, 1997*

**YUXUMA GƏLƏN GÖZƏL...**

Yuxuma gələn gözəl,
Mələkmisən, ya nəsən?
Nə olar, bircə dəfə
Həyatda rast gələsən.

Bu gecə kədərliydin,
Gözün dolmurdu sənin.
Oyandım, yastığımda
Telin qalmışdı sənin.

Həqiqətsən, bilmirəm,
Ya doğrudan yuxusan?
Bəlkə ölən sevgimin
Sən narahat olmusan?!

Uçuraq goy uzundə
Saçına ulduz yağır.
Bir də baxıb görürük
Üfüqdə günaş doğur.

Əllərimiz üzülür,
Uçub gözdən itirsən.
Mən səhərdə qalıram,
Sən gecəylə gedirsən...

Yuxuma gələn gözəl,
Yuxum çin olacaqmı?
Çıxacaqsan qarşıma
-Elə gün olacaqmı?

Dünyan başqa dünyamı?
İnadım səni tapar.
Ya mənimlə qal, ya da
Məni özünlə apar,
-Yuxuma gələn gözəl!..

*Dekabr, 1995*

**BAĞIŞLA...**

Bir sözümlə ürəyinə toxundum,
Yalvardığım, sözlərimə bağışla,
İstəyirsən gəl dilimdən as, ancaq,
Səni sevən gözlərimə bağışla.

Hara getsə, sizə tərəf yol alan,
Yalnız sənin atəşinə qalanan,
Evinizə pərvanətək dolanan
Naxış-naxış izlərimə bağışla.

Özün yazdın ürəyimə adını,
Sən göstərdin məhəbbətin dadını,
İncikliyin atəşini, odunu
Külə dönmüş gözlərimə bağışla...

*Noyabr, 1995*

**BAŞIMIN BƏLASI...**

Daşı, divarı soyuq,
Bir həsrət qalasısan.
Sən sevglim deyilsən,
Başımın bəlasısan...

Sən məhəbbət oğrusu,
Bir çapqınsan doğrusu.
Ürəyimin ağrısı,
Başımın bəlasısan.

Hər sözdən küsənimsən,
Ülfəti kəsənimsən.
Sevincimə qənimsən,
Başımın bəlasısan.

Naçar sevgimə qənim.
Çağır yanına gəlim.
Sevgimsən, yoxsa mənim
Başımın bəlasısan?

İçimdə min dərdim var,
Dərdimin əlasısan.
Sevib könül verdiyim
Başımın bəlasısan.

Sən belə yaranmısan,
Belə də qalasısan.
Taleyimə yazılmiş
Başımın bəlasısan...

**QADASIN ALDIĞIM...**

Çöl mənimdi, çiçək sənin,
Gül sənindi, ləçək mənim,
Əl mənimdi, ətək sənin,
Kəsmə, qadasın aldığım.

Səndən sonra yoxdu yolum,
Sən oldun qanadım, qolum,
Öldür məni, qurban olum,
Küsmə, qadasın aldığım.

Batır məni ümman kimi,
İtir məni duman kimi,
Başımda bir tufan kimi
Əsmə, qadasın aldığım.

Yolları yorub gələrəm,
Tilsimi qırıb gələrəm,
Qəbrdən durub gələrəm,
Səslə, qadasın aldığım.

Bir dərya ol gəmim üçün,
Bir əlac ol qəmim üçün,
Sən özünü mənim üçün
Bəslə, qadasın aldığım...

## SƏNƏ GÜVƏNDİYİM DAĞLAR...

Əsən hicran küləyi
Sevgimizi aparmış.
Elə baxma üzümə
Sən gözləri yaşarmış.
Dolan dəniz bir damla
Göz yaşıyla daşarmış,
Sənə güvəndiyim dağlar,
Sənə də qar yağarmış.

Zaman elə tələsdi.
Geriyə yolun yoxdur.
Sən ki, bir ocaq idin,
İndi qəlbin soyuqdur.
Üzündə həsrət izi,
Saçların da ağarmış,
Sənə güvəndiyim dağlar,
Sənə də qar yağarmış.

Günlərin rəngi solub,
Axı, nələr solmayıb?
Kimə güvənim indi,
Güvənc yerim qalmayıb.
Məni gözdən qoymayan,
İndi gendən baxarmış.
Sənə güvəndiyim dağlar,
Sənə də qar yağarmış...

## ÖZÜMÜ ALDADIRAM...

Gözlədim illərlə mən,
Dözümü aldadıram.
Bu kağız güllərlə mən
Gözümü aldadıram.

Gizlədib göz yaşımı,
Gülərüzlü görünüb

Üzümü aldadıram.
Dərd əlindən içirəm
Görənlər hardan bilsin
Özümü aldadıram...

Qəlbimdə bir şaxta var,
Nə varsa, günahda var,
Baharımda boran, qar,
Yazımı aldadıram.

Ömür yolları çəndi,
Saçıma düşən dəndi,
Günümün çoxu qəmdi,
Azımı aldadıram...

Sevgi himərdən keçir,
Hər xeyir şərdən keçir.
Dərd olan yerdən keçir
İzimi aldadıram.

**QAYIT**

Sən getdin ömrümdən ilk bahar kimi.
Çiçəklər çəmənə çıxanda qayıt!
Həsrətin leysanı tükənməz daha,
Buludlar gözünü sıxanda qayıt,

Bir sevgi görmədim qəmsiz, cəfasız,
Hicranın ağırdı, dərdin dəvasız,
Bilmədin qədrimi, sən ay vəfasiz,
Həsrətin sonuma çıxanda qayıt!

Boylandım arxanca mən sözlü-sözlü,
Gah aşkar ağladım, gah da ki gizli,
Yerini boş görüb, bir mələküzlü
Sevgiylə üzümə baxanda qayıt!

Uyma, hər nadannın sözünə, uyma,
Apar ürəyimi kəs qıyma-qıyma.

Məni yurdsuz qoyma, yuvasız qoyma,
Ayrılıq evimi yıxanda qayıt.

Adım ki, adınla qoşadır sənin,
Bilməzdim ürəyin daşdandır sənin,
Hələ ki, ümidlər yaşadır məni,
Tənhalıq qəlbimi sıxanda qayıt.

*İyun, 1999*

## OLMAYACAQDIR

Adımı qəlbindən ata bilərsən,
Uzaq arzulara çata bilərsən,
Məndən gözəlini tapa bilərsən,
Mənim tək sevənin olmayacaqdır.

Ömrünə bir sevgi gələr, bilirəm,
Səninlə ağlayıb gülər, bilərəm,
Kimsə sevincini bölər, bilirəm
Dərdindən ölənin olmayacaqdır.

Bir gün sönəcəkdir, bu od, bu ocaq,
Kədər yuvasıdır boş qalan qucaq,
Dizinə baş qoyub yatan olacaq,
Başına dönənin olmayacaqdır.

Sevgi əzabından uzaqsan hələ,
Bir gün əriyərsən sən gilə-gilə,
Yanağımdan öpən tapılsa belə,
Göz yaşı silənin olmayacaqdır.

*İyul, 1999*

## APARA BİLMƏYƏCƏKSƏN

Gedişin gətirdi qəmi, qüssəni,
Qəlbim sevə bilməz daha kimsəni,
Hər gecə röyamda görürəm səni,
Yuxumu apara bilməyəcəksən.

Getdiyin yollara həsrətlə baxdım,
Dəniztək kükrəyib, çay kimi axdım,
Mənimlə qalacaq bu qara bəxtim,
Bəxtimi apara bilməyəcəksən.

Günahın qarşma çıxacaq sənin,
Tənhalıq qəlbini sıxacaq sənin,
Ahım yandıracaq yaxacaq səni,
Ahımı apara bilməyəcəksən.

Gözümün yaşını silsəm də belə,
Sənsiz dərdli-dərdli gülsəm də belə,
Mən sənin dərdindən ölsəm də belə
Ruhumu apara bilməyəcəksən...

**BİR MƏKTUB YAZACAĞAM...**

Bir məktub yazacağam sənə,
Sevgidən başqa hər şeydən;
yerdən, göydən, güldən, çiçəkdən,
Bir də sinəmin altında
yaralı quş kimi çırpınan, sındıqca sınan,
arzularına qısılan yetim bir ürəkdən.
Bir məktub yazacağam sənə,
Sevgidən başqa hər şeydən;
Yazacağam qaranquşların
yuva tikməyindən,
Yetim bir uşağın
bir parça çörək üçün gəlib-gedənə
boyun bükməyindən,
Hind filmlərinə baxıb
ağlayan cavanlardan,
Soyuq qış gecəsində tənhalıqdan
aya üz tutub ulayan yalquzaqdan.

Anasını axtaran
quzunun mələrtisindən,
Ufacıq bir çırağın
bir otağı qızdıran
alov ləçəkli hənirtisindən,
Bir məktub yazacağam sənə.
Sevgidan başqa hər şeydən.
Bir xəstənin həkimə
ümidlə baxan
gözlərindən yazacağam.
Gəlinciklə bəzənmiş
maşınların sırasından,
Yuvalarında yem gözləyən balaların,
dimdiyinin sarısından.
Getdikcə soyuyan havadan,
Adəmdən, Həvvadan,
Necə olur tənha adam...
Bax, bunlardan yazacağam,
Birdə yerdən, göydən,
Çoban dodaqlarını
yandıran neydən,
-Bir məktub yazacağam sənə,
Sevgidən başqa hər şeydən.
Bəlkə də bunu vəsiyyətim,
son sözüm biləcəksən,
Bir məktub yazacağam sənə,
hər şeyi özün biləcəksən...

*Noyabr, 1995*

## UNUT KƏDƏRİNİ...

Nədir gözlərində bu qəmli sual,
Unut kədərini, qəmini unut,
Hələ ki ömründə mən varam sənin,
Unut kədərini, qəmini unut.

Bu da bir zamandı gəlib gedəcək,
Sevincin kədərə gülüb gedəcək,
Bu qəmli günlərin ölüb gedəcək,
Unut kədərini, qəmini unut.

Elə bil dağsan ki, vüqar yaraşır,
Söylə, taleyində kimlər dolaşır?
Sən elə işıqsan görənlər çaşır,
Unut kədərini, qəmini unut.

Dağlardan gəlmişik çəni unutma,
O şirin çağları, dəmi unutma.
Qurban gözlərinə, məni unutma,
Unut kədərini, qəmini unut.

*May, 1998*

**UTANIRAM...**

Uzunə günəş dedım,
Günəşdən utanıram.
Nəfəsinə meh dedim,
Küləkdən utanıram.

Utanıram özümdən,
Yalvardığım sözümdən.
Ümidimdən, arzumdan.
Diləkdən utanıram.

Dünyada təksən, dedin,
Mənə gərəksən, dedim.
Sənə mələksən, dedim,
Mələkdən utanıram.

Qönçə ikən üzdüyüm,
Saçlarına düzdüyüm,
Çəmənlərə nə deyim,
Çiçəkdən utanıram.

*May, 1998*

**YASƏMƏN**

Sənə deyim dərdimi gül ağacı,
Kimiyə gül, kimiyə əl ağacı,
Sevənlərə eyhamlı dil ağacı,
Deyəcəkdim o gözələ nəsə mən,
Küsüb getdi, eşitmədi, yasəmən.

Dayansaydı, əllərim gül açardı,
Gül dediyin məhəbbətə açardı,
İstəsəydi qanad açıb uçardım,
Qoşulardım işığa mən, səsə mən,
İstəmədi, istəmədi, yasəmən.

Sevincimi gözlərində apardı,
Gözlərimi izlərində apardı,
İzlərimi yollarından qopardı,
Yüyürürəm qəmə sarı kəsə mən,
O qız bilmir, barı sən bil, yasəmən.

O gözələ verəcəkdim səni mən,
Əllərində görəcəkdim səni mən,
Saçlarına hörəcəkdim səni mən,
Sən solduqca batmırammı yasa mən,
Bəlkə gəldi, hələ salma, yasəmən!

Bir yaz günü ləçək-ləçək açıldın,
Kədər mənim, sevinc sənin bacındı.
Dərdim səni, əllərimdə uçundun;
Niyə girdim sevənlərlə bəhsə mən?
Bu suçumu sən bağışla, yasəmən.

Sən açıldın mənim üçün yaz deyil,
-------------------------------------
Məndən çiçək gözləyənlər az deyil,
Gül vermərəm daha heç bir kəsə mən,
Sən çiçək aç, dərəcəklər, yasəmən...

**KAŞ Kİ...**

Nələr, nələr yada düşdü,
Xatİrələr oda düşdü,
O günlərdən qəlbimizə
Qorxulu bir səda düşdü,
Görməyəydim kaş ki, səni.

Bahar gəldi qış evinə,
Bu köçəri quş evinə.
O vaxt naşı bənna kimi
Yaddaşımın daş evinə
Hörməyəydim kaş ki, səni.

Külə dönmüş od-ocaqsan,
Bəlkə belə qalacaqsan.
Onda uşaq deyildim ki,
Bilirdim ki, solacaqsan.
Dərməyəydim kaş ki, səni.

Hicran gəldi sinə-sinə,
Günlər ötdü sənə-sənə,
Bir güldanda saxlayaydım,
Öz əlimlə özgəsinə
Verməyəydim kaş ki, səni...

**EHTİYATI OL!**

Məndən belə asan ayrılıb getmə,
Bir gün sıxılarsan, ehtiyatli ol,
Neçə göz dikilib qədəmlərinə
Gözlə, yıxılarsan, ehtiyatlı ol.

Acı doğru xoşdur şirin yalandan,
Büdrəmə, yapışmaz kimsə qolundan,
Bir gün mən verdiyim soyuq salamdan
Alışıb yanarsan, ehtiyatlı ol.

Demirəm hər şirin mahnıya uyu,
Hələ qarşıdadır ömür-gün toyu,
Gözlə, bir səhvini sən ömür boyu
"Yadigar" saxlarsan, ehtiyatlı ol.

Sızladar qəlbini mənim həsrətim,
Deyərsən hicranmı oldu qismətim?
Qayıdıb gələrsən:
- Barış, Nüsrətim,
Barışmaz, sınarsan, ehtiyatlı ol.

*Oktyabr, 1969*

**BİLİRƏM, ÇƏTİNDİR...**

Nimdaş təsəllidir indi nə desən,
Uzaq xatirəyə çatmayır əlin.
Tütünə bükülmüş kağız kimisən
Yanırsan,
tüstün də acıdır sənin.

Qayğısız günlərdən sənə nə qaldı?
Yaxşını yamandan indi ayır sən.
Sənin yaşıdların uşaqlı oldu,
Hələ də özünü uşaq sayırsan...

Elə bağladın kı könlünü o vaxt,
İndi pas tutubdur,
aça bilmirsən.
Uçulub gözəllik dediyin o taxt,
İllərin əlindən qaça bilmirsən.
Səni gör bir hara aparır illər,
Geriyə qayıtmaq ümidsiz yoldu,
Yaxın sirdaşların uçub getdilər,
Kiçik bacıların rəfiqən oldu...

Anan baxa bilmir evə-eşiyə,
Yığılı qalıbdır cehizin sənin.
Əhdinə vəfalı olmadın, niyə?
Barı bir ürəkdə olaydı yerin.

Daha kəsilibdir o vaxtkı zənglər,
Bükülü xalçanı güvələr yeyir,
Büllur stəkanlar,
Büllur qədəhlər
Kişi dodağına dəymək istəyir.
Nə sevgilin yoxdu
gözləyə səni,
Nə də məktub yazan,
sən gözləyəsən.
Sevdalı günlərin qayıtmır geri,
Sıxıb ürəyinə əzizləyəsən.
Ömrü yelə verib
Bu yaşda, sində
Yalan xəyallara dalmaq çətindir.
Köhnəlmiş,
qat kəsmiş cehiz içində
Əlləri qoynunda qalmaq çətindir...

*Avgust, 1976*

## DÜŞSƏ NEYLƏYİM

Daha geri qayıtmağa güman yox,
Yollanma dağlar düşsə neyləyim.
Gülə-gülə üz çevirən ayrılıq
Ayağıma ağlar düşsə neyləyim.

Bu sevgi də bir söz oldu adıma,
Özüni yandım öz eşqimin oduna,
Ayrılırıq, heç bilmirəm yadıma
O sevimli çağlar düşsə neyləyim.

Mən çataram o mənzilə dözümlə,
Əvvəlkitək alovumla, gözümlə,
Bu möhnəti apararam özümlə,
Körpü sınsa, çarxlar düşsə neyləyim.

Çarə yoxdu vaxtlı gələn ölümə,
Könül dönüb, gücüm çatmaz könülə,
İllər ötər, görüşəndə əlimə
Uralanmış tağlar düşsə neyləyim?

## GÖRÜRDÜM BU GÜNÜ

...Bu da sonuncu gün, sonuncu vida,
Bu da ayrılığm sonuncu tini.
Quzum, hər görüşün son ucu vida,
Görürdüm bu günü,
Səninlə görüşün birinci günü...

Yolun uğur olsun, - deyirəm sənə;
Qarşıda ömür-gün sınağı durur.
Nə deyim, bəlkə də yolunda yenə
Mənimtək bir sevda qonağı durur.

Gedirsən,
bu günü saxla yadında,
Yaddaşın mən verən dərsi pozmasın.
Gəl elə alış ki,
sənin odunda
Ötəri qonaqlar qoy qızınmasın.
Qarşımda nə çəpər, nə də ki, barı...
Mənim də ömrümə beləcə gəldin,
Qəlbində bir çınqı od saxla barı,
Bəlkə bir çırağı yandıra bildin.
Əyil!..
Məhəbbətin önündə əyil,
Bəlkə bu dünyandan qopara səni.
Taleyin estafet ağacı deyil
Hərə bir mənzilə apara səni...

Bir gün də sərbəstlik taxtı devrilib
Ömrünə gəlinlik illəri gələr.
Dünənin bir namərd dosta çevrilib
Sabah kəndirini doğraya bilər.

Bu da sonuncu gün, sonuncu vida,
Bu da ayrılığın sonuncu tini.
Quzum, hər görüşün son ucu vida,
Görürdüm bu günü,
Səninlə görüşün birinci günü...

**ÖZÜN YIXILIBSAN...**

Amandır, qəlbini belə sıxma, gəl,
Bir körpü salmışam,
sınmaz, qorxma, gəl,
Sən Allah, üzümə elə baxma gəl,
Özün yıxılıbsan, dur, alagözlüm.

Uşaq deyildin ki, yaşı söyəsən,
Naşı günlərini, naşı söyəsən,
Daşa dəymədin ki, daşı söyəsən,
Özün yıxılıbsan, dur, alagözlüm.

De, kimlər tərpətdi səni yerindən,
Bundan sonrasını düşün dərindən,
Qəlbimin əlçatmaz zirvələrindən
Özün yıxılıbsan, dur, alagozlüm...

Taleyin qədərlə görüşdü sənin,
Gördüyün yuxular qarışdı sənin.
Ayağın düz yerdə sürüşdü sənin,
Özün yıxılıbsan, dur, alagözlüm...

Başında tufantək mən əsməmişəm,
Uzaq yol gəlmişəm, tələsməmişəm,
Sənın kəndirini mən kəsməmişəm,
Özün yıxılıbsan, dur, alagözlüm...

Gör nələr boylanır gələcəyindən,
Qorx yadların sənə güləcəyindən,
Taleyin çürümüş yelləncəyindən
Özün yıxılıbsan, dur, alagözlüm.

------------------------------------
Gözlədiyin sevinc gələcək hardan,
San bir sim kimi qırıldın tardan,
Səadətə tərəf gedən qatardan

Özün yıxılıbsan, dur, alagözlüm...
Külək sovuran kül gozü örtmür ki,
Yanından saymazca yüzü ötür ki,
Özün yıxılıbsan, dur, alagozlüm.

Quruyan bulaqlar çağlamaz, axı.
Buludlar yağışı saxlamaz, axı,
Özü yıxılanlar ağlamaz, axı,
Özün yıxılıbsan, dur, alagözlüm...

**GÜLƏ-GÜLƏ AĞLAYAN GÖZƏL...**

Ömründən kim keçdi belə,
Gülünü kim biçdi belə,
Doldurub qəm badəsinə,
Acı-acı göz yaşını
Kef üçün kim içdi belə,
-Gülə-gülə ağlayan gözəl?

Hər çeşiddə qəm bilirsən,
Qəmin neçə üzü varsa,
Hamısını son bilirsən.
Sevincinəmi ağlayıb,
Kədərinəmi gülürsən
Gülə-gülə ağlayan gözəl?

Ötən günlər geri dönməz,
Nə harayla, nə də çağır.

Gülüşün qu tükü kimi,
Kədərin dağlardan ağır.
Güləmi şeh düşüb, yoxsa
Gün çıxıb, yağışmı yağır,
Gülə-gülə ağlayan gözəl?

Qəmlər əyən qışın altda
Mavi-mavi dəniz ağlar,
Axı, nə gördün həyatda
Sevincində kədər çağlar;
Gülüşü sevən tapılar,
Kədərə kim könül bağlar?

Gülə-gülə ağlayan gözəl...
Ürəyini alma kimi
Budaqdan dərib, yedilər.
Ümidini süfrə kimi
Kölgənə sərib yedilər,
Nə "salamat qal" dedilər,
Nə "biznən gedək" dedilər,
Gülə-gülə ağlayan gözəl...

**MƏNDƏN BAŞQA**

Üzü bəri baxan dağlar,
Nəyin qaldı çəndən başqa?
Bir sevgi var ürəyimdə
Bilən yoxdu məndən başqa.

Məhəbbətin yurd yerində,
Bir həsrət var, lap dərində,
Bu sevginin əllərində
Nə qaldı ki, qəmdən başqa?

Bir demişəm, yenə deyim,
El sözünü elə deyim,
Qoy dərdimi senə deyim
Kimim var ki, səndən başqa?

Yana-yana söndü odum,
Dildən-dilə düşdü adım,
Yox, sən məni tanımadın,
Zilim də var, bəmdən başqa.

Bir uğurlu çağ görmədim,
Dağım kimi dağ görmədim,
Qara gördüm, ağ görmədim
Saçımdakı dəndən başqa...

*Noyabr, 1995*

**ÇİYNİMDƏ BİR TELİN GƏLİB...**

Çiynimdə bir telin gəlib mənimlə,
Dolanıb boynuma, aça bilmirəm.
Bir ucu cəhənnəm, bir ucu cənnət,
Mən bu qil körpünü keçə bilmirəm.

Çiynimdə bir telin gəlib mənimlə,
Ümidsiz sevginin son ahı kimi,
Köksümə baş qoyub ağlayır, sanki
Bir qızın düzəlməz günahı kimi.

Çiynimdə bir telin gelib mənimlə,
Bu gecə telinə qısılacağam,
Götürüb atmağa əlim gəlməyir,
Görsələr telindən asılacağam.

Çiynimdə bir telin gəlib mənimlə.
Çiynimdə elə bil mələk tükü var,
Yandırsam özünü yetirəcəksən,
Tel deyil, çiynimdə simurq tükü var.

Çiynimdə bir telin gəlib mənimlə,
Öpüb oxşayıram mən sevə-sevə,
Meydan oxuyuram yoxsa ölümə,
Kəfənim boynumda gəlmişəm evə.

Çiynimdə bir telin gəlib mənimlə,
Bir yükün altında sanki çökürəm.
Bir nur mənbəyisən, hamıdan gizli
Səndən evimizə işıq çəkirəm.

Çiynimdə bir telin gəlib mənimlə,
Durnadır qatardan ayrılıbdı o,
Evimdən ülfəti kəsməyə hazır,
Qılınctək qınından sıyrılıbdı o.

Çiynimdə bir telin gəlib mənimlə,
Səfamı, cəfamı gətirəcəkdir?
Hardansa bir qartal şığıyıb, bəlkə
Yuva qurmaq üçün götürəcəkdir.

Çiynimdə bir telin gəlib mənimlə,
Bu gecə yuxuma olacaq qənim.
Bu gecə bir telin gəlib mənimlə,
Bu gecə telinə qurbanam sənin.

*İyun, 1998*

**HƏLƏ DƏ SEVİRƏM...**

Günəşsən göylərdən enməyəcəksən,
Sənsiz nə çəkirəm bilmiyəcəksən,
Bilirəm bir daha dönməyəcəksən,
Hələ də sevirəm, sevirəm səni.

Bu bahar könlümə gətirdin qəmi,
Mən oldum dəryada yelkənsiz gəmi,
Çiçəklər baharı sevdiyi kimi,
Hələ də sevirəm, sevirəm səni.

Gedişin nə yaman ağırmış, ağır,
Qulağım səsdədir, adımı çağır,
Üstümə qəm dolu yağışlar yağır,
Hələ də sevirəm, sevirərn səni.

Gözlərim yoldadır, qulağım səsdə,
Ümidim çırpınır bir daş qəfəsdə,
Baş qoyub həsrətin qolları üstə.
Hələ də sevirəm, sevirəm səni.

*Dekabr, 1997*

**MƏNDƏN QAÇMAYASAN**

Umıdımsən sən mənım,
Buludunam mən sənin,
Elə örtmüşəm səni
Şəfəqini özgəyə
Günəştək saçmayasan...

Sən ömrümə gərəksən,
Mənə susan, çörəksən,
Göydən gəlmiş mələksən,
Qanadını qırmışam,
Geriyə uçmayasan.

Başımda dağın qarı,
Gəlirəm sənə sarı.
Mənim əllərimdədir
Ürəyinin açarı,
Elə kilidləmişəm,

Sən məndən başqasına
Könlünü açmayasan.
Gəl könlümü ovundur,
Bu, könüllü ovundur,
Məhəbbətim, sevgilim,
Könüllü buxovundur
-Son məndən qaçmayasan!..

*Noyabr, 1995*

# Səsim ünvan axtarır

**PƏRİŞAN OLMASIN...**

Elə yaşa ömrünü sən,
İlin pərişan olmasın,
Hər gözələ gül göndərmə,
Gülün pərişan olmasın.

Yol gedəndə izini bil,
Yorulanda dözümü bil,
Söz deyəndə sözünü bil,
Dilin pərişan olmasın.

Bir kimsəyə yalan satma,
Satıb, dərdə-qəmə batma,
Hər ocağa əl uzatma,
Əlin pərişan olmasın.

Tez boşalma dolanda da,
Həqiqət gəz yalanda da,
Elə yan ki, yananda da
Külün pərişan olmasın.

Dərdə könül bağlayanda,
Gizli ağla, ağlayanda,
Gözündə qəm çağlayanda
Selin pərişan olmasın...

*Dekabr, 1995*

**YÜK**

Şehə duruş gətirir,
Damla yarpağa yükdür.
Torpağı becərməyən
Adam torpağa yükdür.

Sevinci kürünübsə,
Sirləri görünübsə,
Kədorə bürünübsə
Hər şey otağa yükdür.

Nura dönər daş, divar,
Bu nur zülməti qovar.
Qoşalıqda sevgi var,
-Təklik yatağa yükdür.

Yay atmaz gərilməsə,
Daş ölər hörülməsə,
Vaxtında dərilməsə,
Şamama tağa yükdür.

Zəhmətdə yoğrulmayan,
Əzabda qovrulmayan,
Barını qorumayan
Bağban da bağa yükdür.

Yaxası sökülməsə,
Şeh olub tökülməsə,
Vaxtında çəkilməsə
Duman da dağa yükdür.

Oddan, alovdan keçib,
Hərə bir tale seçib,
Gələcəyi nanəcıb
Övlad qucağa yükdür...

*Dekabr, 1995*

**YALANÇI DOSTLARIM**

İnandım sizlərə, qəlbimi verdim,
Doğru axtarırdım, min yalan gördüm,
Sizə arxalandım, çoxaldı dərdim,
Yalançı dostlarım, nə deyim sizə?

Şam kimi yandınız, pərvanə oldum,
Qıştək soyudunuz, gül kimi soldum,
Sizi dərdli görüb, divanə oldum,
Yalançı dostlarım, nə deyim sizə?

Güdaza nə qədər mərdi verdiniz,
Sevinc istəyirdim, dərdi verdiniz.
Mənə dərd çəkilniş sərgi verdiniz,
Yalançı dostlarım, nə deyim sizə?

Mələk görkəmində nadan oldunuz,
Qadan alım dedim, qadam oldunuz.
Mən elə bilirdim adam oldunuz,
Yalançı dostlarım, nə deyim sizə?

Bir meyvə vermədi bar ağacınız,
Yağdırdı üstümə qar ağacınız.
Mənimçün hazırmış dar ağacnnz,
Yalançı dostlarım, nə deyim sizə?

*İyun, 1997*

**QƏRİBƏ SEVİNC**

O gözlərdə nə qəribə sevinc var?!
O gözlərin şəfəqinə baxın bir,
Gilə-gilə yaşaracaq indicə,
Təbəssümlə sıxılacaq dodaqlar,
Gülə-gülə boşalacaq indicə...

Hələ neçə dalğa yatır dənizdə,
Asta-asta kirpiyini endirir,
Elə bil ki, günəş batır dənizdə,
Baldan şirin bir yuxudur, yox qəmi,
Bir ürəkdir, sevinc ilə vurur o.

Xəbəri yox
Çözələyib sap kimi
Saçlarını dişləriylə qırır o.

İndi hamı xoş görünür gözünə,
Nə hicran var,
Nə həsrət var, - qoruna!
Əlləriylə tor toxuyub üzünə,
Gülüşləri axıb gedib, elə bil,
Saçlar deyil,
Yosun düşüb toruna...

O gözlərdə nə qəribə sevinc var?!
Sınacaqdır buz sükutun aynası.
Yağış kimi səpiləcək bu saçlar
Səpiləcək,
küləklerlə oynasın.

Bircə anlıq dayandırsan bu yerdə,
Bircə kəlmə danışdırsan, nə deyər?
O dodaqda ən kədərli şeir də
Bir səadət nəğməsinə bənzəyər...

Çox kədərin son nəğməsi oxunub
Sevincə də ürək dözmür,
bu nə sirr?..
Bir xəbəri təbəssümlə toxuyub
Görən kimə çatdırmağa tələsir?

Yollar yatır ayağının altında,
Ela bilir evlər onun boyunca...
Fikri uçur göyün yeddi qatında
Səbəbini soruşmayın,
nə fərqi,
- Sevinirsə,
qoy sevinsin doyunca!

O gözlərdə nə qəribə sevinc var,
Gilə-gilə yaşaracaq indicə.
Təbəssümlə sıxılacaq dodaqlar
Gülə-gülə boşalacaq indicə...

*Sentyabr, 1976*

**QU QUŞUNUN NƏĞMƏSİ**

Uçan sonalara harayı çatmaz,
Ağ günü geyinib getdilər onlar.
Yarpalar tökülür,
Başlayır ayaz,
Gümüş xəncər kimi ağarır yollar,
Ölümə bənzəyir qaralan kollar.
Baharın dalınca
Son nəğməsini
oxuyan quşlardır,
Üstünü vədəsiz qar alan kollar...
Boylanar,
təssüf axar gözündən,
Arzusu buludda uçar,
qalar o.
Qorxar qar üstünə düşən izindən,
Qar üstə atılmış gül çələngitək
Titrəyə-titrəyə solar,
donar o.
Ağaclar əlini tutar üzünə,
Külək bir şirinlik qatar sözünə,
Dikəlib son dəfə qanad çalaraq
"Əlvida" söyləyər özü-özünə...
Sınar zümrüd gölün buz sükutu da,
Ləpələr bənzəyər qanadlarına,
Gözünü dumanlı bir yuxu tutar,
Başını söykəyər qanadlarına...
Yatar təbiətin sualı kimi,
Yatar qar gözəlin xəyalı kimi.

Qar yağar...
Göylərdən intizar yağar.
Ağar çöllərim, ağar.
Yuxu tutub burada,
Bir qu yatıb burada,
Ağar çöllərim, ağar.
Ağar, dərələr, ağar,
Ağar, meşələr, ağar...
Bir qu yatıb burada
Lələyi göydən yağar...

*Noyabr, 1976*

**SINIQ PƏNCƏRƏLƏR**

Bu şüşələr indi tozdu,
Bu şüşəyə bu da azdı,
Əgər açıq qalmasaydı
Hər küləkdən o sınmazdı...
Silmə,
Pəncərəni silmə,
Kəsər əllərini, gülüm,
Sınıqdır bu pəncərələr,
Bilmirsənmi əllərindən
Yanıqlıdır pəncərələr?

Bu otaqda külək gəzər,
Bu otaqdan külək bezər,
Çırpıb gedər pəncərəni,
Bu hirsə şüşəmi dözər?
Divarlardan axır indi
Bir hicranın buz nəfəsi,
Divarların yaddaşında
Çiliklənən şüşə səsi... Gəlmə,
Üşüyərsən, gəlmə,
Sınıqdır bu pəncərələr,
Elə sənin əllərinlə
Sınıbdır bu pəncərələr.

Pəncərələr taybataydır
Gözlər kimi,
Görər kimi...
İndi könlüm çilik-çilik,
Sınıq pəncərələr kimi
Kəpənəktək gözlərimə
Qonubdur bu pəncərələr,
Bu qanadla uça bilməz,
Sınıqdır bu pəncərələr...

*Dekabr, 1977*

**CƏNGİ**

Bir dəli nərədən batar qulaqlar,
Düşmən "ürəyinə xal düşər birdən.
Cəngi çalındımı...
susar bulaqlar;
Əldən qılınc düşməz, başdan dəbilqə,
Atın dırnağından nal düşər birdən...

Ağrını, qorxunu qanıyla yuyub,
Yığıb son gücünü yaralılar da,
Köhlənin yalına yatar təzədən,
Atın qamçısını kamana qoyub
Sonuncu oxunu atar təzədən...

Uzaqdanmı gəlir o nal səsləri,
Sonuncu atlı da ötüb keçdimi?
Gedən Koroğlumu,
bilmirəm, yoxsa
"Yeddi min yeddi yüz yetmiş yeddi"mi?

Bir ana fəryadı endirər göyü,
Bir ata həsrəti dindirər neyi,
Körpələr də çəkər qeyrəti burda!
Yaralı köksündən qızıl qan deyə,
Yəhərə tökülər "Heyratı" burda!..

Qılnclar, nizələr yazar daşını,
Yarımçıq ömürlər isidər yeri.
Cəngi çalındımı,
cəngi dindimi
-Qaldırıb çiynınə məzar daşını
Ölənlər təzədən qayıdar geri.

Hardasa bir qoca bayatı çalır,
Bir həsrət sədası üzür bayaqdan,
Kişnəyib düzlərə hay-haray salır
Bir at sahibini gəzir bayaqdan...
Məğrur babaların od nəfəsində
Cəngi bir nəğmədir nağıllar üçün,
Cəngi sədasında,
cəngi səsində
Mərdlik miras qalıb oğullar üçün!

**GECƏ NƏĞMƏLƏRİ**

Bəlkə ehtiyacdan doğulduğundan
Hər nəğmə köksündə bir istək yatmış?
Qorxub mağaranın lal sükutundan
İlk insan nəğməni hayan yaratmış...

Bəzən həlim olub, bəzən kəsərli,
Sanarsan bir duyan ürəkdi nəğmə,
Gündüzlər hamıya ümid, təsəlli,
Gecələr hamıdan kövrəkdi nəğmə.
Gecə nəğmələrdən od al, qar iste;
Yansan, ürəyinə axar su kimi.
Ay da bir nəğmədir...
dalğalar üstə
Bir dəniz qızının məktubu kimi.

Dənizlər düşərlər dalğa bəhsinə,
Bulaqlar danışar, bulaqlar dinər.
Gecə qayıqların avar səsinə
Balıqlar yığışar, balıqlar gələr.

...Kim idi oxudu belə intizar?
Görən məhəbbətə kim əsir olub?..
Sürünən buludlar, axan ulduzlar
Bəlkə köməyinə tələsir onun.

Siz də, ay çinarlar, muğamat olun,
Nəğməylə titrəyin, nəğməylə əsin,
Gecə ulduzlardan muğayat olun
-Qopub dənizlərə səpələnməsin!..

## TANIYA BİLMƏDİM

Tanıdım dünyanın hər üzünü mən,
Qorxaq gecəsini, gündüzünü mən,
Seçdim incisini, ilbizini mən,
Özümü tanıya bilmədim, anam.

Alnıma yazılan taleyi gordüm,
Başımda fırlanan ələyi gördüm,
Mənə bic-bic baxan kələyi gördüm,
Gözümü tanıya bilmədim, anam.

Neçə yatmışları oyatdı sözüm,
Hər kolu çinara tay tutdu sözüm,
Bəzənib üstümə qayıtdı sözüm,
Sözümü tanıya bilmədim, anam.

Yersizi saxladım gözümün üstə,
Çoxuna yer verdim dizimin üstə,
O qədər iz düşdü izimin üstə,
İzimi tanıya bilmədim, anam.

Kədərə sirdaşdı, tanışdı gözüm,
Mən susdum,
sözümü danışdı gözüm,
Minüzlü görməyə alışdı gözüm,
Üzümü tanıya bilmədim, anam!..

**DƏYƏSƏN TƏZƏDƏN...**

Mən elə bilirdim getdi soyuqlar,
Daha buludlar da qar ələməzlər.
Çəmən ilmələrin gün naxışını
Daha şaxtalar da qaralamazlar.
Sınar soyuqluğun buz güzgüləri,
Buğlana-buğlana oyanar torpaq,
Tumurcuq köynəkdən çıxaraq ürkək
Körpətək günəşə boylanar yarpaq...
Əlləri havada qalır ağaclar,
Yenə də soyuğa əsir düşürlər.
Üşüyən tənəyin göz yaşlarını
Yuxulu-yuxulu otlar içirlər.
Yenə xısın-xısın ağlayır bulud,
Elə havadaca donur bu yağış.
Peşiman baharın kirpiklərinə
Ələnir bu yağış,
Qonur bu yağış,
Günəş dağ dalından bir boy qalxmamış
Deyəsən təzədən qayıdır bu qış...

Hələ çiçəklərin gözü yuxulu,
Təbiət yenəmi yatmaq istəyir?!
Tələsib boy atan sarmaşıqlar da
Uzanıb bahara çatmaq istəyir.
Dərələr yenə də qarla doludur,
Yenə ağ kürkünü geyib yoxuşlar.
Qayıdıb öz köhnə yuvalarına
Üşüyür aldanmış köçəri quşlar.
Qorxulu-qorxulu susur meşələr,

Ayı dabanında bir şey qalmayıb.
Ağac çatdağında, Zəmi yolunda
Hələ qarışqalar sıralanmayıb,
Xəzəllə örtülən buzlu bulaq da
İtkin quzu kimi mələr qalıbdır,
Bulaq yaddaşında, zəmi yolunda
Gör ötən bahardan nələr qalıbdır...
Tapdanmaq istəyir cığırlar, izlər,
Yaşıllıq istəyir dərələr, düzlər...
Bu soyuq, bu sazaq tanışdır, tanış
Deyəsən təzədən qayıdır bu qış.

Küknarlar əvvəlki sükutundadır,
İynəyarpaqlıya yazın nə dadı?!
Enliyarpaqlını fəsil aldadır,
Göylərə dirənib çinar fəryadı.
Kinli bir uşağa dönübdür göylər,
Yenə dolu yağır qaş-qabağından,
Günahsız çiçəklər yenə can verir
Dolu yağışının daşqalağında...
Hardasa örtülür tül pəncərələr
Dibçək güllərinə soyuq dəyməsin.
Baharı gətirib gül pəncərələr,
Çöllərdə kimsəsiz güllər neyləsin?!
Təbiət, bu sirri sən özün danış:
Deyəsən təzədən qayıdır bu qış...

## "YANIQ KƏRƏMİ"

*Toylarda "Yanıq Kərəmi "ni oyun*
*havası kimi çalıb rəqs edirlər.*

Oynayın, unndun kədəri, qəmi,
Qönçə əlləriniz gül açır, qızlar.
İçindən qovrulur "Yanıq Kərəmi",
Alışıb Əslinin gileyi sızlar...

"Vağzalı" çalınır,
saxladırsınız,
"Yanıq Kərəmi"yə sifarişmi var?
Əslinin ruhunu ağladırsınız,
Kərəmin dərdinə oynayan qızlar.

Tardan nalə qopdu,
Kaman inlədi,
Keşişin yenə də eyni açılmır.
Sizin yaxanızın qırıldı bəndi,
Əslidən hələ də düymə açılmır.

Kərəm od götürür,
Kərəm alışır,
Nağara Fərhadın külüng səsidir.
Musiqi bir dərdli eşqdən danışır,
Hər səda Kərəmin son nəfəsidir.
İçimdə çatılıb bir od, bir ocaq,
Neyləyim, məclisdən çıxa bilmirəm,
Dərddən oynayanı görmüşdüm, ancaq
Dərdə oynayana baxa bilmirəm..

Məclisin başında qoşa şam yanır,
Gözəldir sevgini od bəzəyində,
"Yanıq Kərəmi
Mən qəm qanadlanır
Ürəkdə məhəbbət öləziyəndə...

Alışıb xumardan süzülür gözlər,
Gözlər baxışlarla öpüşəcəkdir.
İnsafınız olsun,
dayanın, qızlar,
Kərəmin qəbrinə od düşəcəkdir!

Məclisdə dolanır sirli bir kölgə,
Leylinin bağrını üzəcəksiniz.
Bir vaxt gələcəkki,
deyirəm, bəlkə
Məcnunun abına süzəcəksiniz...

**ÖMÜRDƏN BİR GÜN DƏ...**

Ömürdən bir gün də keçdi, beləcə,
Yarı yuxuludur,
Yarı oyaqdır,
Duyğular qoynunda ötən bu gecə
Kiminsə ömrünə qayıdacaqdır.

Ömürdən bir gün də keçdi beləca;
Bir gün də gecədə pul kimi itdi,
Peşiman bir gözəl qayıtsın necə,
Özünü bir qəlbdə öldürüb getdi...

Ömürdən bir gün də keçdi beləcə;
Dumanlar içində yuxudu bəlkə,
Kimsə bu günümə bəlkə güləcək,
Kimsə yazdığımı oxudu bəlkə...

Ömürdən bir gün də keçdi beləcə;
Getdi...
bir ümidə güman azaldı.
Bir xəstə bildi ki, mütləq öləcək,
Deməli, möcüzə uman azaldı.

Ömürdən bir gün də keçdi beləcə;
Qəbristan youna təzə iz düşdü.
Bir ana bətninin qaranliğından
Çarpayı üstunə bir gündüz düşdü.

Ömürdən bir gün de keçdi beləcə;
Yaş bir balıq kimi sürüşür günlər,
Axan ulduzlarla ağlayır gecə,
Doğan günəşiylə gülüşür günlər.

Ömürdən bir gün də keçdi beləcə;
Bir kəl buynuzuna görən nə doldu?!
Birini sükanda haqladı əcəl,
Bir bağa çanağı külqabı oldu.

Ömürdən bir gün də keçdi beləcə;
Ömür kitabında vərəqlər ağdı.
Qapqara kölgəmdən bezib bu küçə,
Kölgəmi səkilər aparacaqdı...
Ömürdən bir gün də keçdi beləcə;
Səhəri günəşli,
Axşamı qürub.
Ömürdən bir gün də keçdi beləcə;
Görəsən qarşıda hansı gün durub?!

**YARPAQ TÖKÜMÜ**

Yarpaq tökümünə baxa bilmirəm,
Ürəyim yarpaqtək titrəyir, əsir,
Külək budaqlara qəm çiləyir, qəm,
Qəlbimdə gizli bir həyəcan gəzir;
Yarpaq tökümünə baxa bilmirəm.

Bir zaman yaşıldı məhəbbət kimi,
Yenə yarpaqların hicran gəldi.
Düşüb ayağına sədaqət kimi,
Yarpaqlar ağaca yalvarır indi;
Yarpaq tökümünə baxa bilmirəm.

Meşədə bir yarpaq dənizi çağlar,
Dalğa heykəlidir hər təpa xəzəl.
Tökülən bu əlçim, sari yarpaqlar
Cırılıb atılmış məktuba bənzər;
Yarpaq tökümünə baxa bilmirəm.

Bu payız gününün həsrəti ağır,
Qəlbimdə göynəyən tənha bir izdi.
Göydən yarpaqların ölüsü yağır,
Çəmənlər elə bil ölü dənizdi;
Yarpaq tökümünə baxa bilmirəm...

**BƏSDİR, AĞLAMA, AĞLAMA...**

Yenə nədir bu qəm, kədər?
Ürək, ağrıma, ağrıma.
Qoy bu yaşıl biçənəyi
Basım bağrıma, bağrıma.

Öpüm bulaq dodağını,
Əyim iydə budağını,
Bir cüt yarpız yarpağını
Qoyum ağrıma-ağrıma.

Getsəm səni həsrət sıxar,
Dağlar sözlü-sözlü baxar,
Qalaram, yaxşılıq çıxar
Mənim uğruma-uğruma.

Bəlkə yaddan çıxıb adım,
Zirvələrə çıxammadım,
Bu kənd mənə baxammadı,
Baxsın oğluma, oğluma.

De, bu yurda varmı sözün?
Gözəlliyi yığsın gözün.
Dağlara dirənib üzün,
Bəsdir, ağlama, ağlama...

*May, 1979*

**ANAMA**

Bunədir...
            vaqona sükut endimi
Təkərlər susubdur, niyə dinməyir?
Ay ana, əllərin göyərçindimi
Çırpınır...
            qatara çata bilməyir?

Geyindi tüstünü qatar don kimi,
Nə dedin...
sözün də ağzında qaldı.
Qatardan açılmış bir vaqon kimi
Vağzalda qaldın...
Sükutmu qırıldı,
bəs bu nə səsdir?
Mən elə bildim ki, yağışdır, ana!
Bir dolça su səpdin arxamca,
bəsdir,
Gözünün yaşını yığışdır, ana!..
Çəkib nəfəsini susur çöl;
bayır,
Uzanıb yolları duyğuların da.
Qatarın deyəsən gücü çatmayır;
Qatara qoşulub qayğıların da.
Bu necə aynlıq?..
Yoxdur səda, səs,
Təsəlli həsrəti yıxa bilməyir.
Bayaqdan yol gedir,
qatar nədənsə
Hələ də vağzaldan çıxa bilməyir...

**NƏNƏM**

Baxıram nənəmə, yanıram dinməz;
Baxıram, iynəni saplaya bilmir.
Böyük ailəyə dayaq olan kəs
Əsasız özünü saxlaya bilmir.

Eynək də alıbdır
Özünə bu il,
Qonum-qonşuları tez seçsin deyə,
O, corab toxuyur,
corabı deyil,
Anları toxuyur vaxt keçsin deyə.

Gecələr yuxusu ərşə çəkilir,
Səssizcə danışır, səssizcə gülür.
Millər ilmələri saydıqca bir-bir
Yumaq açıldıqca nənəm bükülür.

O ımiş gözəli obanın, elin,
İndi gəncliyinin günəşi sönüb.
Yüz sözdün birinə dinməyən gəlin
Necə də deyingən qarıya dönüb...

Baxıram nənəmə, yanıram dinməz;
Baxıram, iynəni saplaya bilmir.
Böyük ailəyə dayaq olan kəs
Əsasız özünü saxlaya bilmir...

## NƏNƏMDƏN SOVQAT GƏLİB

*(Əsgərlik şeirlərindən)*

Açdıq bağlamanı danışa, gülə
Fikirdən qaşların çatıldı birdən;
Heyvalar nə yaman saralıb belə,
Kəsib-doğramağa əlim gəlməyir
Qorxuram bayatı hönkürər burdan...

Mənə söylədiyin nağıllarında
Göylərdən tökülən almalardımı?
Yığıb göndəribsən mənə, ay nənə!
O güllü,
düyünlü boxçalarında
Gözündən yayınıb bir şey qaldımı?
Sənə qurban olum, nənə, ay nənə!..

Hələ nar kolları çiçək açmayıb
Keçən payızındi bilirəm, bu nar.
Bir büküm xatirə kövrəkliyidi
Götürsəm əlimə, ovcumda sınar.

Naxışlı corabın ilmələrində
Tanış dağlar gəlib, dərə-düz gəlib,
Ətri necə xoşdur meyvələrin də
Sandım bir bağlama sovqat deyil bu
Heyrətdə saxlayıb əfsanələrı,
-Gorusə nənəmlə kəndimiz gəlıb.

Çinarlar ucalıq gətirib mənə,
Yarpaq yaşılına yollar açıqdır.
Yığılıb dövrəmə tanışlar yenə
Həsrətlə boynuma dolanmaq uçün
qollar açıqdır...

Donmuşam yerimdə bayaqdan bəri
Sevincim bu axşam birə-yüz gəlib.
Heyratdə saxlayıb əfsanələri
Görüşə nənəmlə kəndimiz gəlib...

**YAXŞI Kİ...**

Ayrı yaşayırlar anamla atam,
Bir təzad ömr edir bu kainatda.
Onlara həm doğma,
Həm də ki, yadam,
Göz açıb nənəmi gördüm həyatda.

Beşiyim başında layla yananda
Bayatı hicranın dilində qaldı.
Ürəyim bir ata-ana yanında,
Əllərim nənəmin əlində qaldı.

Böyüdüm illəri mən çata-çata,
Sevinc biryanadır.
Qəm bir yanadır.
Anamin sahibi bir ögey ata,
Atamın sahibi ögey anadır...
Gah atam çağırır,
Gah da ki, anam:

-Ay oğul, yanımda gəlib qalsana.
Hərdən az qalıram alışıb yanam;
Bir evdə ata yad,
Bir evdə ana.
Başımda dolanır fikirlər çəni,
Könül, nə küs məndan,
Nə məni qına.
İki ev qoynuna çağırır məni;
Birində ata yad,
Birində ana.
Ürək dilə gəlir,
Ürək deyir ki:
-Ay ata, ay ana, bir soruşsana:
Səninçün, ay oğul, ağır deyil ki -
Bir evdə ata yad,
Bir evdə ana...
Söhbət açırsınız xatirələrdən,
Xatirə su deyil, içmək olmayır.
Siz sahil,
Körpüyəm sahillərə mən,
Araz körpüsüyəm, keçmək olmayır...

Ürəkmiş həsrətdən qovrulan, yanan,
Nə bilim həyatda eh, nələr varmış.
Atalar, analar şəhv edən zaman
Yaxşı ki, dünyada nənələr varmış...

**BİR NAĞIL GECƏSİ**

Bu gecə sehrli nağıla bənzər,
Çiçək sərgisinə dönər ulduzlar.
Bu gücə evləri küknarlar bəzər,
Küknar budağına enər ulduzlar.

Bir sevinc fişəngi atılar göyə,
Göylər də nurlanar obalar kimi.
Yığıb ulduzları bulud heybəyə
Gələr Şaxta baba babalar kimi...

Təqvimdə son yarpaq payıza düşər,
Dönər köhnə ilin son nidasına.
Bu gücə bir yaş da böyüyər bəşər,
Düşər əsrlərin daş yaddaşına.

Nəğməylə birləşər göyərçin əllər,
Şəfəq yağışında çimər baxışlar.
Əllər,
yaylıq əllər,
bir əlçim əllər
Saçlara gül-çiçək,
sığal bağışlar...

Təzə arzularla gələr təzə il,
Dodaqlar sevincdən təbəssümlənər.
Ay olub göylərdə gülər təzə il,
Dönüb bərəkətə torpağa enər.

Gilavar sevincdən doğular sanki
Gəzər bir şairin xəyalı kimi.
Bu gecə bir sağlıq söyləyər Bakı
Qaldırar Xəzəri piyalə kimi...

Gələr Şaxta baba kürkünü geyib,
Bu gecə işıqla dolar kainat.
Bir nağıl ilinə əlvida deyib,
Bir nağıl ilini başlayar həyat.

**ÇOX ŞEY İTİRMİŞƏM...**

Çox şey itirmişəm həyatda, çox şey;
Hələ nələri də itirəcəyəm,
Hələlik mənimdir bu torpaq, bu göy.
Bir gün başqasına yetirəcəyəm.

Bir qadın saçına vurulub düyün,
Ona ana adı gətirmişəm mən.
Kəpənək dalınca yüyürüb bir gün
Ana laylasını itirmişəm mən.

İlk dəfə hardasa titrəyib səsim,
Qızlar gözlərimdə qəribələşib.
Bir odlu dodağa dəyib nəfəsim,
Qəlbimə ilk sevda o gündən düşüb.

Bir də görmüşəm ki, uşaqlıq itib,
Dəcəllik yaşıma yaraşmır mənim.
Qonşu qızları da harasa gedib,
Saçları əlimə dolaşmır mənim.

Çox şey itirmişəm həyatda, çox şey;
Qazancım bir odlu cavanlıq olub,
Kiməsə istəyim görünüb ögey,
Kiməsə nifrətim bir anlıq olub.

Ömür gah güneydir, gah da ki, quzey,
Həyatda itirib tapmaqdır peşəm,
Çox şey itirmişəm həyatda, çox şey,
Ancaq ümidimi itirməmişəm...

## MƏKTUBLAR GECİKƏNDƏ

Hər görəndə şıltaqlıqla küsənib
Poçtalyona dinclik verməz sonalar.
Bir gecədə neçə dəfə səksənib
Yuxusunu qarışdırar analar,
məktublar gecikəndə.

Ürəklərdə qayğıları təzələr
Giley qonar qız, gəlinin dilinə.
Ürəklərdən arxayınlıq üzülər,
Könül düşər şübhələrin əlinə
məktublar gecikəndə.

Məktub gəlsə sevinc gələr bir büküm
Anam-bacım sinəsində qızdırar.
Bos gəlməsə...
buna dozər, axı, kim?
Nigaranlıq təzə məktub yazdırar,
məktublar gecikənda...

## GÜMÜŞ YUXULAR

Görsən ki, gecəyə ağ yağış yağır,
Ay gümüş işıqla axır küçəyə
Gümüş yuxulara məni də çağır,
Çevir yastığını mən gəlim deyə...

Bəyaz buludlara haray salaram.
Gümüşü şimşəklər oynayar orda,
Heyrətdən donaram,
heykəl olaram,
Gümüşü bulaqlar qaynayar orda...

Bir gümüş köhlən də axsayar o gün,
Köhnə faytonları yağışlar döyər.

Gümüş pul verərəm taksiyə o gün:
- Bağışla, kağız pul yoxumdur, deyə.

Sıçrayar yerindən gümüşü maşın,
Gümüş dişlərini sıxar sürücü,
Görər, bulud üstə sürüşür maşın,
Atılıb yuxumdan çıxar sürücü...

Yuxum dərin olar,
Üstüm açılar;
O gecə yuxumda ayaz görərəm.
Bir qış gecəsində yuxuya qalar,
Oyanıb,
hər yanı bəyaz görərəm.

Görərəm büllura dönübdür sular,
Görərəm bulağın tacı gümüşdü.
Dağlara qar düşür;
eh, mənə nə var;
Mənim ki, anamın saçı gümüşdü...
Yuxusu bal olan indi hamının,
Söyüdlər saçını hörər bu gecə.
Qızıl yuxusuna Totanxamonun
Gümüşü fironlar girər bu gecə.

Qar yağır...
gümüşdən cığır, iz itər.
Köz tutar qızların lalə yanağı.
Açar qan nənə güllü boğçanı,
Uçar qarışqanın kişmiş yatağı...

İndi nağıllara bir heyrət yağar
Simurğ qanadında uçar bir gözəl.
Ağ atlı oğlanlar, ağ divi boğar,
Gümüş kəmərini açar bir gözəl.
Yığıb nağılları, əfsanələri
Gümüş yuxumuza qaçar bir gözəl...

## OVCUMDA ÜRƏK

Ovcumun içindədir ürəyim;
Sıxmışam ilk qazancım kimi,
Açılanda əllərim
Qollu-budaqlı ağaca bənzər ürəym.
Bir dost süfrəsinə çevirər,
Qırmızı alma kimi
oxşanar, sevilər...
Ovcumun içindədir ürəyim;
İstisi, soyuqluğu
salamımdan duyular.
Əllərımdən düşər vərəqlərə
Misra-misra soyular...
Xəlvət çəkdiyim papiroslar kimi
Ovcumda gizlədirəm tüstüsünü;
Yəqin buna görədir
Sinəmdən deyil,
qollarımdan sayırlar
onun döyüntüsünü...

## AYDINLIQ GECƏDƏ

Sular üstə gümüşü,
Sulara ulduz düşür.
Bir açıq pəncərədən
Nəğmə axır necə də
Bu aydınlıq gecədə.
Söyüdlər düşüncəli
Durub boynu bükülü.
Hörük-hörük budaqlar
Sular üstə tökülüb
Fikirlidir necə də;
Səhər yadıma düşməz
Bu aydnılıq gecə də...

**OĞURLANMIŞ SƏSSİZLİK**

*İsveçrədə Korse-Ser-Vev qəbiristanında*
*Çarli Çaplinin məzarı naməlum şəxslər*
*tərəfindən açılmış, böyük sənətkarın tabutu*
*yoxa çıxmışdır...*

Tabutdan qara,
Məzardan soyuq bir gecədə.
Qəbiristanlığın
ölü sükutunu ayaqladılar.
Torpağın kohnə yaraları kimi
Köhnə başdaşılarından
silinmişdi yazılar,
Elə bil qorxudan
kimliyini gizlədirdi onlar.
Külüng səsinə diksindi
unudulmuş məzarlar...
Filmləri kimi
məzarı da səssizdir Çaplinin,
Canlısı kimi
ölüsü də əzizdir Çaplinin.
Ömrütək qırılan
Səssiz lentlərdən
bağırmaq istədi sənətkar,
Laqeyd diriləri
barı meyitini qorumağa
çağırmaq istədi sənətkar.
Kim isə
barmaqlarını qoydu
soyuq dodaqlarına,
Ölüm sükutu
tabut mismarlarıyla
sancıldı köksünə;
Köhnə qəbirlərdən
ağappaq gülüş tökülürdü
külünglərin üstünə.

Qoşulub Çarliyə gülürdülər
Dirilərin acizliyinə,
Qoşulmuşdular Çarlinin
Usyankar sessızliyınə...
Soyuq daşlardan
Heyrət boylanırdı,
Çuxuru qalmış gözlərdə
qeyrət alovlanırdı.
Səsi oğurlanmış sənətkarın
indi özü oğurlanırdı.
Tabutdan qara,
Məzardan soyuq bir gecədə.
Getdilər... Getdilər
məchul bir ünvana sarı,
Səssiz gülən bir ağız kimi
açıq qaldı Çarlinin dağılmış məzarı...

**ŞEİR YAZMAQ İSTƏYƏNDƏ**

Təyyarəyə bənzəyirəm,
Dünya ovcumun içində olur.
Bir uşaq şam tək
Ürəyim boşalır, dolur.
Dünyanın qəribə rənglərini
yığıram gözlərimə,
Qəribə rənglər axır sözlərimə...
Şeir yazmaq istəyəndə
Təyyarəyə bənzəyirəm,
Torpaq buluddan yumşaq,
Özüm uşaqdan uşaq oluram.
İnanıram hər şeyə:
Rənglərin oxumasına,
Gecənin ağlamasına,
Səhərin gülüşünə,

Bir qəzəbli baxışın
şimşək tək çaxışına,
İnanıram Gözlərimlə yox,
Ürəyimlə gördüklərimin
hamısına...
Şeir yazmaq istəyəndə
Təyyarə tək havada oluram,
Enməyə meydan axtarıram.
Sözlər dodaqlarımı
yandırır od kimi,
Hər dəfə
qəhrəmanı pilot kimi
yana-yana
Enirəm meydana -
öz yazı masama...

*Aprel, 1979*

**BİR ANA GƏTİRDİK...**

Küləklər bu axşam dönmüşdü neyə,
Kədər hıçqırırdı hey için-için.
Bir ana gətirdik dəfn eləməyə,
Gətirdik, torpağa tapşırmaq üçün.
Yollar qabar-qabar,
kündə-kündədir,
Yollar ürək kimi boşalır, dolur.
Günəşli gündə də, Qarlı gündə də
Qəbiristan yolları yağışlı olur.
Ömür sarayından bir kərpic düşüb,
Kim təsəlli versin,
Kim qovsun qəmi?!
Çiyinlər üstünə bir körpü düşüb
Ölüb,
Xudafərin körpüsü kimi...

Bir ana gətirdik dəfn eləməyə,
Bir oğul gözündə heç idi dünya.
Günəş tələsirdi dağdan enməyə,
Bəlkə utanırdı bu gidi dünya...
Bir oğul ağlayır hey yana-yana,
Yanğı söndürməyə bulağa dönmüş.
İndicə tabutdan duracaq ana
Deyəcək:
- Üzüldün, anası ölmüş!
Nə səbrə yer qalıb,
Nə də niyyətə,
Kədərli-kədərli çatılıb qaşlar.
Bir ana gəlibdir əbədiyyətə
Hörmətlə ayağa durubdnr daşlar.
Gedirik...
Nisgildir yolları yoran,
O təzə daşa da qəriblik endı.
Daş deyil,
elə bil bizdən nigaran
Analar yollara boylanır indi...

*Sentyabr, 1977*

## HƏYAT NAMİNƏ

*T. Nərimanbəyova*

Bır parça çəmən yaşılı,
Birudum bahar.
Rənglərin davasız birliyini
yaratmaq istəyirəm.
Zənci gözlərinə
qorxusuz işıq,
Qorxulu fikirləri
qaraltmaq istəyirəm.

Bir gün yatırda bilsəydim bəşəri,
Yetişmiş və yetişməmiş bombaları
Dərərdım.
Səhər Körpə satlığıyla
oyanan cahana
Bir səbət
Göyçay narı göndərərdim;
Həyat naminə!..

*Fevral, 1976*

**BALTA**

Ağac kəsmək hünər deyil,
Asan işdir dilsiz-ağızsız,
Həmişə ölümə müntəzir olanları
Ballalamaq, yıxmaq.
Çətindir
Həyatın dibinə enmək,
Olümün zirvəsinə çıxmaq...
Babəkin qollarına deyil,
Gəlmələrin inadına ensəydin,
Bu yox, İlk adamı İlk edama
aparanda ölsəydin
Öpüb oxşayardıq səni...
Soyuq-soyuq lülələri,
İsti-isti güllələri
Rusiyanın ürəyinə tuşlayanda,
Puqaçovun çiyni üstən fırlanıb,
Əsrləri dolanıb Dantesin,
Martınovun qollarına dəysəydin,
İndi yox,
İlk adamı

İlk edama
aparanda ölsəydin
Öpüb oxşayardıq səni...
Zamanın budaqlarında
Dahilərin cəsədi
saat kəfgiri kimi yellənəndə,
Çıxıb əsrlərin üstünə
Qıpqırmızı bir həqiqət
Ağappaq yalanlara
"Mənəm həqq" deyə dillənəndə
Haqqın dilini yox,
Zülmün kəndirini kəssəydin,
Bir xalqı parçalayanda
Xalqın boynunda deyil
əlində bitsəydin
Öpüb oxşayardıq səni...
Çıxarıb nəmli zirzəmilərin
küncündən
Muzeyə qoyardıq səni...

**DƏLİ BİR AĞLAMAQ KEÇİR KÖNLÜMDƏN...**

Yüyürüb, yüyürüb dərə boyunca
Düşüm çəmən üstə qoy üzüqoylu.
Öpüm bu lorpağı, Öpüm doyunca,
Üzümə üz qoysım hər soyuq daşı,
Qoy şehə qarışsın gözümün yaşı,
Qurumuş budaqlar içir könlumdən,
Dəli bir ağlamaq keçir könlümdən.
Könlünə dəydiyim,
İncitdiyim qız,
Vüqar kölgəsində yatdığım bəsdir.
Odlu yanağından su içdiyim qız,
Bu qədər günaha batdığım bəsdir.

Daha dodaqların titrəməsin qoy,
Mən sənin qarşında titrəyim, əsim,
Səndən dünyaları istəmirəm, yox,
Məni bağışlasan bəsimdir, bəsim...
Yarı desən,
Alışıb yana bilərəm,
Don desən,
Yerimdə dona bilərəm!
İndi bilmişəm ki, ömür-gün gedir,
Ən gözəl hisslərim köçür könlümdən.
Qayıt!
Sən ömrümə təzəlik gətir;
Dəli bir ağlamaq keçir könlümdən.
Çoxdan qəbristana düşməyir yolum,
O tənha məzarı ot basıb bəlkə.
Mənim soyuqluğum, laqeydliyim
Onun sinəsinə od basıb bəlkə.
Bir daş var gözümün yaşına həsrət,
Dayanıb o giley heykəli kimi.
Əlim torpağına, Daşına həsrət,
Yıxılıb üstünə mən dəli kimi
Ağlayam gərək...
O tənha məzarı torpaqdan üzüb
Ovcumun içİndə saxlayanı gərək.
Şöhrətin üstünə yüyürdükcə mən
İstəklər, arzular köçür könlümdən.
Sevgi dumanına büründükcə mən
Dəli bir ağlamaq keçir könlümdən.
Küləklər oynayır kənd evimizdə,
Tale baş götürüb apardı məni.
Hörümçək tor qurub pəncərəmizdə,
Həsrətim çırpınır o torda mənim.
Yarasa boylanır uçuq tavandan
Bükülmüş dirəklər çat-çat olubdur.
Qorxudan divarın bağrı yarılıb,

Qapılar çoxalıb dördqat olubdur.
Gedim divarına yalvarım onun,
Gedim, qapıların qatı açılsın.
Gedim mən sonuncu dirəyi olum,
Tavanlar çiynimə barı uçulsun...
Daşı daş üstünə qoyum təzədən,
Dəlisov küləklər əsir könlümdə!
Elə kövrəlmişəm,
Bilmirəm nədən
Dəli bir ağlamaq keçir könlümdən...

*İyun, 1979*

**AĞLAMA BİLMİRƏM**

Ağlaya bilmırəm, ana,
Gilə-gilə əriməkdən qorxuram..
Şimşəklərlə oynayıram
bu dağlara çıxalı,
Küləklərlə dağılıbdır
saçlarmın sığah...
Ətəklərdə
yeriməyə,
yüyürməyə düz çoxdur.
Üzüm üzlər görübdür,
Görəcəyim üz çoxdur.
Baş qoyub rahat-rahat
uyumağa diz çoxdur,
Hər dizə də baş qoyub
Ağlamaq olmur, ana!..
Yollarıma qayğıyla
Yağan yağışlar da var,
Ayağıma dolaşıb
çilik-çilik doğranan,
sınan baxışlar da var...

Boyda məndən də uca,
Neçə qəlbi xırda var.
Şüşa baxışlar çoxdur
Bir daşla hamısını
Sındırmaq olmur, ana!
Hər qəlbə bir-bir girib
İnam çırağını da
Yandırmaq olmur, ana!
Ürəyimdə ağrılar
Gəzirəm gülə-gülə,
Hər adam göro-görə
Ağlamaq olmur, ana,
Olmur,
ay anam, olmur!..

*Avqust, 1978*

**İŞIQLAR, KÖLGƏLƏR**

Təzadlı yaranıb hər şey cahanda,
Bu bir qaydadır ki, açılan solur,
Dünyanın bir üzü işıqlananda
Dünyanın bir üzü qaranlıq olur.
Bir ümid şöləsi
adi qığılcım
Soyumuş qəlbləri bəzən isidir.
İşıqlar kölgəni kəsən qılıncın
Bəlkə də ən sərti,
Ən istsidir...
Bir ömür istərəm şimşək tək çaxa
Əridə yerində hey sayanları.
Bir günəş istərəm
yandıra, yaxa
Özgə kölgəsində yaşayanları.

Mən şərəf sanıram atəşi, közü,
Sevirəm nur yükü daşımağı da.
Ölümdən dəhşətli bilirəm, düzü
Mən gözükölgəli yaşamağı da.
Həmişə sülh deyər,
nur deyər cahan.
Elə bu sözdədir ən böyük kəsər.
İşıqlar birləşsə
nur deyər cahan,
Kölgələr birləşsə ağlayar bəşər.
işığa bağlayar ümidini də,
İşıqdan həmişə qaçar kölgələr,
İşiqda tapdığı öz ömrunü de
Sürünə-sürünə yaşar kölgələr.

*Sentyabr, 1968*

**ÜRƏYİM**

Ürəyim geyinib məni,
Onunam təpədən dırnağadək,
Ürəyim - zərif bir qız.
Ürəyim - Koroğlu, Babək...
Ağaca bənzəyirəm,
Ürəyim gizlənib məndə
Yarpaqlar arasında
alma kimi, Daş atan da olur,
Dırmaşıb dərmək istəyən də,
Qədrini bilən də var,
Gərəksiz deyən də...
Ürəyim gizlənib məndə
Ağıllı sərkərdə kimi:
İtaətkar qulu.

Yeganə əsgəriyəm,
Sevincinə ortaq,
Qəminə şərikəm.
Elə kiçikdir ürəyim
Dəryalar axsa dolmaz,
Elə böyükdür ürəyim
Bir körpənin
göz yaşını tutmaz.
Tutar ağrım, acım,
Sinəmin üstə qoyub
sıxıram ovcumu.
Uduram qəzəbimi, səsimi,
Susuram Qırmızı almaya aldanan
uşaqkimi...

*Mart, 1973*

## PAYIZ GECƏSİNDƏ DÜŞÜNCƏLƏR

Pəncərəm önündə ağlayır külək,
Sinəmdə uçunur, ağrıyır ürək.
Nə yaman dolubdur göylər bu gecə,
Subaylar, tənhalar neylər bu gecə?..
Aldanıb atılımş bir gözəl kimi
Necə için-için hıçqırır külək.
Budaqda titrəyən son xəzəl kimi
Elə bil ümiddən asılıb ürək...
Son nəğmə oxuyur köçəri quşlar,
Açın pəncərəni, qapıları siz
Qoy dolsun soyuqla içəri quşlar.
Bir quş yuvasına bənzər ürəyim,
Gəlsin qaranquşlar sığınsın ora.
Soyuğa, şaxtaya dözər ürəyim.
Dözməz tənhalığa, qaranlıqlara...
Uçur durnaların qanadlarında
Payız gecəsinin yuxusu uçur.

Quzğunun sıxılmış caynaqlarında
Xırdaca quşların qorxusu uçur.
Meşələr açılmış hörük kimidir,
Sıxır bu ütülü divarlar məni.
Qoşulub qatara uçası olsam
Qanadlı adamdan qorxan dumalar
Yəqin ki, qatardan qovarlar məni...
Bu küləkli gecə,
Bu soyuq gecə,
Yarpaqlar üşüyür,
titrəyir necə.
Təbiət özü də kövrəlib bir az,
Göylər üzüqoylu düşüb torpağa
Göz yaşı tökəcək sanki indicə...
Küləyə qoşulub gedən payızın
Qəlbimdə isti bir yuvası qalır.
Qoşulub payıza uçan bir qızın
Başımda bir sevda lıavası qalır.
Pəncərəm önündə payız qəmlidir,
Hardasa boylanıb ötən payıza
Pəncərə dalında bir qız qəmlidir,
Üzünə toxunan dibçək gülünün
Soyuq ləçəkləri, yəqin nəmlidir...

*Dekabr, 1978*

## HƏLƏ BU DÜNYAYLA İŞİM VAR MƏNİM...

Hələ bu dünyayla işim var mənim,
Bu dünya qarışıq yuxular görür,
Hələ bu dünyanın qapılarından
Yaxşıya qarışıb yaman da girir.,.
Hələ gecələrin səksəkəsi var;
Təzadlı dünyanın müxtəlif qütblü,
Mənfili, müsbətli fəlsəfəsi var.
Hökmlər zamanın,

Arzular mənim,
Hələ bu dünyayla işim var mənim...
Görən hansı fürsət çıxdı əlimdən,
Taleyim bəs hansı qısmətə tuşdu?!
Tarixin saralmış vərəqlərindən
Kimlər ad qazandı,
Hansı ad uçdu?!
Könül, bir nəğmə de,
Bayatı çağır,
Dünyanın ovcuna insanlar yağır,
Dünyanın əlləri yenə də boşdu.
Hələ boş yerlər var ürəyimizdə,
Hələ ana haqqı kürəyimizdə;
Qəlbimiz qayğılar qoruna düşüb.
Səsimiz çırpınır vərəqlər üstə,
Səsimiz hörümçək toruna düşüb...
Dünyanın dolaşıq kələflərində
Yol azıb,
Qəribtək itmək də olar,
Çırpıb bu dünyanın qapılarını
Küsüb, birdəfəlik getmək də olar.
Ömür bu həyatın dolaylarında
Sabahkı cığırdı,
Bugünkü izdi;
Hələ ilk nəğməmi oxuyuram mən,
Sonuncudan demək bəlkə də tezdi.
Hələ nəğmə dolu bu ürəyimdə
Yaşamaq, yaratmaq eşqim var mənim,
Hələ bu dünyayla işim var mənim!..
Hələ dövlətlərin sərhədlərindən
Tikanlı məftili götürməliyəm.
Hələ yol gözləyən analara mən
Bir nəslin adını gətirməliyəm.
Hələ bu dünyanın meydanlarından
Dava kağızını süpürməliyəm.
İşsiz əsgərlərin ovuclarında

Bənövşə, qərənfil bitirməliyəm.
Yüyürüb ayların, illərin üstən
Araza körpülər salmalıyam mən,
Pusquda dayanmış ac lülələrdən
Alov qanadları almalıyam mən...
Dünyanın Buhenvald ocaqlarını
Meridian qəfəsdə söndürüm gərək.
Muğam bənövşəsi - "Yetim segah"ı
Özgə planetdə dindirim gərək...
Hələ nəğmə dolu bu ürəyimdə
Yaşamaq, yaratmaq eşqim var mənim,
Hələ bu dünyayla işim var mənim!..

1979

## QƏLƏBƏNİN YAŞI

Qələbənin yaşını bildik;
Sinələrdə gələn qəlpələrin necə?
Qələbənin yaşını bildik;
Ana bətnində ölən körpələrin necə?
Qələbənin yaşını bildik;
Yol üstə durub boynunu bükən
sonalarin necə?
Qələbənin yaşını bildik;
Bir anda yüz il qocalan
anaların necə?..

1975

## SABİR RÜSTƏMXANLIYA

Baş götürüb yenə sular
Axır pərişan-pərişan.
"Vətən" deyib bundan çoxu
Baxır pərişan-pərişan.

O küləynı dadı yoxdu,
O buludun adı yoxdu,
Şimşəyinin odu yoxdu,
Çaxır pərişan-pərişan.

Bizə hicran hayan durur,
Vüsal küsüb hey yan durur.
Bu həsrət bizi yandırır
-Yaxır pərişan-pərişan...

Külək aparır sözümü,
Göz yaşım inci düzümü.
O tayda bir qız gözünü
Sıxır pərişan-pərişan.

Qoyur çəmənə izini,
Bulud alır dost üzünü,
O taydan qəmli gözünü
Yığır pyrişan-pərişan...

1980

**YUMUL, BƏNÖVŞƏM, YUMUL...**

*Dağlara gün düşübdür,*
*Açıl, bənövşəm, açıl...*
*Xalq mahnısı.*

Hava yaman sazaqdı,
Günəş səndən uzaqdı,
Bir ac quzu mələyib
Sənə boylandı, baxdı,
Yumul, bənövşəm, yumul.

Çəmənlərə iz düşür,
Bir deyil ki, yüz düşür,
Niyə sənin payızın
Hər çiçəkdən tez düşür!
Yumul, bənövşəm, yumul...

Göydə bulud görünür,
Bulud qara bürünür,
O dağda bir duman var
Sənə tərəf sürünür;
Yumul, bənövşəm, yumul...

Qalarsan baxa-baxa,
Kağız gül səndən baha
Arı yaman çoxalıb
Gülü də sancır daha;
Yumul, bənövşəm, yumul.

Omrün bircə həftədir,
Ətrin min cür həbdədir,
İndi sevgili üçün
Beş qərənfil dəbdədir;
Yumul, bənövşəm, yumul.

Yum gözünü, çən görmə,
Vaxtsız gələn qəm görmə,
Dünya yaman qarışıb
Mən görəni sən görmə;
Yumul, bənövşəm, yumul!..

**HƏQİQƏT**

Həqiqəti pıçıltıyla dedilər
Haylı-küylü yalanların içində.
Həqiqəti daim başda gördülər,
Oda düşüb yananların içində.
Yeri düşsə qum göyərər, daş çıxar,
Bir doğruyla neçə yalan boş çıxar,
Bacarırsan həqiqətlə baş çıxar
Həqiqəti dananların içində.

Sən doğru de, söyləməmiş başqası,
Söküləcək yalanların maskası,
Qiyməti də artıq olar daş-qaşın
Köhnə, nimdaş palanların içində.
Sovrulacaq bir gün hədər yalanlar,
Öz xeyrini ancaq güdər yalanlar,
Ölülərlə ölüb gedər yalanlar,
Doğru yaşar qalanların içində.
Yalan deyib, gizli-gizli öyüyüb,
Hər yalançı təsəlliyə keyiyib,
Doqquzaylıq bir həqiqət böyüyüb
Saçlarını yolanların içində.
Mən könlümü həqiqətə vermişəm,
Qapısını açıq görüb, girmişəm.
Həqiqəti mən təzə-tər görmüşəm,
Ömrü-günü solanların içində.
Kölgəsinə mahal yığar qoca tut,
Sən üzünü doğru üçün borca tut,
Həqiqətin bayrağını uca tut
Yalan deyən nadanların içində.

İyul, 1983

## BİRİ VARDI, BİRİ YOX

*Uşaqlar necə ki körpədirlər, ana laylasına uyuyurlar. Elə ki, bir az böyüdülər, axşamlar atalarından nağıl istəyirlər. Mənim bildiyim nağıllar isə çox deyil. Axşamların birində, nağıllarım qurtaranda fikirləşdim ki, bu dəfə öz taleyimin nağı-hnt söyləyim...*

Olan olub, keçən keçib bəlkə də,
İndi daha kövrəlməyin yeri yox.
Ömrüm boyu belə gəlib mənimki
Əvvəlindən biri vardı, biri yox.

Uzaqdaydı mən istəyən ocaqlar,
Ürəyimdən gəilb keçdi sazaqlar.
Atalıydı, analıydı uşaqlar,
Bizim evdə biri vardı, biri yox.

Gözlərimə doldurmuşam yağışı,
Bir köynəkdə çıxarmışam mən qışı.
Şalvar-pencək geyinirdi tay-tuşum,
Məndə isə biri vardı, biri yox.

Üzüm güldü tələbəyəm deyəndə,
Sıxılırdım dost pencəyi geyəndə.
Müəllimlə dil tapa bilməyəndə
Qiymətimin biri vardı, biri yox.

Qəlbim yandı ilk sevgimdən, eşqimdən,
Dara düşdüm, əl ummadım heç kimdən.
Məclislərdə can deyib, can eşidən
Dostlarımın biri vardı, biri yox.

Mən orduya nələr görüb getmişdim,
Ürək alıb, ürək qırıb getmişdim.
İki qıza könül verib getmişdim,
Qayıdanda biri vardı, biri yox...

Uzaq gəzdi əmi, dayı, bibilər.
Sözarası mənə "evlən" dedilər,
Nişan üçün iki şey istədilər,
Məndə isə biri vardı, biri yox.

Vaxt gələcək, bu günü görəcəksən,
Çox suala gözünü döyəcəksən,
Vaxt gələcək, sən özün deyəcəksən,
Deyəcəksən: "Biri vardı, biri yox!"

## DAHA NAĞILLARA İNANMIRAM MƏN

Çapıb öz atını Ağatlı getdi,
Atları şimşəkdən qanadlı getdi,
Uşaq yaddaşımı qanatdı getdi,
Daha nağıllara inanmıram mən.

Nənəmin inamı, dərdi nağıllar,
Namərdə aldatdı mərdi nağıllar,
Bizi yuxulara verdi nağıllar,
Daha nağıllara inanmıram mən...

Uşaq ovutmağa bir noğul idi,
Sözlərdə yaşayan bir ağıl idi,
Yaxşı adamlar da bir nağıl idi,
Daha nağıllara inanmıram mən...

"Sim-sim"i sözlə yox, zorla açdılar,
Tilsimi min cürə yolla açdılar,
Him-cimi möhürlü qolla açdılar,
Daha nağıllara inanmıram mən.

Fatmalar ayağı kəndirdə qalmır,
Xəmrimiz küt gedir, təndirdə qalmır,
Qarğalar tülküyə daha aldanmır,
Daha nağıllara inanmıram mən.

Acı həqiqətlər bal dadır indi,
Arısı olmayan bal satır indi,
Keçəli saçlılar aldadır indi,
Daha nağıllara inanmıram mən.

Elə yuxularda atlar kişnədi,
Divləri qazana saldım, bişmədi,
Gözlədim,göylərdən alma düşmədi,
Daha nağıllara inanmıram mən!..

**ANALAR**

Dünyanın bu karvan köçündən gəlib,
Dözünüün bitməyən gücündən gəlib,
Yoxsa nağılların içindən gəlib, -
Özü nağıllara dönən analar.

Gül dedik, ovcunda çiçək bitirdi,
Sevinci paylayıb, qəmi itirdi,
Yuxusuz gözlərə yuxu gətirdi,
Laylalar üstündə dinən analar.
Saçına qar yağdı,
yaz verdi bizə,

Dünyanı görməyə göz verdi bizə,
Özünə bənzəyən qız verdi bizə,
Ömrünü min yerə bölən analar...
Özü şərik oldu ürək sirrinə,
Gün oldn işlədi kişi yernıə,
Bizinıçün od aldı kipriklərinə,
Özü soyuqlarda donan analar.
Oğulu sevinib,
qızı güləndə, Sanki günəş gülür
üzü güləndə,
Övladın qaşında düyün görəndə
Buludtək qaralıb, dolan analar.
Saçını zamanın əlləri hörür,
Bu günlə yaşayıb sabahı görür,
Dünyaya təzə-tər övladlar verir,
Üzü çiçək kimi solan analar...
Vətənin Özünə "Ana" dedilər,
Oduna, közünə "Ana" dedilər,

Bir gün yad qızına "Ana" dedilər,
Nəvə muştuluğu alan analar!
Ömrümü-günümü almışam sizdən.
Damlayanı, qorumuşam coşqun dənizdən,
"Oğlum" desəniz də, deməsəniz də
Mənim anamsınız,
anam, analar!..

**20 İL SONRA...**

Əgər sağ qalsaq,
20 il sonra rastlaşsaq,
Sənin üzündə ülərin lal xəritəsi,
Mənim üzümdə buna bənzər bir şey olacaq.
İki beli bükük qoca
Söykənib ağaca
illərin uzaqlığındakı
gəncliyinə boylanacaq.
Damarları çıxmış əllərimiz
İki hörümçək kimi qovuşacaq.
Çırpınacağıq qocalığın torunda,
Əllərimiz ayrılacaq
iki yorğun hörümçək kimi.
Yanımızdan çicək kimi
qızlar
Çinar boylu cavanlar keçəcək.
Sən məni axtaracaqsan,
Mən səni onların arasından.
İşığa tutmaq istəyəcəyik
bu vədəli qaranlığımızı.
Sən mənim üzümdə,
Mən sənin gözündə görəcəyəm
Qat kəsmiş cavanlığımızı.

Vaxt keçsin deyə
Calayacayıq sözü sözə.
İçin-için ağlayacayıq
bu dişsiz gülüşümüzə.
Əgər sağ qalsaq, 20 il sonra rastlaşsaq
Ya küçədə, ya bulvarda
Bizi görənlər güləcəklər acı-acı.
Bir ayaq özümüzünkü, Bir ayaq əl ağacı, -
Bir ayağımız gorda...
Zamanı aldadıb kinoya gedəcəyik
Filmi deyil
arxa sırada oturub öpüşən
cavanları seyr edəcəyik.
Hərdən ekranda
Öpüşəcək baxışlarımız,
Gözlərimizdə göllənəcək
xatirə yağışlarımız.
Heç büməyəcəyik yuxu
nə vaxt bizi aparıb, Xidmətçinin səsinə oyanacağıq: -
Durun, kino çoxdan qurtarıb...

Noyabr, 1995

## İKİ SƏRÇƏ

Təkqraf telində iki sərçə,
Biri sən, biri mən.
Yuvamızda iki körpə. -
ikimizin,
Yaşayırıq beləcə...
Zalım kcşikçisi olan
Bir zəmi buğdamız,
Bir tarla danmız,
Fikir eləmə, ömrüm-günüm,

Böyüyəcak balalarımız.
Bir budaqda iki sərçə,
Biri sən, biri mən.
Ağacın kökündə balta səsi,
Budaqlarında yarpaqların
qorxulu ütrəməsi,
Yuvamızda meşə zəlzələsi.
Bizi axtaran ovçu gülləsi
hələ ki, yan keçir,
Güllələr göyərçinləri,
turacları, kəklikləri seçir.
Bizə də dəyə bilərdi
onlar olmasa...
Növbə bizə çatacaq
Meşədə yağlı quşlar qalmasa...
Bir bulaqda iki sərçə
Biri sən, biri mən.
Su içib göylərə baxırıq,
Ömür istəyirik ilahidən,
Balalarımız uçana qədər,
Bağa-bostana
ayaq açana qədər...
Meşədə bir ac tülkü,
Ağzında sərçə tükü
Elə bil dişləri
qanadlanıb uçmaq istəyir.
Teleqraf tellərindəki, Budaqlardakı,
Kol-kosdan uzaqlardakı
Uçan tikəni tutmaq istəyir.
Biz tükləri tülkü dişində qalan
sərçələrin həsədiyik,
Tülkülərin uçan həsrətiyik...
Bir eyvanda
İki sərçə, Biri sən, biri mən.
Sığınmışıq yuvamıza,
Gedək yem dalınca

Dən gətirən yoxdur bizə.
Sən xırmana, Mən dəyirmana.
Dəyirman daşları ovulub,
Dən gətirənlər çoxdan qovulub.
Təkco suyu deyil,
Dəni də sovulub dəyirmanların.
Gedəcək başqa yerimiz yoxdur,
Görürəm hava soyuqdur,
Uç, mələyim mənim.
Balaların dimdiyində
bir şey qalmayıb
sarıdan başqa.
Yuxularında heç - nə görməyirlər
darıdan başqa. Bir şey gəürə bilməsək Heç olmasa,
Bir ovçunun ac balalarına yem olaq.
Mən getdim, sən gəlmə,
Balalardan göz-qulaq ol, göz-qulaq...
Göy üzündə iki sərçə,
Biri sən, biri mən.
Gəlmə, gözəlim, gəlmə!
Güllə açılsa birdən,
Bir tavada iki sərçə bişəcək,
Biri mən, Biri sən...

Noyabr, 1995

**QIRAT**

Həmzəni Koroğludan
seçə bilməyən Qırat,
Ya Koroğlu adına görə deyilmiş,
ya Həmzə, ya sən.

Hər yetənin altında
yorğalay acaqdınsa,
Doğrudan qaçıb,
oğruyla qalacaqdınsa, Koroğlunun yalvarışına
kar olacaqdınsa
Nəyin Qıratdı sənin? Yazıq Alı kişinın
gözünə dəyməzmişsən, Koroğlunun;
ala gözlüm,
qız birçəklim
sözünə dəyməzmişsən
qorxdunmu? -
bəy atını keçə bilmədin,
Alapaçaynan ayaq aça bilmədin,
Koroğlunu çaya basdı
Giziroğlu Mustafabəy,
Başınıza oyun açdı
Giziroğlu Mustafabəy,
Suda boğuldu
Koroğlunun yenilməzliyi.
Axtaladı Alapaça səni;
Nə üzlə qayıtdınız elə? Öləydiniz,
xəbəriniz gələydi Çənlibelə. Nigar görməyəydi
suyu süzülə-süzüla gələn Rövşəni... Paltar kimi yuyulub
yəhərindən asılan,
Bəylərdən qaçıb
Giziroğluna basılan,
Adına dastanlar yazılan, Koroğlu,
Sən Allah, başqa bir dastan yarat!
Ya sən adına görə deyilmişsən,
ya Həmzə, ya Qırat...
Yaşasın Giziroğlu Mustafabəy!..

*Noyabr, 1995*

**APARDI SELLƏR SARANI**

Ağla, Xan Çobanım, ağla,
Apardı sellər Saranı.
Daha qəmə könül bağla,
Bağlayan yoxdu yaranı.
Əlin yetməz, ayaq saxla,
Ölüm kəsibdi aranı;
Yerə, göyə qarğış etmə,
Apardı sellər Saranı...
Nəyin vardısa, varını -yoxunu apardı ölüm.
Sevinc paym az olacaq,
Çoxunu apardı ölüm.
Nahaq yerə mürgüləmə
Yuxunu apardı ölüm,
Yolları gəl yorma belə,
Axtarma, dağı-aranı, -
Apardı sellər Saranı.
Sellər hardan biləydi ki,
Baharın qışa dönəcək.
Qəmdən ağırdı yorğanın,
Yastığın daşa dönəcək.
Kimlər qadanı alacaq,
De, kimlər başa dönəcək?!
Ömrünü qurban verdiyin
O xoşbəxt çağların hanı? –
Apardı sellər Saranı...
Tavan başına enəcək,
Divarlar sıxacaq səni
Sara bir ehtiyac olub

Qarşına çıxacaq sənin.
Min dərd olsa yıxılmazdın

Bu dərdin yıxacaq səni...
Sevincimi tanımışdın,
İndi də qəmini tanı,
Ağla, Xan Çobanım, ağla,
Apardı sellər Saranı...

**DƏLİ DOMRUL**

*"Dədə Qorqud" dastanı əsasında*
*poema-libretto.*

*Köçərlər*
Qarşı yatan ulu dağlar,
Bılirsənmi nələr oldu?
Göz yaşıyla dolun, dağlar,
İgidimiz ölər oldu.

Oğuz elin balasıydı,
Bir güzəran bulasıydı.
Bir gül kimi açılmışdı,
Gül kimi də solasıydı.

*Ata*

Arxam, dirəyim, oğul,
Suyum, çörəyim, oğul,
Sənsiz dünya fanidir,
Nə gün görəyim, oğul.

*Ana*

Boyumu öyməyim nə?
Dizimə döyməyim nə?
Sevinci sən apardın,
Qəmmi geyim əynimə?

*Köçərilər*

Ata minməzsən, a igid,
Yala sinməzsən, a igid.
Atan oğul deyib, ağlar.
Anan oğul deyib, ağlar,
Niyə dinməzsən, a igid?
Taleyin tərki bumu?
Tanrının görkü bumu?
Sərin bulaqlar od tutur,
Od bumu, bürkü bumu?..

*Bacı*

Boyuna qurban, qardaş,
Boyunu yer aparır,
Toyuna qurban, qardaş,
Toyun şivən qoparır.

Gəlin görmədik axı,
Telin hörmədik, axı,
Dağa-daşa köç etdik,
Ömür sürmədik, axı...

*Köçərilər*

Bulaqlar qan ağlayar.
Yel ah çəkib ağlayar,
Dağlar qəmdən əriyər,
Başı duman bağlayar.

Doğan günəş batacaq,
Yerini ay tutacaq.
Qaragözlü bu igid
Qara yerdə yatacaq...

*(Təpəl atını*
*Qamçıya dolaya-dolaya*
*Dəliqanlı Dəli Domrul*
*Yaxınlaşdı obaya).*

*Dəli Domrul*

Nə ağlarsız, nə sızlarsız,
Kimi belə əzizlərsiz?
Dağlardanmı qorxursunuz?
Bir təpəcə gəlməz mənə.
Qara-qara yellər əsər,
Qorxub əsər etməz mənə.
Göstərim aslan gücümü,
Poladüz, sərt qılıncımı.

Qılıncım yağı qanlı,
Görmüşəm dağı qanlı.
Nə bayatı hıçqırıb,
Deyəriz ağı qanlı?
Qılıncım dərdi kəsər,
Vuraram, ordu kəsər!
(*Başıdaşlı,*
*Gözüyaşlı*
*Oğlu ölən ana,*
*Oğlu ölən ata*
*Yıxıldılar Dəli Domrulun ayaqlarına)*

*Ata, Ana*

Bu dünya bizə dardı,
İtiyimiz nübardı,
Bir oğlumuz var idi,
Bax, Əzrail apardı.
Qara geyib ağlarıq,
Dizə döyüb ağlarıq,
Nə ömrümüz qalıbsa
Oğul deyib ağlarıq...

*Dəli Domrul*
Kim deyir dünya dardı,
Ağlamaq bizə ardı.
Əzrail necə qıyıb
Bu igidi apardı?

Savaşıma dözərmi,
Əzrail gəlsin görüm.
İndi onun payına
Düşər bu vaxtsız ölüm.
İgid oxla vurular,
İgid qılıncla ölər.
Özİi qayıtmasa da
Qanlı köynəyi gələr.

*Ata*

Vuruş görmədi, öldü,
Sinə gərmədi, öldü.

*Ana*

Axıtmadın qan, igid,
Boyuna qurban, igid!

*Dəli Domrul*

Qorxu bilmirsə Əzrail
Qoy gözümə görünsün.
Qılinc vurum, cəng edim,
İlan kimi sürünsün.
İgidlərin canını
Alım onun əlindən,
Bir də görən olmasın
Ölüm onun əlindən.

*(Tufan qopur,*
*Şimşək çaxır,*
*Göyün bağrı yarılır,*
*Yer çatlayır,*
*Əzrail yerdən çıxır).*

*Əzrail*

Mənimi çağırdın, igid?
Yaxına bir gəl görüm,

Gücünü göstər görüm!
Poladüz qılıncını
Torpaqda çürüdərəm,
Soyuq ilan-çayanı
Canına yeridərəm.
Nəfəsini alaram,
Boğularsan, igidim.
İndi çöküb qarşımda
Ağlayarsan, igidim!

*Dəli Domrul*

Nə heybətli qocasan,
Gözlərim görməz oldu.
Ayaqlarım tutuldu,
Niyə yeriməz oldu?
Buza dönür bədənim,
Qılıncım yerə düşür.
Cöngo gözün görəndə
Cana vəlvələ düşür.

*Əzrail*

Cöngə gözüm bəyənməzsən,
Gözü göyçək qızların
Canını çox almışam...
Ağsaqqal, qarasaqqal
İgidlərnı dizlərin
yerə vurub
Canını çox almışam...
Nə öyünərdin, Dəli Domrul,
Rəngin saraldı birdən,
Çıx döyüşə, cəng edək,
Bu meydan, bu mən, bu sən...
Gəldim alam canını,
Canını verərmisən?

*(Hava birdən qaralır,*
*Göy gurlayır, şimşək çaxır,*

*Əzrail gah yox olur,*
*Sağaan batıb, soldan çıxır,*
*Yerdən səs gəlir,*
*Özü göylərdən baxır.*
*Dəli Domrul qılıncını*
*Sağa çalır, sola çalır,*
*Yorulub əldən düşür.*
*Əzrail bir təpə üstə*
*Baxıb ona irişir).*

*Əzrail*
*Çal qılıncın, çal görüm,*
*Al canımı, al görüm!*
*(Sonra Dəli Domrulun*
*Sinəsinə çökür o,*
*Tutub yorğun əlindən*
*Qorxu, vahimə dolu*
*Bir dünyaya çəkir o).*

*Dəli Domrul*

Oğurluq can aldığını
Bilməz idim, Əzrail.
Bu səhvimi bağışla,
Burax gedim, Əzrail.
Bax, o dağlar bizimdir,
O üzümlü, almalı
Yaşıl bağlar bizimdir.
Şərabımız çox olur,
Hər kım içsə başından
Ağlı, huşu yox olur.
Şərablıydım, duymadım,
Nə söylədim, bilmədim.
Burax gedim, Əzrail...

*Əzrail*

Gəlmişəm boş qayıtmalıyam,
Bir can aparmalıyam.

Öz canın da olmasa
Özgəsinə qayılam.
Bir əzizin yoxmudur
Əvəzinə can verə?

*Dəli Domrul*
Bircə gün vaxt istərəm,
Sabah bir can gətirrəm.
Can olmasa, Əzrail,
Mən öz canımı verrəm...
Əzrail Sabah gecdir,
möhlətın
Bu axşama qədərdir.
Kimsə can verməyəcək
Bu ümidin hədərdir.
*(Obasına döndü Domrul,*
*Diz çöküb, bağır basıb*
*Atasının əlindan*
*öpdü Domrul).*

*Dəli Domrul*

Ağsaqqallı canım baba,
Bilirsənmi nələr oldu.
Küfr dedim Əzrailə
Uçub cəngə gələr oldu.
Köksüm basıb can istədi,
Ya da bir can dilər oldu.
Baba, səndən can istərəm,
Canın mənə bağlarmısan?
Yoxsa oğlum Domrul deyib
Gecə-gündüz ağlarmısan?

*Ata*

Gözümün qarası, oğul,
Canımın parası, oğul,

Gəlinimin çiçəyi, oğul,
Obamın göyçəyi, oğul,
Qarşı dağlar gərəksə
Qoy Əzrail aparsın.
Bol meyvəli bağ gərəksə
Qoy Əzrayıl aparsın.
Şahbaz atlarım gərəksə
Qoy Əzrail aparsın.
Dövlətim, varım gərəksə
Qoy Əzrail aparsın.
Dünya şirin, can əziz,
Cana qıya bilmərəm.
Məndən əziz anandır,
Dərdin ona degınən.

*Dəli Domrul*

Ana, ana, canım ana,
Bilirsənmi nələr oldu?
Əzrail sinəmə çöküb
Məndən bir can dilər oldu.
Babamdan bir can istədim,
Vermədi anam, vermədi.
İndi səndən can istərəm,
Söylə ana, sözün nədi?...
Mənə canın bağlarmısan?
Yoxsa oğlum Domrul deyib,
Üzə dırnaq çalarmısan,
Gecə-gündüz ağlarmısan?

*Ana*

Dolama beşikdə Bələdiyim oğul,
Ömrümü qurban dediyim oğul,
Dustaq olsaydm, oğul,
Qurtarardım birtəhər.
Oğul, yaman mənzilə
At sürübsən bu səhər.

O dediyin odaya
Vara bilmərəm, oğul.
Dünya şirin, can əziz,
Verə bümərəm, oğul...
*(Domrul yerində donur,*
*Şimşək çaxır, göy gurlayır,*
*Əzrail peyda olur).*

*Əzrail*

Dünya şirin, can əziz,
Kim verər öz canını?

**Dəll Domrul**

Eşit sözüm, Əzrail,
Yad qızdan halalım var, iki körpə balam var.
Daha bir minnətim var,
İsmarlayım onlara
Bircə əmanətim var,
Sonra canım alarsan.

*Əzrail*

İsmarla qoy gəlsinlər,
Sənin son nəfəsini
Qoy onlar da görsünlər.
(*Domrulun yanına gəlir)*

*Qadın*

Nə deyərsən, nə söylərsən,
Göz açıban gordüyüm,
Könül verib sevdiyim,
Qoç ərim, qoç igidim?!
Qarşı yatan dağları
Neylərəm səndən sonra?
Yaylasam, gorum olsun.
Çəmənindən keçərsəm

Tapdanan anın olsun.
Altun daş-qaş taxarsam,
Tabutum, sonum olsun!
Sənsiz su da içərsəm
İçdiyim qanım olsun!
Səndən sonra bir igid
Görsə gözüm kor olar.
İsti yatağım sənsiz
Buza dönmüş gor olar.
Səndən sonra bu canım
Qıyma igidsiz qalsın.
Əzrail, al canımı,
Yarın qurbanı olsun!

*May, 1982.*

### *LAL XƏRİTƏ*

Bir lal xəritədir, ana, sifətin
Demə ki, mən hara, xəritə hara.
Qara xal elə bir dövlət mərkəzi
Qırışlar yol kimi uzanıb ora.

Atamın baxışı od-alov imiş,
Neçə ürəklərə közü düşübdür.
Sənə də sözünü gözüylə demiş
Yoxsa baxışının izi düşübdür.

İllər öz atını çapıb getdimi,
Bir Ömrün yolları yatıb üzünə.
Bəlkə də qiymətli bir sənəd kimi
İllər imzasını atıb üzünə...

Böyütdün sən məni bir arzu kimi,
Gözümdə gözünün qarası qalıb.
Gəncliyin illərlə axıb su kimi
Üzündə dolaşıq məcrası qalıb.

Xatirə səpilib o qırışlara
Min hikmət söyləyər,
birin, dindir.
Mən özüm, mən
Özüm səninəm, ana
Bəs o qırışlardan hansı mənimdir?..
Bir lal xəritədir, ana, sifətin
Demə ki, mən hara, xəritə hara.
Qara xal elə bir dövlət mərkəzi
Qırışlar yol kimi uzanıb ora.

**ÖLDÜRDÜYÜM GÜNLƏR ÜÇÜN REKVİYEM**

*Sizin də gündoğan səhəriniz,*
*günbatan axşamınız var idi.*
*Ömrünüz dəqiqələr, saatlar idi.*
*Heçliyə bölünən vaxtım, heyf sənə,*
*ölən vaxtım!..*

İş yerim olardınız,
Bir şerim olardınız.
Uzun günlər içində
Siz qısaboy qaldınız;
Bağışlayın siz məni
Vaxtsız ölən günlərim.
Əllərimlə kiminsə
Telinə bağlamışam,
Sizi bir qandal kimi
Əlimə bağlamışam.
Qədrinizi bilməyib
Sonralar ağlamışam,
Bagışlayın sız mənı,
Vaxtsız ölən günlərim.
Siqaret tüstüsündə
Havaya uçan vaxtım,

Məqsədsiz saatlarım,
Havaya uçan vaxtım.
Ay qapalı günlərim,
Ay baxtlar açan vaxtım,
Bağışlayın siz məni,
Vaxtsiz ölən günlərim...

**BİR GÜN GÖRƏCƏKSƏN Kİ...**

Bir gün görəcəksən ki,
xatirələr şirindir;
Bir gün görəcəksən ki,
kölgən beli bükülü yapışıb ayağından arxan ilə süründü.
Bir gün görəcəksən ki,
xatirəyə dönübdür o şümşad əllərin də,
Bir gün görəcəksən ki.
dan yeri də söküldü qaranlıq tellərində...
Bir gün görəcəksən ki,
qızlar oğurlayıbdır sinəndəki şuxluğu;
Bir gün görəcəksən ki,
gəlinlik paltarı tək əynindən çıxarmısan donumdakı şaxlığı.
Bir gün görəcəksən ki,
uzanıbdır gecələr,
Bir gün görəcəksən ki,
ayağından asıldı qurğuşun tək küçələr.

Bir gün görəcəksən ki,
elə bil azalıbdır
Günəş, hava,
göy, işıq... Bir gün görəcəksən ki,
yamanca qocalmışıq...

**FİKİRLİ ADAMLAR**

Gecəni fikirlə səhərləyərlər
İnamı yolunda Ovod adamlar.
Vərəmlə,
İnfarktla zəhərləyərlər
Ürəkli kəsləri robot adamlar.
Ürək döyünəcək...
sıxılanda da
O, yeni bir həyat həvəsi tapır.
Fikirli adamlar
yıxılanda da
Torpaqda cazibə qüvvəsi tapır.
Duyğulu başlarda fikir daşınar;
Yağış yağacaqsa şimşəklər çaxar.
Sərxoş sürücülər, Nasaz maşınlar
Fikirli adamlar ovuna çıxar...
Dağların ürəyi sözlə dolanda
Zirvələr görünmür

Burunur çənə.
Nədənsə
Gün batıb, axşam olanda
Bu dünya fikirli görünür mənə.
Keçir beyinlərin qaranlığından
Fikirlər müqəddəs bir ziya kimi.

Fikirsiz,
Qayğısız,
Duyğusuz insan
Yaşayır dünyada bir röya kimi...
Hamar olmayıbdır fikrin meydanı
Zaman başqa cürə görüb əlacı.
Fikri əsrləri qabaqlayam
Ya tonqal gözləyib, Ya dar ağacı.
Sısqa bulağına ümman deyənlər
Çəkir firavanlıq,
Şahlıq fikrini. Bilmir ki,
cığırda iməkləyənlər
Yıxılır naşı bir kəndırbaz kimi. Ayıb...
Axa-axa durulub sular,
Ətəklər sellərin,
Zirvə qarındır.
Bu günü
Fikirlə yaradıbdılar.
Sabah da
Fikirli adamlarındır...

*Noyabr, 1978.*

**BOŞ BEŞİYİN LAYLASI**

*Müharibə illərində övladını itirən,*
*sonra bütün uşaq evlərini gəzən,*
*bala tapmaq ümidini itirməyən,*
*boş beşiklərə layla deyən analara ithaf edirəm.*

... - Qatar gəlir! - dedilər,
Bu xəbər
Çalxaladı izdihamı;

Vaqonlara sarı
Yüyürdü hamı...
Qocalar qapılardan girdi vaqona,
Cavanlar qapılardan, pəncərələrdən;
Qarışıq səslər içində
Ayaqlar üzülmüşdü yerdən...
Ananın əlləri üzüldü körpəsindən,
Dəli bir axar
vaqona apardı onu,
Havada yellənirdi
bala axtaran qolu.
Anasını gəzirdi
çılğın bir uşaq səsi,
-Ana!!! - Ana!!! -deməkdən
qaralmışdı nəfəsi...

***

Bir-birini tapmadı,
əllər havada qaldı,
Analar ehtiyacda,
körpələr vağzallarda, ərlər davada qaldı.
Anaları əritdi ər dərdi,
bala dərdi,
Gül əkdi ki, gül dərsin,
Gül əkdi
bəla dərdi.
Bircəm, hayanım, bala,
Oduna yanım, bala.
Dərd üstünə dərd gəlir.
Necə dayanım, bala?
Kimə tuş oldun, bala?
Qəmə qoşuldum, bala.

Ürəyim boş yuvadı,
Köçən quş oldun, bala.
Dağlar çəni soraqlar,
Simbül dəni soraqlar.
Sən layla həsrətində,
Laylam səni soraqlar...
Boş beşiyın üstündən
sürüşüb düşdü layla,
Göz yaşına qovuşub
qəmlə görüşdü layla.
Beşikdən körpə gözü
zillənməmişdi ona,
Laylanı belə qəmli
oxumamışdı ana...
Gecələr sübhə kimi
ulduz saydı, yatmadı,
Üz tutub boş beşiyə
nağıl qoydu, yatmadı,
Ümid dolu nağıllar
bəxtini oyatmadı;
Beşik boş idi yenə....
Vağzallara baş vurub
hər ötəndən soruşdu,
Dilində "bala" sözü
kirpikləri qovuşdu,
"Yuxu haramdır!" -- deyib
yuxusuyla vuruşdu;
Beşikboş idi yenə....
Tapdığı hər tikədən
payını saxlayırdı,
Gecə durub min kərə
beşiyi yoxlayırdı,

"Balamın ətri..." - deyib
yorğanı qoxlayırdı
Beşik boş idi yenə....
Laylası nalə çəkib
laylasi ağlayırdı,
Laylası gecə-gündüz
bala soraqlayırdı,
İçində bir təlatüm
hayqırıb çağlayirdı.
Beşik boş idi yenə....
Günlər ötüb keçirdi,
illəri gətirirdi,
Ananım saçına ağ
telləri gətirirdi,
Nələri aparırdı,
nələri gətirirdi,
Beşikboş idi yenə....

* * *

- Balam üşüyür... - dedi
Çöldə şaxta olanda.
Boş beşiyin üstünə
Yorğan salırdı ana.
Göy üzü tutulanda,
Buludlar qaralanda
- Balam yağışa düşüb, -
deyib dolurdu ana.
Yer tapmırdı özünə
nə evdə, nə eşikdə,
O bir son bahar kimi
solurdu, saralırdı.
İllər keçdi, övlad yox,
sükut yatdı beşikdə,

Bu sükutun içində
nəfəsi qaralırdı.
Bir gün xəbər eşitdi,
Bakıda "Uşaq evi"
deyilən bir bina var,
Anasını gözləyir
yetim-yesir uşaqlar...
Bakıya gəldi ana,
"Uşaq evi"ni tapdı,
Neçə körpə gözündə
ümid çırağı yandı.
Məlul baxışlar görüb
ana ürəyi qopdu,
Hər uşağın önündə
susub xeyli dayandı.
Bu körpə balaların
nisgili, dərdi birdi,
Solğun çöhrələrindən
intizar boylanırdı,
Uşaqların hamısı
oğluna bənzəyirdi,
Hamısının gözündə
ümid alovlanırdı.
- Bəlkə layla çalım mən,
balamın laylasını,
Yadından çıxmaz onun,
özü də oxuyurdu.
Laylasından tanıyar
bala öz anasını,
O, tək mənim laylama
Yatırdı uyuyurdu...
"Layla beşiyim layla,
Evim-eşiyim layla.

Sən yat, şirin yuxu gör,
Çəkim keşiyin layla.
Layla dedim ucadan,
Səsim çıxdı bacadan.
Allah səni saxlasın
Çiçəkdən, qızılcadan.
Layla dedim yatasan,
Qızılgülə batasan,
Qızılgülün içində
Şirin yuxu tapasan"...
Laylası nalə çəkib,
Laylası ağlayırdı,
Laylası ümid ilə
Bala soraqlayırdı:
"Layla balam, a layla..."
Birdən sanki quş kimi
qanad açdı uşaqlar,
"A-N-A!!!" -deyib üstünə
qaçdı bütün uşaqlar!..

*İyul, 1983*

## DAYAN, BAHAR ÇAĞIM

Günlərim xatirə evinə köçür,
Günlərim ömrümü su kimi içir,
Əriyir gözümün şəkil yaddaşı,
Qəlbimdə bir sevda ağrısı qalır.
Qarşıma çıxanlar hər addımbaşı

Qayğıya çevrilib qəlbimə dolur.
Gülən səhərlərin qəmli axşamı
Yenə şam yandırır məzar başında.
Dünyaya qonaqtək gələn insanın
Doğumu, ölümü məzar daşında.

Çəmən yaşılını,
Çiçək sehrini
Daşlar ki, köksündə yaşada bilmir.
Daşa ömür verib yaşadan insan
Adi bir daş qədər yaşaya bilmir.
Dəyişə-dəyişə fəsillər ötür,
Dəyişə-dəyişə nəsillər ötür.
Hər yaşıl yarpağın sonu xəzəlsə,
Elə bu dünyada bahar gözəlsə,
Dayan, bahar çağım, qışa tələsmə!
Yuxumuz ölümün məşq saatıdır,
Hər gecə gündüzün nəqaratıdır.
Bəlkə bir nəğmə də bəs idi bizə,
Son səda olardı "Qu" ömrümüzə.
Bu qədər həsrətli nəğmələr ötüb
Sükutla ölməyin nə ınənası var?
Köhnə qəbirlərdən təzə ot bitib,
Otun da yaşamaq təmənnası var!
İçib buludların göz yaşlarını
Hələ ki, böyüyür qışdan xəbərsiz.
Beləcə böyüdük bir zaman biz də
Bizimlə yatacaq daşdan xəbərsiz...
Boyumuz qədərsə torpaq payımız,
Niyə sərhəd-sərhəd böldük dünyanı?
Necə görmüşdüsə əcdadlarımız
Biz də onlar kimi gördük dünyanı.
Günəş həmin günəş,
Ay həmin aydır,
Həmin adamlarıq,
gəlmişik yenə.
Verdiyi ömrünü alandan sonra
Daha nə verəcək bu dünya mənə,
Dayan, bahar çağım, qışa tələsmə!
Bilirəm zamanı saxlamaq olmur,
Saatlar günləri doğrayır, biçir.

Qızara-qızara gələn günəşin
Azalan odunun ağrıları da
Bəlkə dan üzünün içindən keçir?!
Dünyada əbədi nə qalır görən,
Biz ki, əbədiyyət yolçularıyıq.
Günlər durna kimi ötüşür gedir.
Zaman sürətinə çatmaq olmursa
Deməli, müqəvva ovçularıyıq!
O qədər borcum var ana torpağa,
Borcluyam dərdiyim çıçəyə, gulə.
Məhəbbət borcumu demirəm hələ,
Borcluyam dərdiyim çiçəyə, gülə.
Agaca borcluyam,
daşa borcluyam,
Bir könül nəğməsi eşitmək üçün
Oəfəsə saldıaım quşa borcluyam
Pislərə nifrəti öyrədən dünya.
Zamanı şam kimi əridən dunya,
Daha nə verəcək,
nə verəcəksən?
Borcundan çıxmağa möhlət ver mənə,
Doyunca baxmağa möhlət ver mənə.
Qarşımda bu qədər dağ yaradıbsan
Zirvəyə çıxmağa möhlət ver mənə!..

**ÖMRÜN BU YAŞINDA**

Ömrün bu yaşında hərdən uşaq olmaq istəyirəm.
Bir daşla çilikləmək istəyirəm
Pəncərə şüşələrinə
tül kimi çəkilmiş
tənbəl yuxuları. Gecədon qorxan uşaq
gözünün heyrəti kimi
açılmaq istəyirəm
bu dünyaya.

Üzümə örtülən qapıları
ruh kimi keçə biləydim.
Gecənin səssizliyində
qəhərlə dolmuş ürəklərin
yuxusuzluğunu içə biləydim.
Keçib ana saçlarının ağ cığırıyla
bir ümidi gətirə bilsəm,
Şəhidlər xiyabanında uyuyan
bir cavana can verib
məzardan götürə bilsəm.
Qəfil bir sevinclə partlayardı bir evin qəmli sükutu.
Qəbiristanlıq nə itirəcək?
Olmasın bir qutu...
Ömrün bu yaşında
Nə cavan,
Nə qoca kimi qocasan.
Elə bıl yol ayrıcındasan,
Bilmirsən hansı tərəfə qaçasan...

*Dekabr, 95.*

**QORXULU BULUDLAR,**
**YAXUD TƏNHALIQ NAĞILI**

Axşaının tunc üzü -
heykəl sükutu,
Göylərdə parça-parça
qorxu buludu.
İçimdəki həsrətdən,
üşəndiyim təklikdən də
qaradır.
İsa kimi
çarmıxa çəkilən buludları
Düşürən olacaqmı?
Mələk qanadlı yalanlar
firlanır həndəvərində,

Açsam pəncərəni
otağıma dolacaqmı?
Topa-topa qaranlıq
fırlanır göy üzündə,
Sındırılmış bir şimşək
gizlənibdi gözündə.
Təyyarə qanadlarının
kölgələri görünür,
Buludlarda qurğuşun sürünür;
Qurğuşun yağmurundan
qoruna biləcəkmi adamlar?
Ac qalan atomlar
buludlardan sallanır.
Ölüm qorxusu çoxaldıqca
həyat ballanır... Bu bahar
qırıldı bal arıları,
Çiçəklər yetim qaldı.
Dünya yetim qalacaq
insanlar olmayanda.
Qoymayın dolsun buludlar,
boşalmağa nəyi olacaq dolmayanda.
Qəzetlərdən yüyürür üstümə
qaranəfəs xəbərlər; -
Fələstin qaçqınlarının naləsi,
Livanın hıçqırıq səsi,
İsrailin ərəblərə
yəhudi hədəsi...
Qalxıram barmaqlarımın ucuna, -
buludu tutam bəlkə.
Cırıb atam göylərin
bu gecə köynəyini,
Ulduzların gümüşü işığından öpəm,
Dünyaya ulduz işığı səpəm...
Çiçəkləyə sərhəd dirəkləri,
tikanlı bir gül ola,

Dərib bu çiçəkləri
düzələm yola.
Düzəm həsrətimin
torpağına, daşına;
Bir çiçək də aparam
Təbrizə,
- Azərbaycan məktəbinin açılışma...

* * *

Bu səhər nəm düşmüşdü günəşə,
Şehli şəfəqlər axırdı
göy üzündən. Nəmliydi dünya
suyu təzəcə kəsilınış arx kimi,
Kimsə nəğmə oxuyurdu
nəmli dodaqlarıyla
Səs də nəmliydi, nəğmə də.
Ay işığı kimi ilıq
bir hiss doldu qəlbimə,
Nəmli barmaqlarım
az qalırdı gul aça; Quşlar çırpırdı
qanadlarındakı höyüşü,
Yerdən göyə ümid damlası uçurdu,
Nəmli çəmənlə
bir uşaq qaçırdı
çəhimlər aça-aça.
Yalın ayaqları öpürdü torpağı,
Ürəyi köksündə
yamyaşıl üzüm yarpağı...
Bu səhər şeh düşmüşdü günəşə,
Buludlar dəsmal kimi
qurutmaq istəyirdi günəşi, nəmliydi özləri də.

Şeh gördüm çiçəklərin gözlərində.
Dolu bir qədəhə dönmüşdü lalə,
Sarala-sarala sönmüşdü nərgiz.
Gözü yaşlıydı dünyanın.
Çay daşları
təzə kəsilmiş ürək kimi buğlanırdı.
Hər şehdə bir günəş yanırdı, nəmliydi günəş!

**GÜLURƏM**

Mən əllərimlə
qaranlığa toxuna bilirəm,
Sevincdən qönçəsini çatladan
Çiçəklərin səsini eşidirəm.
Dağdan enən bulağın
büdrəyib üzüqoylu
yıxıldığını görürəm. Ağlayanda
göz yaşıma baxmaym, Kədərimə
qəh-qəh çəkib gülürəm...
Kəsilmiş ağacların
hıçqırıqları
səslənir qulaqlarımda,
Dodağımdan qaçan
təbəssümlərin
Ayaq izləri var yanaqlarımda.
İçimdə susuz bir həsrətin
dodaqları cadar-cadar,
Sevincli günlərim
barmaqla sayılar,
Kədər -
istədiyin qədər!

Qəzəbim,
Xəzinə üstündə yatmış
ilantək
bir himə bənddir;
Elə bil daş üstə yatıram,
Neyləyim,
dərdin üzü bərkdir...
Ürəyim sinəmdə deyil,
Əllərim də,
gözlərim də,
Yalnız çiçəklər önündə
əyilən dizlərim də,
Arxamca yüyürən
izlərim də
Hərəsi özü boyda ürəkdir!..
Elə ona görə də əllərimlə qaranlığa
toxuna bilirəm,
Qönçəsini çatladan çiçəklərin səsini
Eşidirəm,
Dağdan enən bulağın
büdrəyib üzüqoylu
yıxıldığını görürəm.
Ağlayanda
göz yaşıma baxmayın,
Kədərimə,
qəh-qəh çəkib
Gülürəm...

# *ALIN BU KƏDƏRİN ƏLİNDƏN MƏNİ...*

## ALIN BU KƏDƏRİN ƏLİNDƏN MƏNİ...

Gəlmişəm dünyaya alışam, yanam,
Bir ünvan arayıb əbədi qalam,
Məni kədər üçün doğmayıb anam,
Alın bu kədərin əlindən məni.
Hicran ağır yükdür, qaldırammıram,
Dərdim dil bilməyir, qandırammıram,
Sönmüş çıraqları yandırammıram,
Alın bu kadərin əlindən məni.
Bir vida nəğməsi yazıb qalmışam,
Adımı bir qəlbdən pozub qalmışam,
Kədərin içində azıb qalmışaın,
Alın bu kədərin əlindən məni.
Hara gedirəmsə qaranlıq baxır,
Bu qara buludlar, axır, hey axır...
Hara qaçıramsa qarşıma çıxır,
Alın bu kədərin əlindən məni.
Bir iynə ulduzu işığa möhtac,
Qaranlıq qismətim,
işıq- ehtiyac!
Məndən doymaq bilmir
o gözləri aç,
- Alın bu kədərin əlindən məni.
Bir ümid yoxdur ki, onəlli tutam,
Yuxum da gəlmir ki, doyunca yatam,
Hardasan, ay anam,
Hardasan, atam!
- Alın bu kədərin əlindən məni.
Laldı bu kədərim ağlamır, gülmür,
Dərd verir, verdiyi dərd nədi bilmir,
Niyə gecələrin səhəri gəlmir?! –
Alın bu kədərin əlindən məni...

## MƏN BELƏ BİR ÖMRÜ İSTƏMƏMİŞDİM

Qarışqa yükü qədər sevincim,
Dərddən böyük kədərim,
Zamanın qadağa zənciriylə
Qandallı əllərim.
İçim yaşadığım dünyadan böyük,
Və bu dünyada sarmaşıqlar üçün
Dikələn ağaclardan biriyəm.
Özümə gərək ola bilmədim
Bəs, onda kimə gərəyəm?
Xatamı eyləyib dünyaya gəldim,
Gəldim... yaşadım... öldüm... Nə olar!..
Yaxşıdan çox pisi gördüm.
Suya düşmüş pambıq kimi
Su çəkib ağırlaşdı dərdim. Bəlkə də dünyaya
bir anlıq baxmağa gəlmişdim,
Kimnisə tələsinə ilişdim.
Allahım, axı, mən
Belə bir həyatı
İstəməmişdim.

## NƏLƏR GÖRDÜM BU DÜNYADA...

Bilən yoxdu sirri nədi
Nələr gördüm bu dünyada.
Xeyri nədi, şəri nədi,
Nələr gördüm bu dünyada.

Sudan quru çıxan gördüm,
Dərdə gülüb baxan gördüm,
Ev tikib, ev yıxan gördüm
Nələr gördüm bu dünyada.

Xeyirlə şər qoşa gəldi,
Bu cahanı fani bildi.
Mərd ağladı, namərd güldü,
Nələr gördüm bu dünyada.
Hər ocaqda acı tüstü,
Qışı soyuq, yazı isti,
Bilmirəm yaxşıdı, pisdi,
Nələr gördüm bu dünyada.
Dost bildiyim haqqı dandı,
Haqqı danan oda yandı,
Dünya əvvəldən yalandı,
Nələr gördüm bu dünyada.
Biri gedər, biri gələr,
Hər gələn dünyanı bölər,
Bu dünya çətin düzələr
Nələr gördüm bu dünyada.

May, 1996

**QAYTARIN MƏNƏ**...

Hələ ki, ömürdən aparır illər,
Qaytarin, dözümü qaytarın mənə,
Yudu torpağımdan izimi sellər
Qaytarın, izimi, qaytarın mənə.

İl ilə qovuşur, həsrət sovuşmur,
Xırda sevinclərə əlim yovuşmur,
Yerlə göy qovuşur, Vətən qovuşmur
Qaytarın, özümü, qaytarın mənə.

Qapını bağladıq damdan girdilər,
Yurdumu yadlara peşkəş verdilər,
Bəsdi gözlərimə kül üfürdülər,
Qaytarın, gözümü, qaytarın mənə.

Söz dedim dağlardan qayıtdı sözüm,
Yadlar tapdağında şumlandı düzüm,
Mənim Qarabağda qalıbdı gözüm,
Qaytarın, gözümü qaytarın mənə.

Dekabr, 1996

**ALLAHA ŞİKAYƏT**

Ömrüm gedər gəlməz yoldu,
Acısı da məna baldı,
Ətəyində əlim qaldı,
Məni görmədin, Allahım.
Ömür verdin ölmək üçün,
 Kədər verdin bölmək üçün,
Könül verdin sevmək üçün,
Sevgi vermədin, Allahım.
Çox atdılar söz daşını,
Hər kəs qoruyur başını,
Axıtdılar göz yaşını,
Sən də silmədin, Allahım.
Mən tutdum lıaqqın yolunu,
Haqsızlar qırdı qolumu,
Səni sevən bir qulunu,
Niyə sevmədin, Allahım?
Ömrüm həsrət qaldı yaza,
Sən yazanı de kim pozar,
İmkan verdin insafsıza,
İnsaf vermədin, Allahım.
İllərimi sərt göndərdin,
Ağrılı həsrət göndərdin,
Çəkilməyən dərd göndərdin
Dözüm vermədin, Allahım.

*Yanvar, 1997*

**BU GÜN...**

Kölgəm ayrılacaq məndən,
Yuvasından ayrılan quş kimi,
Buluddan ayrılan yağış kimi.
Ana döşündən ayrılan körpə kimi
Ayrılacaq ayaqlarımdan.
Ürəyimdə sızlayacaq
Kölgəsiz gəzməyin tənhalığı;
Kölgəmin kor gözü,
kar qulağı
Bu gün mənim qədər duyacaq
Dəryada dərdini xalıq bilən
sahildən qayıtmış balığın...
Kölgəm ayrılacaq məndən
Azadlığa qovuşan zənci kimi
Azadlıq ayaqlarına dolaşacaq
zəncir kimi.
Büdrəyə-büdrəyə yeriyəcək
məndən ayrılan kölgəm,
Torpaqda dizin-dizin sürünəcək,
Divarlardan tutub ayağa qalxacaq,
Suların üstündən körpülər salacaq,
Çəmənlərdə daranıb didiləcək,
Sürtülə-sürtülə
bıçaq kimi itilənəcək.
İşıqda doğulan kölgəm
öz bıçağıyla
qaranlıqda qətl ediləcək.
“Uf” da deməyəcək,
çıxarmayacaq səsini kölgəni,
Mənim Nəsimi kölgəm....
Bu gün kölgəm ayrılacaq məndən
O mənim,
mən isə ruhumun kölgəsiyəm.

Mən kölgəm ayrılan gün öləsiyəm...
Elə öləsiyəm
ölüləri güldürəcək qədər,
Bu gün elə cəsarətliyəm ki,
özümü öldürəcək qədər...

**MƏNSİZ DÜNYA**

Mənsiz qalacaqdır bu dünya bir gün,
Kiminsə gözünə yaş gələcəkdir.
Mənsiz qalacaqdır bu dünya bir gün,
Bir daş qəmli-qəmli dikələcəkdir.

Dodaqdan gülüşləri silinər adım,
Ömür - sonu gələn keçilən yoldu.
Dünya gəlişimdən xəbər tutmadı,
Bəlkə gedişim də xəbərsiz oldu.
Köçüb gedəcəyəm günün birində.
Hicran göyərəcək yerimdə mənim.
Kimlərinsə gizli cib dəftərində
Öləcək telefon nömrəm də mənim.
Qara çərçivədə baxacaq şəklim,
Donuq gözlərimdə daldalanar qəm.
Sinəmdə duyğutək yatar əllərim,
Oyadıb son şeri yaza bilmərəm.
Qara daş doğular,
soyuq, mən adda,
Bir qadın hıçqırıb saçını yolar.
Ayrılıb gedərəm,
tabutum altda
Dörd çiyin görüşər,
Dörd ürək vurar...
Mənim çarpayımda sükut uyuyar,
Artar bir sakini qəbristanın,da.

Bir çiçək kökünü sinəmə qoyar,
Rəngi ləçəklərə keçər qanın da.
Gəlib bu çiçəyi dərənim olmaz,
Bahar göyərdəcək,
Qış solduracaq.
Kiçik bir təpədə çiçəklər hər yaz
Yorulmuş çiynində qəm qaldıracaq.
Köçüb gedəçəyəm dünyadan bir gün,
Bəlkə yüz il sonra,
bəlkə də sabah.
Bəlkə bir qu kimi
çırpınıb bu gün
Nəğmə oxuyuram ölümdən qabaq...

Yanvar, 1982

KOR ÖLÜM

Kor bir ölüm axtarır məni,
Səsimə boylanır.
Ümidimin kələfi əlində,
Bəxtimin qara tərəfi əlində
Ucunu tutub
ucuzluğa getməz,
Nəfəsimi hiss etsə
yanımdan ötməz,
Məni tamnaq ümidi itməz...
Günləri
güllətək axtar arxamca,
Sağımda gedənə dəyər,
Solumda gedənə dəyər,
Sağım boşalar, Solum boşalar...
Axırda biri də mənə dəyər.

*Oktyabr, 1982*

## HAZIR QƏBİRLƏR

Gərək gəlməyəydim bu son mənzilə,
Nə deyir dikələn o daşlar görən?
Bu qəmli küləyin ağlar səsinə
Kimdi gözlərinin yaşını verən?!

Hər gün yuxu ömrü veririk yenə,
Yumulu gözlərin qəm kölgəsi var,
Yaxşı ki, yuxudan dururuq hələ,
Bir gün oyanmamaq təhlükəsi var.

Sükutu ağırdır bu daş səbirin,
Üstü hıçqırıqlı gün qabaqdadır.
Hasara alınmış bu boş qəbirin
Ölüsü bəlkə də kef-damaqdadır.
Təlaş yeri deyil,
Ölüm ki, haqdır,
Geriyə qayıtmır bu evə girən.
Yaxşı ki, kirayə qəbirlər yoxdu,
Pulsuz neyləyərdi ölülər görən?!
Bir "şəhər" salınır köhnə dərədə,
Neçə təzə-təzə özül var burda.
Növbəli, növbəsiz ölənlərə də
Hazır, təkotaqlı "mənzil" var burda.
Daşlar ayaq tutub haradan qaçıb,
Dizəcən torpağa girib, bitirlər.
Ac quş balasıtək ağzını açıb
Yemini gözləyir bu boş qəbirlər.
Yorulub tərini silir daşyonan,
Hamar daşlar üstə baxışı dondu.
Şübhəydi içində alışıb-yanan;
Bu daş bəlkə onun qisməti oldu.
Yenə insan-insan yarpaqladı yol,
Tabutun önündə inləyən kimdi?

Naşı balabançı,
öz işində ol,
Matəmdə musiqi dinləyən kimdi?!
Sən öz iş yerini gör tapdın harda,
Dəfn bürosuna mehrini saldın.
Usta çalğıçılar toyda, mağarda,
Sənsə göz yaşına dəm tutan oldun.
Axır, dayanmayır həyat sel kimi,
Ölüm addım-addım izləyir bizi.
Sərnişin gözləyən karusel kimi
Ölüm "Qurd ağzı"'nda gözləyir bizi...
Ay qəbir qazanlar,
gedin ev tikin!
Bu qəmli dərədə plan ki, yoxdur.
Siz zəhmət çəkməyin...
Axı, bir də ki,
Ölüsü çöllərdə qalan ki, yoxdur.
Bu qoca dünyada ömrumüz qısa,
Bizi qanadında aparır illər.
Çoxu ev gözləyir...
Ancaq burdasa
İnsan növbəsində durub qəbirlər.
Rahatlıq axtaran ucuz qayğılar
Sonuncu yerini min yol yoxlayıb.
Hazıra o qədər vərdişlilər var.
Bir "bron" yeri də burda saxlayıb...
Bəsdir, yuva-yuva qazdınız yeri!
Bəlkə də karvanı dayandı köçün. Bağlayın!
Bağlayın, boş qəbirləri, Açın!
Həyat üçün qapılar açın!!!

## ÖLÜMƏ TƏRƏF

Gedirik deyə-gülə,
Gedirik ölümgilə.
Gedər-gəlməz yoldu bu,
Kim qayıda, kim gələ?!
Olüm, qarşıla məni.
Piyada səbrimiz yox,
Maşın qəzası nə çox...
Həyat üzük içində, -
Hansı tərəfə qaçaq;
Ölüm, qarşıla məni.
..
Omür - sinif dəftəri,
Saylıdır varaqları.
Əlimiz yetməz ona,
Təzədən yazaq barı;
Ölüm, qarşıla məni.
Hələ tezdir, igidim,
Nəyim var, nə üyüdüm.
İki körpəm gözləyir,
Möhlət ver qoy böyüdüm.
Ölüm, qarşıla məni...

*Noyabr, 1981*

## QAPAMAYIN GÖZLƏRİMİ...

Vaxtlı-vaxtsız bir ölümdür, gələcək,
Boğub məni qəh-qəh çəkib güləcək,
Açıq qalan gözlərimsə görəcək,
Qapamayın gözlərimi, amandır!
Baxacağam yurdumun dan üzünə,
Tarixində quruyan qan izinə,
Gözüm dönər bir tufan dənizinə,
Qapamayın gözlərimi, amandır!

Bir cüt çiçək - gözlərimdir, baxacaq,
Zirvələrə izlərimdir, çıxacaq.
Bir bulağa qoşularaq, axacaq,
Qapamayın gözlərimi, amandır!

Ulduzlara qoşularaq hər gecə,
Dönəcəkdir göy üzündə nərgizə,
Ana yurdum gozəlliyə sərgisə
Qapamayın gözlərimi, amandır!

Gülə-gülə qovuşanda il-ilə,
Görəcəyəm Araz axır gül ilə,
İmkan olsa durbin qoyum qəbrimə,
Qapamayın gözlərimi, amandır!

## ÖLÜMƏ GEDƏN YOL

Anadan olan gündən başlayır
ölümə gedən yol.
Sürünə-sürünə,
iməkləyə-iməkləyə,
Yüyürə-yüyürə gedirik
ölümə tərəf.
Yol boyu qoxladığımız
ölümün çiçəkləridir,
Qışın soyuqla, sazaqla ağaclara, otlara,
yer altında gizlənmiş
köklərə etdiyi zülmün çiçəkləridir
yol boyu qoxladığımız...
Sevən gündən başlanır
ölümün enişi,
yolumuza işıq saça-saça,
bizimlə gedir
ölümün günəşi.

Saralmış bəniziylə
hər axşam
ölümü adiləşdirib bizə.
Ölüm,
qaynar baxışlarıyla
mavi-mavi, yaşıl-yaşıl,
qapqara rənglər çəkir
qurbanlıq qəibimizə...
Ömrün ixtiyar yaşında başlayır
ölümün yoxuşu
Həmin vaxta düşür
ömrün sonuncu qışı.
Sürünə-sürünə
dırmaşırıq ölümün zirvəsinə. ...
Və sonra
şəlalə kimi atılırıq qaranlıqlar içində
ulduzları sayrışan ölümün hövzəsinə...
Ölən gündən başlayır
həyata gedən yol...
Biz isə
ölümlə həyat arasında
Ruhların
marşrut trolleybuslarıyıq...

**ALLAHA TƏRƏF...**

Əlimdə ölüm bileti
Gəlirəm Allaha tərəf.
Özü verdiyi qisməti
Bölürəm Allaha tərəf.

Uduzub can savaşını,
Atıb inadın daşını,
Silib gözümün yaşını,
Gülürəm Allaha tərəf.

Ömür aldım sələminə,
Barışmışam qəmim ilə,
Çox günahı əlim ilə
Silirəm Allaha tərəf.

Ürəyim qəm yuvasıdı.
Qəm sevinci qovasıdı.
Bu da bir can qovğasıdı,
Bilirəm Allaha tərəf.

Hər gələn dərd satır gedir,
Bəxt mürgülü yatır gedir,
Namərd güllə atır gedir,
Sinirəm Allaha tərəf.

Zaman bir dəli burulğan,
Millətdən gedir qınları,
Hələ ki, susub dururam,
Dinirəm Ailaha tərəf.

Yolunan diri yolunur,
Yolmağa səbəb bulunur,
Haqqım əlimdən alınır,
Dönürəm Allaha tərəf.

Omür durularaq axır,
Gedəcəyəm əvvəl-axır,
Tanrım üzümə xoş baxır,
Ölürəm Allaha tərəf.

*İyun, 1996*

**ALLAHDAN İSTƏYİM...**

Diz çöküb qarşında dua edirəm,
Ucalardan uca bılirəm səni,
Saxla Öz yanında ruhumu,
Allah, Bir də bu dünyaya gətirmə məni.

Sirli röyalarım dağılacaqsa,
Arzum gözlərimdə boğulacaqsa,
Əzabım mənimlə doğulacaqsa,
Bir də bu dünyaya gətirmə məni.

Namərdi mərdindən çox olacaqsa,
Alim ac, gədalar tox olacaqsa.
Yaranmışlar bir gün yox olacaqsa,
Bir də bu dünyaya gətirmə məni.

Bu dünya zövq-səfa verməsə əgər,
Hər dərdə bir şəfa verməsə əgər,
Əzrayıl istefa verməsə əgər
Bir də bu dünyaya gətirmə məni.

Bu yalan dünyanın tərs aynası var,
Sevincə bənzəyən çox bəlası var.
Təkrar görməyimin nə mənası var?
Bir də bu dünyaya gətirmə məni.

Gördüm bu dünyanı - quru qəfəsdir,
Bizlərə verdiyin ibrətli dərsdir,
Bir dəfə peşiman olmuşam, bəsdir! –
Bir də bu dünyaya gətirmə məni...

Diz çöküb qarşında dua edirəm,
Ucalardan uca bilirəm səni,
Saxla öz yanında ruhumu,
Allah, Bir də bu dünyaya gətirmə məni.

# *Kişilik məktəbi*

## GÖRMƏMİŞƏM O İLLƏRİ...

Mən ki, görməmişəm o sərt illəri,
Ağrını, acını babam duyubdur,
Qocanın kürədə yananda əli
Nənəm göz yaşıyla məlhəm qoyubdur.

"Azadlıq" deyəndə ayaqlarında
Buxov sürükləyib, qandal gəmirib,
O, evdən gedəndə dodaqlarında
Təbəssüm aparıb, al qan gətirib.

Keçirib ömrünü töycü içində,
Qocanın gözündə yurd salıb qubar,
Çiynində el dərdi, ovcu içində
Sıra dağlar kimi düzülüb qabar.

Dərdini çəkiclə zindana yazıb,
Qəlbində min arzu, min istək sönüb.
Yox! O, dəmir imiş...döyülüb, qızıb,
Sellərdə soyuyub, polada dönüb.

Dözməyib, səbrinin kasası dolub,
Qanıyla rəngləyib bayrağını o.
Qəzəbi, nifrəti qurğuşun olub
Dağıdıb əsarət dayağını o...

Bəli, gönməmişəm o sərt illəri,
Qəlbimdə yaşayır adsız itənlər.
Alqış tək götürsün bu sətirləri
Canını xalq üçün qurban edənlər.

## ƏSGƏR NƏĞMƏSİ

Polad qanadlardan göylər kiçilər,
Bir güllə bir ömrü qoyar yanda,
Göylərdə itməyib təyyarəçilər;
Gecələr sayrışır paqonları da.

Hər qəlbdən qəhrəman bir Həzi baxır,
Burda hərarəti vardır qarın da,
Çıxıb Neptun kimi dənizdən
Qafur Saxlayır dənizi ovuclarında.

Vətəni qorumaq şərəfli, uca,
Torpaq bu şöhrəti qaldırar göyə,
Əsgərlər sürünər cəbhə boyunca –
Vətən ayaqlara düşməsin deyə.

Partlayar qəzəbi ağır topların,
Hardasa ömürlər ünvansız qalar,
İgid gərayların, matrosovların
Sonuncu qumbara ürəyi olar.

Pozulmaz poladdan yoğrulan cərgə,
Düşmən gücümüzdən sarsılar, çaşar,
Hər əsgər köksündə ürəklə birgə
Bir Vətən döyünər, bir Vətən yaşar.

## ƏLİBOŞ YOLLAR

*Müharibədən qayıtmayan atalarımızın,*
*qardaşlarımızın əziz xatirasinə.*

Hardasa səngərə yatıbdır yollar,
Hardasa körpüsü parça-parçadır.
Yenə nağıl deyir, nağıl analar,
Yenə nağillarda yollar haçadır...

Yenə bu yolların gedər-gəlməzi,
Yenə oğuların yoldan dönməzi,
inadlısı var.
Yenə anaların yuxularında
Yollar sərhədlərdə alışıb yanar.
Tikanlı məftillər,
qanlı məftillər Ana yuxusuna
İlişib qalar... Bir mərmi səsindən diksinər onlar,
Nəmli gözlərindən pozular yuxu.
"Sonu xeyir olsun...
qan qovuşuqdur"
- Həmişə beləcə yozular yuxu...
Analar həsrətlə yollara baxır,
Yollar üfuqlərə qovuşub itir.
Düzlərdə yüyürür,
dağdan yıxılır,
Yollar cəbhələrə ümidlə gedir,
Yollar cəbhələrdən əliboş gəlir... Yox!
Onlar bir ümid, həsrət simidir,
Yollar da vurulur, Yollar da ölür.
Əsgərlər əynində paltar kimidir;
Yollar əsgərləri soyunub gəlir...
Gəlin!
Ünvan verin siz itən yola,
Dedirik gələrik,
gəlmirsiz niyə?
Analar su səpir siz gedən yola –
Bəlkə izləriniz göyərdi deyə...
Bəlkə nişanlayıb güllələr sizi,
Burda nişanlılar gözü yoldadır.
Bir barmaq gülləyə ürəyinizi
Üzük edibsiniz,
Bəlkə də "bəlkələr" bizi aldadır.

Hər payız köç edir durna qatarı,
Hər payız göylərdə lələk yolurlar.
Durnalar gedəndə sizi aparır.
Gələndə bəs niyə sizsiz olurlar?!
Gəlin!
Ünvan verin siz itən yola,
Dediniz gələrik,
gəlmirsiz niyə?
Analar su səpir siz gedən yola
Bəlkə izləriniz göyərdi deyə...

*1968*

## YOLLAR PƏRİŞAN DEYİL

Bir gecə qaranlıq ötdü yolları,
O gecə dincliyi oğurladılar.
Yaman qayğı çəkən oldu uşaqlar,
Sabahdan gənclıyi oğurladılar.
Tüfəng götürdülər,
boydan ucaydı, Getdilər.
analar günləri saydı.
Od kimi oğullar oda düşdülər,
Qanlı çaydan keçib dağlar aşdılar,
Vuraşa-vuruşa Gəraylaşdılar,
Vuruşa-vuruşa Mehdiləşdilər,
Vuruşa-vuruşa mətinləşdilər...
Qələbə çalaraq döndülər geri,
Dincliyi təzədən qaytardı yollar,
Gəncliyi təzədən qaytardı yollar...
Açıb gen qoynunu düzlər gəl dedi,
Arzular cücərib qol-budaq atdı.
Yorğun qayıtmadı cəbhədən əsgər
Doğma ocaqda da qurub yaratdı.
Gülüşü gül olub əllərdə gəzdi,
Adı nəğmələşib dillərdə gəzdi.

Gəray sinəsini verdi irəli,
O gün dəli Kürün önünü kəsdi.
Gördülər əlində silah tutmayıb,
Gördülər əlində çıraq tutubdur.
Yenə həmin zəfər, həminki hünər,-
Bu dəfə adına Sarvan dedilər,
Sevili gördülər
elə bildilər
Sükan arxasında Zoya durubdur.
Gördülər qayıdıb Qafur döyüşdən
Sərdar olubdur...
Gördülər yollar da çən-duman deyil,
Bu toylu-düyünlü qayıdış üçün
Yollar pərişan deyil.
Hər körpə əlləri gül qönçəsidir,
Sabahın özü var, sözü var onda.
Gənclik yenilməyən bu günüm mənim,
Böyük gələcəyin gözü var onda.
Qəlbimiz dost üçün açıq süfrədir,
Əlimiz zəhmətdən yoğrulub sanki.
Yollar genişlənər, yollar uzanar,
Obanı-obaya calayıb gələr.
Qəlbində hərb odu cücərənləri
İldırım oduna qalayıb gələr.
Boylanıb dünənə köks ötürməz o,
Ətalət adında söz götürməz o!
Əzizdir dünəni, xatirə kimi,
Bu yollar heç zaman yerində saymaz,
İrəli nzanar, yalnız irəli
Baxıb dünəninə pərişan olmaz!

**İSTƏK**

Qoy bir kimsə eşitməsin,
"Qorxulu" bir sirr deyirəm:
Çoxdandır ki, bir arzum var,
"Oğru" olmaq istəyirəm...

İnsanların arasından
Əqidəsiz adamları,
Vicdanını pula satan
nadanları
Oğurlamaq istyirəm.
Bu dünyanın günü-gündən
Niyə artır dərdi-səri?
Dövlətlərin arasından
sərhədləri
Oğurlamaq istəyirəm.
Axı, nə iş görmüşəm ki,
Oğurluq da işdi barı...
Mən anaram sifətinə
Vaxtsız düşmüş qırışları
Oğurlamaq istəyirəm.
Birisini yıxmaq üçün
İkisinin ülfətini,
İnsanların ürəyindən
Hər kinini, nifrətini,
Yalanını bundan ona,
Ondan buna satanları,
İki sevən arasından
O üçüncü adamları
Oğurlamaq istəyirəm...
Araz axır,
Bu taydan da insan baxır,
O taydan da insan baxır,
Neçə milyon
Gözüyaşlı əzizimi,
O həsrətli Təbrizimi
"Oğurlamaq" istəyirəm...
İndi neçə dövlətlərdən
Məzlumların ah-zarını,
Yad torpaqda yatıb qalan,
Əsrlərin arxasından
Qollarını çatıb qalan
Kərbəladan Füzulinin,

Hələbdənsə Nəsiminin
məzarını
Oğurlamaq istəyirəm...
Həbslərdə ömür sürən
Azadlığın neçə-neçə
haqq qızını,
"Müharibə" deyənlərin
saqqızını
Oğurlamaq istəyirəm.
Nə gizlədək, bilir hamı,
Oda tutmaq isləyirlər
bu cahanı.
Qəlbini deyir:
Bir məsəli yadına sal,
"Oğrudan oğruya halal..."
Prometey oğurlayıb
İnsanlara verən odu
Oğurlamaq istəyirəm!
Lap qəzəbi tutsa belə,
Yerin mənə, Göyün mənə,
Nə deyirsiz deyin mənə
"Oğru" olmaq istəyirəm!..
Oğru olmaq istəyimlə
Doğru olmaq istəyirəm!

*1967*

**İLK ADDIM ATIRSAN**

*Rəşadla Araz üçün*

I

AYAĞA DURUBSAN

Ayağa durubsan,
Addım atırsan,
Yaxşı ki, sürünmək bezdirib səni.
Divardan-divara güclə çatırsan,
Hər addım yenidir,
Hər sevinc yeni...
Əllərdə qalmasın nigaran gözün,
Hər addım atanda
təzədən doğul.
Yıxıl,parça-parça kəsilsin dizin,
- Ətəkdən tutmağa öyrənmə, oğul!
Yaxşını, yamanı özün seçərsən,
Oğlum,
Qanadlı quş göysüz qalmayır.
Dəniz var,
tay əllə üzüb keçərsən,
Çay var körpüsündən keçmək olmayır...
Oğulsan...
Adına yaraşmaz qorxmaq,
Uca zirvələri cəsarət alır.
Dünyanı çiynində fırladan torpaq
Bəzən kəndirdən də ümidsiz olur.
Vaxt gələr,
Qarşında zirvələr çökər,
Uzaq ulduzlara yetişər əlin.
Vətənə bir güllə atılsa əgər

Addım at,
Sinənə dəysin o sənin!
Arazın suları bayatı deyir,
Cəngidir,
Muğamdır səsi Kürün də...
Canından keçməyə irəli yüyür,
Torpaqdan keçməyə
geri sürünmə!..
Yaxşılar yanında görünsün yerin,
Ürək qızdırmağa
ocaq ol, ocaq,
Vətən torpağını
öpsün
İzlərin,
Vətən çörəyini tapdama ancaq!..

**II**

**SƏHƏRLƏR, AXŞAMLAR**

Səhərlər göz yaşı izləyir məni,
İzləyir qapıdan çıxana qədər.
Sıxıb gözlərini,
yumruqlarını
Oğlum divarlardan istəyir məni,
Bilmir bu hıçqırıq hədərdir, hədər...
Beləcə başlanır "Bağça"da səhər,
O məndən ayrılır göz yaşlarıyla.
Dayələr ovudur onu birtəhər,
Sussa da soruşur baxışlarıyla.
Sonrasa
aldanır oyuncaqlara
Mehri pələngəmi,
atamı düşür?

Qoşulur kirimiş o, uşaqlara
Eh, uşaq yadına atamı düşür?!
...Gedirəm,
göz yaşı izləyir məni,
Getmir qulağımdan o səs, o səda.
Telefon,
dost-tanış gözləyir məni
Təriflər, təbriklər, xahişlər... ya da...
Beləcə gün keçir,
gah axşam olur
Gah suya düşürəm,
Gah da ki, oda.
Örtürəm qapını,
işdəcə qalır
Təriflər, təbriklər, xahişlər... ya da...
Gəlirəm,
"Bağça"dan işıq saçılır,
Səhər göz yaşıyla örtülən qapı
Axşam nəğmələrə,
gülə açılır.
Ömrüm -
gün üyüdən su dəyirmanı;
Səhərlər göz yaşı izləyir məni,
Axşamlar təbəssüm gözləyir məni...

**III**

## QORU GÖZ YAŞINI...

Qoru göz yaşını, qurbanın olum,
Ağlama gördüyün oyuncaq üçün.
Qoru göz yaşını, qurbanın olum,
Çalış bir gün ağla od-ocaq üçün.

Gördüyün maşınlar
Bu fillər, atlar...
Hamısı yalançı,
Hamısı yalan.
Qəpik-quruş olan
yalan saatlar,
Donmuş əqrəblərdir,
yerində sayan...
Sən hələ bilmirsən dəli köhlənin
Cıdır açmağı var,
Bərk qaçmağı var.
Sən hələ bilmirsən fillər köhnəlir,
İndi adamları yeyir maşınlar.
Getsin cəhənnəmə hər qara maşın,
Ağlamaq öyrənmə, dik olsun başın.
Ağlasan, qəlbinə axsın göz yaşın
Kimsə hiss etməsin,
Kimsə görməsin.
Sənsən gələcəyə uzanan yolum,
Sən mənim qanadım,
Sən mənim qolum.
Qəm göz yaşım, qurbanın olum,
Qəm, üstümüzə yadlar gülməsin.
Bu elin Arazı,
Kür qırağı var,
Elin söz hikməti,
Söz yarağı var,
Bu ata yurdunun bir çırağı var, -
Qoru küləklərdən odu sönməsin.
Böyü, arzuların böyüsün sənin,
Alan əməlinlə öyünsün sənin,
Sinəndə bir vətən döyünsün sənin
Qəlbin bu sevdadan heç vaxt dönməsin.

Kədəri gizlədib gülməyi bacar,
Sən ağlar gözləri silməyi bacar,
Bu vətən yolunda ölməyi bacar,
Vətən ayaqlara düşüb ölməsin...

Qoru göz yaşını, qurbanın olum,
Çalış bir gün ağla od-ocaq üçün.
Qoru göz yaşını, qurbanın olum,
Ağlama gördüyün oyuncaq üçün.

*1976-1979*

**OĞLUM ARAZA**

Vətən alov etsin odunu sənin,
Böyü bu torpaqla,
bu yurdla öyün.
Mən Araz qoydum ki, adını sənin
Evimdə Arazı çağırım hər gün.
Bil ki, bu torpağın Araz dərdi var,
Kim deyir Arazın bir az dərdi var?
Don vurmuş həsrətin muraz dərdi var,
Hələ ki, sonunu görən tapilmır?
Qardaş kef içində,
bacı pərişan, Təndiri kor gözdür,
sacı pərişan,
Əllərdə yolunan saçı pərişan,
Niyə daraq çəkib hörən tapılmır?
Bu həsrət həmişə təzədir, təzə,
Sərhəd dirəkləri soxulur gəzə,
Ümidin kələfi toxunub bizə,
Hələ nişanını verən tapılmır.
Sulara deyirik əhvalımızı,
Cavabsız göruruk sualımın.

Göz yaşıyla yuduq dəsmalımızı,
Gəlib bu dəsmalı sərən tapılmır.
Əlimiz yetişmir göz görə-görə,
Oğulsan bu dərdə döz, görə-görə,

Biz ümid toxumu səpmişik yerə,
Dər, oğlum,
demə ki, dərən tapılmır...
Vətən alov etsin odunu sənin,
Böyü, bu torpaqla, bu yurdla öyün.
Mən Araz qoydum ki, adını sənin
Evimdə Arazı çağırım hər gün.

*İyun, 1982*

**QORXU**

*Rəşadla Araz üçün*

Göylərə uzatma əlini
Buluda yetməz, oğul.
Ayağının altına bax,
Nə qədər insan əkilər
Biri də bitməz, oğul!..
Qorxudan yerə girib ağaclar
Köklərini dəfn edib,
qalxıblar ayağa,
Balta gəzir budaqlarında
Köklər ölümlə dodaq-dodağa...
Ulduz işığı yağır gözlərimizə.
Sil dünyanın
dovşan kimi boz,
yovşan kimi
cılız mənzərəsini, -
Baharı çağır gözlərimizə...
Qalxıb buludlara
başımız üstündə yeriyir sular.

Axıb gözlərimizə
qurğuşun kimi damla-damla
əriyir sular.
Ümidi sapa bağlayıb
Süd dişin kimi
çəkərlər, oğul.
Asfalt yoldan bezikib
İnsan axtarır
təkərlər, oğul.
İçimizdə yaxşılıq
tənbəl bir ayı kimi
dabanını yalayır.
Raketlər ac qurd kimi
Üz tutub göylərə
için-için ulayır...
Açıb ciblərini
"səxavət"ə gəlir dünya
Aldığı ölüm,
Satdığı ölüm.
İlanboğan vaxtındır,
O totuş əllərinlə
Boğ dəmir lülələri,
Bu əfi "güllələri",
Ehtiyatlı ol,
Qurbanın olum!..

*Mart, 1982*

**QƏRİB ELDƏ YUXU**

Yuxuma gəldiniz,
a gül balalar,
Dünən ayrılmışdıq,
darıxdım bu gün.
Övladçün odlara girər analar,
Ata məhəbbəti ölçülən deyil.

Öpüb oxşayıram əllərinizi,
Göylər buludları döşəyib yerə.
Ananız həyətə buraxmır sizi,
Necə gəlibsiniz bu qərib yerə?!
İçimdə çatlayıb korun bir ocaq,
Həsrətim kor olub tüstümə mənim.
Dedim, təyyarətək balam uçacaq,
Qol açıb gələndə üstümə mənim.
Qəriblik cücərdi yenə yolumda,
Darıxdım...
Bu nisgil qəlbimi sıxdı,
Bir boşluq dayanıb qapı dalında,
Qapını üzümə açanım yoxdu...
Simurq qanadında gəldiniz, nədi?!
Səbrimin kasası dolub, qadası,
Sizin balıncınız qollarım idi,
Yuxunuz balıncsız qalıb, qadası.
Ürəyim gözümdən boşaldı mənim,
Əliniz gözümün dəsmalı idi,
Buludu göylərdə qovurdu səsim,
Ulduzlar yuxumu yozmalı idi.
Oyandım...
Nəm idi balıncın üzü,
Hələ gözümdəydi yuxunun çini,
Ana hədəsimi qovmuşdu sizi?
Uçdunuz üstümə kəpənək kimi...
Yuxuma gəldiniz, a gül balalar,
Necə şirin idi,
Bu yuxu necə!
Yaxşı ki, həsrətin yuxu yolu var,
Yüyürüb yuxuma gəlin hər gecə!..

*Yanvar, 1982*

## 20 YANVAR

*"Bakının dərdi var, Bakı xəstədi,*
*Könül intizarda, göz yol üstədi".*

*S. Vurğun*

Bakının yuxusu
dağılmışdı küçələrə,
Od ələnirdi
işıq gələn pəncərələrə,
Göydən ölüm yağırdı yerə...
Ruhlar yaralıların
fəryadını tutub
çıxırdılar
Allahın yanına:
Göylərdən baxırdılar
torpağın üstündə
SSRİ-nin xəritəsinə
bənzəyən yaralı canına...
O aylı gecədə,
Ah-vaylı gecədə
için-için ağlayırdı Bakı,
Gilavarla oxşayıb,
Ay işığıyla
övladlarının yaralarını
bağlayırdı Bakı.
Əsgərlərin gözlərindən
ölüm gülümsəyirdi.
Küçələrdə
"siyasətçilər" şüar,
Analar ağı deyirdi:
Qanına qəltan oğul,
Gün kimi batan oğul,
Bizdən nigaran olma,
Sağ olsun atan, oğul.

Yağılar yaman gəldi,
Döyüşə zaman gəldi,
Səngərin boş qalmadı,
Yerinə atan gəldi...
Yaşarsan əməlinlə,
Azadlıq illərinlə,
Neyləyəcəkdin, axı
Bu yalın əllərinlə?!
Dağ üstə dağmı mənim,
Od tutur ağım mənim,
Öldün, dedin yaşasın
Ana torpağım mənim.
Torpağım, daşım ağlar,
Bacım, qardaşım ağlar,
Boyuna qurban, oğul,
Yanar göz yaşım, ağlar.
Boyuna qurban, oğul,
Boyunu yer aparır,
Toyuna qurban, oğul,
Toyun şivən qoparır.
Güllələdilər,
bayrağımızda ulduzu, ayı
güllələdilər,
Bir oğulu nişan alıb neçə nişanı,
toyu güllələdilər...
Dibçəkli eyvanları,
havanı, suyu güllələdilər.
..
Olülər sıxılmış
ovuclarından azadlığı
buraxmaq istəmirdi,

Divarlarda qalmış
qanlı əllərin izləri də
"Azadlıq" deyirdi.
Bakı qanlı paltarını
geyırdı...
Qanlı koynəyinə bürunənlər
şəhidlik zirvəsinə gedirdi.
Orda onların ikinci
həyatı vardı,
Zirvədə ağappaq libas geymiş
ana vardı,
bacı vardı,
ata vardı...

*Yanvar, 1995.*

**QAR YAĞIR
ŞƏHİDLƏR XİYABANINA**

Qış uyuda bilmir bu oyaq qəmi,
Donub başdaşıtək bir dərdli ana,
Didilmiş gəlinlik paltarı kimi
Qar yağır Şəhidlər xiyabanına.

Yorğun əsgərlərin yuxusu dərin,
Son sözü: "Bir içim sərin su verin!"
Örtür yarasını qar şəhidlərin,
Qar yağır Şəhidlər xiyabanına.

Burda ağlayan kim, burda susan kim?
Bizlərdən məhəbbət umub, küsən kim?
Dən düşür torpağın saçına sanki,
Qar yağır Şəbidlər xiyabanına.

*Dekabr, 1995*

**XOCALI**

Tanklar qan üstündən yeridi,
Neçə can üstündən yeridi.
Körpələr qaldı dəmir ayaqlar altında,
İmdad istəyən böyüklərə
güvənmədilər daha.
Ölü anaların döşlərindən
süd əmmədilər daha.
Gözləri heyrətlərindən böyük idi,
Açılmışdı yaradan axan qan kimi.
Üzüqoylu yıxılmışdılar,
Təzədən öləcəkdilər ayağa qalxan kimi.
Xocalı keçirdi xəyanət marağından,
Xocalı keçirdi
tank lüləsindən, yağı gülləsindən, avtomat darağından.
Güllələdilər adamından qarışqasınadək,
Güllələdilər quzusunu, qoçunu
Güllələdilər anaların çəpərlərə
ilişib qalmış saçını,
qardaşı, bacını.
Güllələdilər Babəkin qılıncını
Koroğlunun atını,
Güllələri qaytarmadı
Cavanşirin qalxanı.
Əzdilər yıxılanı,
Vurdular qalxanı.
Hanı bu yurdun
Nəbisi, Səttarxanı?!
Nadanlar satıb getdi
daği- daşı, torpağı.
Ölənlər "Vətən!" deyıb
Kəfən etdi bayrağı.
Nənələr dilində duası ölmüşdü,

Onları aparmağa
uluların ruhu gəlmişdi.
Təzə ruhların əllərindən tutub apardılar,
Körpələri ayağa qaldırdılar
Balaca tabutlara dönmüşdü beşikləri,
Qulaqlarında hələ yaşayırdı
layla səsləri.
Bir az göz yaşlarına,
Bir az ağıya bənzəyirdi.
Laylalar uçulu evlərin
divarlarına dəyirdi,
Laylalar dizlərinə döyürdü,
Dünənə, bu günə, sabaha
Nifrətlə gülümsəyirdi...
Dağılmışdı zaman arasındakı körpülər,
Bir anda yüz il qocalmışdı körpələr.
Sözlərini yanan zəmilərə deyirdilər,
Sözlərini satqın "əmilərə" deyirdilər.
Deyirdilər:
Qalanı satdınız, dağı satdınız
Qarabağı satdınız,
Satdınız anaların yolunmuş saçını
Satdınız Şuşanı, Laçını
Satqınlıqda gördünüz, həyatın əlacını.
Şəhidlərdən soruşun ölümün şərəfini
Qoy onlar desin!
Bu yurd üçün, el üçün
Məşəl olanlar desin!
Biz onsuz da gedirik
Qoy sizin adınızı
sağ qalanlar desin!
Körpələri ruhlar eşitdi,
yaşayanlar duymadı,
Tanklar hey çeynəyirdi
ac lülələr doymadı...

Alovda qızınırdı
soyuğun buz nəfəsi
Havadaca donurdu
göz yaşı, fəryad səsi... Qapalı gözlər vardı,
qulaqlar eşidirdi,
Açıq gözlər var idi,
qapana bilmirdilər,
Baxırdılar bu dəhşətin sonluğuna.
Qapalı gözlər həsəd aparırdı
açıq gözlərin korluğuna.
Əsirlər həsədlə baxırdılar
Ölülərin rahatlığına. Ölülərin son laylasını
küləklər çalırdı, Qanadı qırılmış, gözü yaşlı
mələklər çalırdı:
Neçə toy-düyün getdi,
Ömür getdi, gün getdi,
Bu yerin sahibləri,
Sahibsiz, köçkün getdi.
Heyrətdən donub bəşər,
Dara çəkir xeyri şər.
Sərkərdə satqın olsa,
İgidi əsir düşər.
Daşı, torpağı qanlı,
Tarixi həyəcanlı.
Heyrət içindəyəm mən
Ölü dirildən canlı...
Xocalı xocam mənim,
Ölümdən ucam mənim.
Bir gün öpəm torpağın,
Daşını qucam sənin.

## KİTABIN İÇİNDƏKİLƏR


Nüsrət Kəsəmənli: sevən şair, sevilən şair (*N.Cəfərov*) . . . . . . . . . . 4

ÖLMƏYƏ VƏTƏN YAXŞI

Azərbaycan torpağı . . . . . . . . . . 11
"Yaddan çıxmaz Qarabağ..." . . . . . . . . . . 12
Cıdır düzü . . . . . . . . . . 36
İsa bulağı . . . . . . . . . . 38
Qəhrəman şəhər . . . . . . . . . . 39
Torpaq haqqında nəğmə . . . . . . . . . . 40
Sərsəng lövhələri . . . . . . . . . . 42
Əlincədə bir axşam . . . . . . . . . . 43
Ağlama, Təbrizim, ağlama... . . . . . . . . . . 45
İrəvanda xal qalmadı... . . . . . . . . . . 46
Toğluca . . . . . . . . . . 47
Durnalar bahar axtarır . . . . . . . . . . 48
Zəmi . . . . . . . . . . 50

BU HİCRAN OLMAYAYDI

Küçədən toy keçir . . . . . . . . . . 53
Getmək istəyirsən... . . . . . . . . . . 54
Son sözün . . . . . . . . . . 55
İnam . . . . . . . . . . 56
Bu, həmin payız deyil . . . . . . . . . . 57
Bilsəm yalan deyirsən (*nəğmə*) . . . . . . . . . . 58
Qar kimi . . . . . . . . . . 59
Yandır məktublarımı... . . . . . . . . . . 60
Könülsüz olanda . . . . . . . . . . 61
Sən uşaq deyilsən ki... . . . . . . . . . . 62
Əllərin nə yaman soyuqdur, gülüm... . . . . . . . . . . 62
Bizim görüşümüz . . . . . . . . . . 63
Getdi səmimiyyət . . . . . . . . . . 64
Sən niyə dəyişdin . . . . . . . . . . 65
İnana bilmirsən . . . . . . . . . . 67





İsti yağışlar yağır... . . . . . . . . . . 69
Gecikdi bu yağış... . . . . . . . . . . 70
Sevgi hələ ömür deyil... . . . . . . . . . . 72
Dünən toyun idi... . . . . . . . . . . 74
Gələcəyəm . . . . . . . . . . 76
Bir qıza . . . . . . . . . . 77
Sən gərək... . . . . . . . . . . 78
Sən demə, təzədən sevmək olarmış... . . . . . . . . . . 79
Nə biləydik . . . . . . . . . . 80
Mən ki, sən deyiləm... . . . . . . . . . . 81
Bir sevda ağlayır... . . . . . . . . . . 82
Neyləyim? . . . . . . . . . . 83
Etiraf . . . . . . . . . . 84
Sevənlər deməyəydi... . . . . . . . . . . 87
Sevdirə bilmədim... . . . . . . . . . . 87
Sevə-sevə ayrılaq... . . . . . . . . . . 88
İkimizin yerinə... . . . . . . . . . . 89
Heyf o sevgiyə... . . . . . . . . . . 89
Bu, sən deyilsən... . . . . . . . . . . 90
Yarı məndə, yarı səndə... . . . . . . . . . . 91
Mənim bu göz yaşlarım... . . . . . . . . . . 91
Küsülü qala bilmirəm... . . . . . . . . . . 92
Sevə bilməzsən . . . . . . . . . . 93
Allahım, ayırma bizi... . . . . . . . . . . 93
Səndən sonra... . . . . . . . . . . 94
Sən məni görəcəksən... . . . . . . . . . . 95
Sənin xatirinə... . . . . . . . . . . 96
Bu sevda . . . . . . . . . . 97
Öldürmə məni . . . . . . . . . . 97
Yaşadı . . . . . . . . . . 98
Hələ bu harasıdır... . . . . . . . . . . 98
Qaytar mənə . . . . . . . . . . 99
Səni unutsam... . . . . . . . . . . 100
Bilərəm... . . . . . . . . . . 101
Bura qədərmiş . . . . . . . . . . 102
Sağ əliniz sevənlərin başına... . . . . . . . . . . 102
Saxlayın gedən qatarı . . . . . . . . . . 103

Olacaq ........ 104
Bağlaya bilsən ........ 104
Mən olmadım ki ........ 105
Əlvida demirəm, görüşəcəyik ........ 106
İnanmır ........ 106
Səbr ver, Allahım... ........ 107
"Yazımı görübsən, qışımı görmə..." ........ 108
Məhəbbət demirəm ........ 108
Ağla gözlərim ........ 109
Mənim göz yaşımı görməyəcəksən ........ 110
Bəlkə bu təsadüf... ........ 110
Unuda bilməyəcəksən... ........ 111
Burax gözlərinin həbsindən məni... ........ 112
Yuxuma gələn gözəl... ........ 113
Bağışla... ........ 114
Başımın bəlası ........ 114
Qadasın aldığım... ........ 115
Sənə güvəndiyim dağlar... ........ 116
Özümü aldadıram... ........ 116
Qayıt ........ 117
Olmayacaqdır ........ 118
Apara bilməyəcəksən ........ 118
Bir məktub yazacağam... ........ 119
Unut kədərini... ........ 120
Utanıram... ........ 121
Yasəmən ........ 122
Kaş ki... ........ 123
Ehtiyatı ol! ........ 123
Bilirəm, çətindir... ........ 124
Düşsə neyləyim ........ 125
Görürdüm bu günü ........ 126
Özün yıxılıbsan... ........ 127
Gülə-gülə ağlayan gözəl... ........ 128
Məndən başqa ........ 129
Çiynimdə bir telin gəlib... ........ 130
Hələ də sevirəm... ........ 131
Məndən qaçmayasan ........ 132





Pərişan olmasın... ........ 135
Yük ........ 135
Yalançı dostlarım ........ 136
Qəribə sevinc ........ 137
Qu quşunun nəğməsi ........ 139
Sınıq pəncərələr ........ 140
Cəngi ........ 141
Gecə nəğmələri ........ 142
Tanıya bilmədim ........ 143
Deyəsən təzədən... ........ 144
"Yanıq Kərəmi" ........ 145
Ömürdən bir gün də... ........ 147
Yarpaq tökümü ........ 148
Bəsdir, ağlama, ağlama... ........ 149
Anama ........ 149
Nənəm ........ 150
Nənəmdən sovqat gəlib (*Əsgərlik şeirlərindən*) ........ 151
Yaxşı ki... ........ 152
Bir nağıl gecəsi ........ 153
Çox şey itirmişəm... ........ 155
Məktublar gecikəndə ........ 156
Gümüş yuxular ........ 156
Ovcumda ürək ........ 158
Aydınlıq gecədə ........ 158
Oğurlanmış səssizlik ........ 159
Şeir yazmaq istəyəndə ........ 160
Bir ana gətirdik... ........ 161
Həyat naminə ........ 162
Balta ........ 163
Dəli bir ağlamaq keçir könlümdən... ........ 164
Ağlama bilmirəm ........ 166
İşıqlar, kölgələr ........ 167
Ürəyim ........ 168
Payız gecəsində düşüncələr ........ 169
Hələ bu dünyayla işim var mənim... ........ 170
Qələbənin yaşı ........ 172

Sabir Rüstəmxanlıya ............ 172
Yumul, bənövşəm, yumul... ............ 173
Həqiqət ............ 174
Biri vardı, biri yox ............ 175
Daha nağıllara inanmıram mən ............ 177
Analar ............ 178
20 il sonra... ............ 179
İki sərçə ............ 180
Qırat ............ 182
Apardı sellər Saranı ............ 184
Dəli Domrul ............ 185
Lal xəritə ............ 194
Öldürdüyüm günlər üçün rekviyem ............ 195
Bir gün görəcəksən ki... ............ 196
Fikirli adamlar ............ 197
Boş beşiyin laylası ............ 198
Dayan, bahar çağım ............ 203
Ömrün bu yaşında ............ 205
Qorxulu buludlar, yaxud tənhalıq nağılı ............ 206
Gülürəm ............ 209

ALIN BU KƏDƏRİN ƏLİNDƏN MƏNİ

Alın bu kədərin əlindən məni... ............ 213
Mən belə bir ömrü istəməmişdim ............ 214
Nələr gördüm bu dünyada... ............ 214
Qaytarın mənə... ............ 215
Allaha şikayət ............ 216
Bu gün... ............ 217
Mənsiz dünya ............ 218
Kor ölüm ............ 219
Hazır qəbirlər ............ 220
Ölümə tərəf ............ 222
Qapamayın gözlərimi... ............ 222
Ölümə gedən yol ............ 223
Allaha tərəf... ............ 224
Allahdan istəyim... ............ 226



KİŞİLİK MƏKTƏBİ

Görməmişəm o illəri... ............ 229
Əsgər nəğməsi ............ 230
Əliboş yollar ............ 230
Yollar pərişan deyil ............ 232
İstək ............ 233
İlk addım atırsan ............ 236
Oğlum Araza ............ 240
Qorxu ............ 241
Qərib eldə yuxu ............ 242
20 yanvar ............ 244
Qar yağır şəhidlər xiyabanına ............ 246
Xocalı ............ 247

Buraxılışa məsnl: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Alianna Duxanina*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 07.06.2004. Çapa imzalanmışdır 22.12.2004.
Formatı 60x90 $^{1}/_{16}$ Fiziki çap vəroqi 16. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 225.
Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur. Bakı, Aşıq Ələsgər küç., 17.